Xalqın qəzeti!

# Xalq qəzeti

№ 005 (30409) 12 yanvar 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Prezidentin qətiyyət formulu – ədalətə inamın Zəfər manifesti

**Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində çoxsaylı vacib məqamların üzərində dayandı. Dövlətimizin başçısı bu müsahibə ilə həm yola saldığımız 2023-cü illə bağlı, həm Prezident kimi, fəaliyyətinin 20 illiyinə dair hesabat verdi, həm də ümumən Azərbaycanın 1993-cü ildən başlayaraq inkişaf dinamikasını əks etdirən kifayət qədər dolğun məzmunlu fikirlər səsləndirdi.**



Prezident güclü və qüdrətli, öz məqsədinə doğru inamla, qətiyyətlə, səbr və təmkinlə irəliləyən Azərbaycan obrazını canlandırdı. Bu obraz 1993-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasət xətti əsasında meydana çıxaraq ayaqda qalmaq, var olmaq naminə direniş və əzm göstərmişdi. Dövlət başçımızın davam etdirdiyi kurs isə ona qətiyyət və prinsipiallıq immuniteti qazandırdı. Ən böyük uğur da elə budur. Uğurun Zəfər zirvəsi Azərbaycanın gördüyü çətinliklərin, yaşadığı məhrumiyyətlərin mükafatı olmaqla yanaşı, ədalətin təntənəsidir.

Bəli, Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ilin sentyabrın 19-20-də keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyimizin bərpası haqqın və ədalətin təcəllisidir. Haqq və ədalət mübarizəsinin davamı baxımından bazadır, etibarlı təməldir, eyni zamanda, gələcək tarixi mərhələ üçün münbit zəmindir. Onu da əminliklə söyləmək mümkündür ki, 2024-cü ildə dövlətimiz və xalqımız üçün yeni tarixi mərhələ başlayır ki, fevralın 7-də keçiriləcək Prezident seçkiləri ilə həmin mərhələyə uğurlu start veriləcəyi şübhəsizdir. Mövcud məqam Prezident İlham Əliyevin özünəxas üslubda verdiyi izahda da əksini tapır: “Bu gün ölkə qarşısında duran yeni vəzifələr yeni dövrün vəzifələridir. Biz əsas vəzifəni, siz də qeyd etdiyiniz kimi, bir neçə ay bundan əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik və sentyabr hadisələri, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz. Yəni, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq. Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır”.

*(ardı 3-cü səhifədə)*

## Zəngəzur dəhlizi açılmasa, Ermənistan yenə dalanda qalacaq



**Vətən müharibəsindən ötən 3 il ərzində regionda yaranan geosiyasi durum təhlil ediləndə, ilk növbədə, ölkəmizin sülhpərvər mövqeyi aydın nəzərə çarpır. Bununla yanaşı, rəsmi İrəvanın Qarabağ məsələsini yenidən dondurulmuş vəziyyətdə saxlamaq, status-kvonu qeyri-müəyyən müddətə qədər uzatmaq niyyəti, işğalçının revanş üçün hazırlıq planı və yekun həll prosesini diplomatik dalana dirəmək cəhdi isə onun münaqişəni aradan qaldırmağa çalışmadığını ortaya qoyur. Bu, özünü Azərbaycan, Ermənistan və Rusiya liderlərinin 2020-ci il 10 noyabr tarixində imzaladıqları üçtərəfli Bəyanatın indiyədək tam həll olunmamasında da aydın göstərir.**

Bu kontekstdə ötən gün yerli televiziya kanallarına müsahibə verən Azərbaycan Prezidenti İlham Əliyev, əslində, Ermənistanla sülh müqaviləsinin imzalanması üçün rəsmi Bakının bütün şərtlərini bir daha ifadə etdi və qarşı tərəf üçün normallaşma prosesinin “yol xəritəsi”ni diqqətə çatdırdı.

Dövlətimizin başçısı müsahibədə Tbilisidə İpək Yolu Forumunda Ermənistanın baş nazirinin “erməni qovşağı” layihəsinin adı dəyişdirilmiş forması olan “sülhün kəsişməsi” təşəbbüsünə də münasibət bildirdi. Qeyd edək ki, Azərbaycan, Türkiyə, İran, Gürcüstan və Ermənistan arasında kommunikasiyaların yaradılması və inkişafını nəzərdə tutan belə bir ideya, əslində, yeni deyil. Bu, Azərbaycan tərəfindən üç il bundan əvvəl səsləndirilib və hazırda Nikol Paşinyan həmin təklifin müəllifi kimi çıxış edir.

Müxbirin bu məsələ ilə bağlı sualına cavabında dövlətimizin başçısı regionda Azərbaycanın razılığı olmadan belə layihələrin reallaşmasının mümkünsüzlüyünü vurğuladı. Ölkə rəhbəri fikrinə əlavə olaraq bildirdi ki, Ermənistanın bu təşəbbüsü öz adına çıxması, əslində, sadəcə olaraq, piar aksiyadır. Çünki işğalçı dövlət, bununla əlaqədar məlun 10 noyabr üçtərəfli Bəyanatın müvafiq müddəasını yerinə yetirmir və faktiki olaraq öz öhdəliyinə laqeyd yanaşır. Ona görə bunu pərdələmək, eyni zamanda, “Zəngəzur dəhlizi” sözünü silmək üçün belə bir təklif irəli sürür.

*(ardı 5-ci səhifədə)*

## İrəvan yersiz inaddan niyə əl çəkmir?



**Azərbaycanın 2020-ci ildə apardığı 44 günlük Vətən müharibəsindən və lokal xarakterli antiterror tədbirlərindən sonra bölgədə yaranmış yeni reallıqları Ermənistan rəhbərliyinin qəbul etməli olduğu fikri getdikcə möhkəmlənir. Dünyanın nüfuzlu beyin mərkəzləri də vaxtaşırı bunu etiraf edirlər. Sonuncu dəfə bu istiqamətdə mövqeyini ABŞ-da fəaliyyət göstərən “Stratfor” Analitik Mərkəzi açıqlayıb.**

Mərkəzin 2024-cü il üçün proqnozlara dair dərc etdiyi hesabatda bildirilib ki, Ermənistan tranzit və sərhədlərin delimitasiyası məsələlərində Bakının tələblərini qəbul etməli olacaq. “Stratfor” analitiklərinin fikrincə, İrəvan Bakı ilə sülh sazişi imzalamaq üçün səylərini davam etdirəcək, lakin regional tranzit dəhlizlərinin şərtləri ilə bağlı fikir ayrılıqları danışıqlara bundan sonra da mane olacaq: “Güman etmək olar ki, Ermənistan və Azərbaycan arasında sülh sazişinin imzalanması istiqamətində irəliləyiş var. Amma Ermənistan Bakıya qarşı Qərblə genişlənən siyasi əlaqələrindən və onun hərbi dəstəyindən istifadə etməyə çalışacaq. Bununla belə, İrəvanın təsir vasitələrinin az olduğunu da nəzərə almaq lazımdır. Deyə bilərik ki, Ermənistan rəsmiləri rəsmi Bakının ölkənin cənubundan tranzit yolların keçməsi və sərhədlərin delimitasiyası ilə bağlı irəli sürdüyü tələbləri qəbul edəcək”.

*(ardı 4-cü səhifədə)*

## Media subyektlərinin seçki fəaliyyətinin əsasları



Səhifə ⇨ 6

## Milli turizmin COP29 çağırışları





Səhifə ⇨ 10

## “Sülh sazişi nədən İstanbulda imzalanmasın?”

Səhifə ⇨ 4

## Ana və körpələrini qızılcadan necə qoruyaq?

Səhifə ⇨ 9

## Dünya Bankı Orta Dəhlizin səmərəliyini təşviq edir




Səhifə ⇨ 7

## Dünya 2024-cü ildən niyə qorxmalıdır?



Səhifə ⇨ 11

# Latviya Respublikasının Prezidenti Zati-aliləri cənab Edqars Rinkeviçsə

**Hörmətli cənab Prezident,**

Əlamətdar tarix – Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü ilə əlaqədar Sizi və dost xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Latviya arasında təşəkkül tapmış dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanan əlaqələrin hazırkı səviyyəsi məmnunluq doğurur. Ötən dövr ərzində ikitərəfli əlaqələrimiz möhkəmlənərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, bir çox sahələrdə əməkdaşlığımız dinamik inkişaf etmiş, xalqlarımız arasında tarixən mövcud olmuş təmaslar intensivləşmişdir.

Biz Latviyanın Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə daim verdiyi dəstəyinə görə minnətdarıq.

Bu gün ölkələrimiz arasında əməkdaşlığın inkişafı və yeni məzmunla zənginləşməsi üçün yaxşı imkanlar vardır. İnanıram ki, xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq Azərbaycan-Latviya dostluq və tərəfdaşlıq münasibətlərinin həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində inkişafı və genişlənməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Tezliklə görüşmək ümidi ilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Latviya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 yanvar 2024-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri,**

Latviya ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, ölkənizə və xalqınıza sülh və firavanlıq arzulayıram.

Latviya-Azərbaycan dostluq münasibətləri 100 ildən artıq tarixə malikdir, Azərbaycanda çoxsaylı latviyalı yaşamışdır. Biznes sahəsində tərəfdaşlıq sayəsində ölkələrimiz arasında daha sıx əlaqələr qurulmuş, həmçinin gözəl Bakıdan ilhamlanaraq ədəbi, musiqi və incəsənət şedevrləri yaradılmışdır.

Qarşılıqlı maraq doğuran sahələrdə dialoqumuz və strateji tərəfdaşlığımız dərinləşir. Əminəm ki, birgə səylərimiz Latviya ilə Azərbaycan arasında dinamik mübadiləni daha da inkişaf etdirəcəkdir.

Fürsətdən istifadə edərək, Latviyanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinə və ərazi bütövlüyünə tam dəstəyini bir daha ifadə edirəm. Müstəqillik və ərazi bütövlüyü beynəlxalq nizama əsaslanan qaydaların təməl daşlarıdır və ölkələr arasında dinc yanaşı yaşamanın, dialoqun qorunub saxlanılması çox vacibdir. Dinc, sabit və firavan Cənubi Qafqaz bizim ortaq marağımızdır.

İcazə verin, ölkələrimiz arasında əlaqələri daha da dərinləşdirmək əzmində olduğumu ifadə edim. Bu baxımdan mən Sizin 2024-cü ildə Latviyaya səfər etməyinizi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Edgars RİNKEVİÇS,***
***Latviya Respublikasının Prezidenti***

# Əli Əsədov UNICEF-in regional direktoru ilə görüşüb



**Yanvarın 11-də Baş naziri Əli Əsədov BMT-nin Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya üzrə regional direktoru, UNICEF-in Cenevrədəki BMT ofisində Nümayəndəsi və Avropada Qaçqınlar və Miqrant məsələləri üzə xüsusi koordinatoru Recina De Dominişislə görüşüb.**

Görüşdə Azərbaycanın BMT və onun ayrı-ayrı təsisatları ilə tərəfdaşlığa böyük önəm verdiyi və bu baxımdan UNICEF ilə əməkdaşlığın xüsusi önəm kəsb etdiyi bildirilib.

Azərbaycanla BMT-nin Uşaq Fondu arasında uzunmüddətli və müxtəlif sahələri əhatə edən səmərəli tərəfdaşlığın mövcud olduğu vurğulanıb.

Azərbaycanda uşaqların müdafiəsinin və uşaq hüquqlarının təmin olunmasının diqqət mərkəzində olduğu bildirilərək ötən dövrdə ölkəmizin BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyası əsas olmaqla bir sıra beynəlxalq sənədlərə qoşulduğu vurğulanıb.

Bildirilib ki, 2020-ci ildə "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" və bu çərçivədə 5 illik Fəaliyyət Planı qəbul edilmişdir.

Eyni zamanda Azərbaycanda sağlamlıq imkanları məhdud, eləcə də həssas təbəqədən olan uşaqlara dövlət tərəfindən böyük qayğı göstərildiyi vurğulanıb.

Görüşdə həmçinin keçmiş münaqişədən əziyyət çəkmiş uşaqlara yardım, işğaldan azad edilmiş ərazilərdə mina təhlükəsi ilə bağlı maarifləndirmə, cari ildə Azərbaycanda keçiriləcək İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 çərçivəsində uşaq hüquqlarının qorunması və digər sahələrdə əməkdaşlıq imkanları müzakirə olunub.

**XQ**

# UNICEF-in regional direktoru COP29-a hazırlıq barədə məlumatlandırılıb

**Xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya ölkələri üzrə regional direktoru, Avropa qaçqın və miqrant məsələləri üzrə xüsusi əlaqələndirici Regina de Dominitsis ilə görüşüb.**

C.Bayramov ölkəmizin müstəqilliyinin bərpasının ilk günlərindən BMT-nin müxtəlif ixtisaslaşmış qurumları, o cümlədən UNICEF-lə yaxından əməkdaşlıq etdiyini, xüsusilə Ermənistanın ərazilərimizi işğalı nəticəsində qaçqına və məcburi köçkünə çevrilmiş uşaqlar üçün daha yaxşı təhsil və səhiyyə imkanlarının yaradılması sahəsində aidiyyəti dövlət qurumları ilə birgə uğurlu proqram və layihələrin həyata keçirildiyini qeyd edib.

Nazir, xüsusilə mina təhdidi ilə mübarizə sahəsində UNICEF-lə əməkdaşlıq çərçivəsində aparılan maarifləndirmə fəaliyyətindən bəhs edərək, bu istiqamətdə beynəlxalq ictimaiyyətin diqqətini də bu təhdidə çəkməyin vacibliyini vurğulayıb.

Regina de Dominitsis UNICEF-in Azərbaycanla mövcud uğurlu əməkdaşlıq təcrübəsinin davam etdirilməsində maraqlı olduğunu, xüsusilə Azərbaycanın ev sahibliyi edəcəyi cari ildə keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) və 2026-cı ildə keçiriləcək Ümumdünya Şəhərsalma Forumu çərçivəsində uşaq hüquqları sahəsində müxtəlif birgə təşəbbüslərin həyata keçirilə biləcəyini qeyd edib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

**XQ**

# Azərbaycan – Latviya: əlaqələrin uğurlu inkişafı məmnunluq doğurur

**Yanvarın 11-də Xarici İşlər Nazirliyində Azərbaycan ilə Latviya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.**

Xarici işlər nazirinin müavini Fariz Rzayev iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə təbriklərini çatdırıb. Azərbaycan və Latviya arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin 30 il ərzində müxtəlif, o cümlədən siyasi, iqtisadi, humanitar, elmi-texniki, mədəni və s. istiqamətlər üzrə inkişafından ətraflı bəhs olunub. Ali və yüksək səviyyəli səfərlər və təmasların, habelə strateji dialoqun ötən il Bakıda keçirilmiş ikinci iclasının əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli rol oynadığı qeyd edilib.

Latviyanın Azərbaycandakı səfiri Edgars Skuya diplomatik münasibətlərin 30 illiyi münasibətilə təbriklərini çatdırıb, münasibətlərin bundan sonra da inkişaf edəcəyinə ümidvarlığını bildirib. Azərbaycan ilə Latviya arasında münasibətlərin tarixindən bəhs edən səfir tərixi ənənələr, qarşılıqlı dostluq və əməkdaşlığa əsaslanan əlaqələrin bu gün də uğurla inkişafının məmnunluq doğurduğunu diqqətə çatdırılıb.



Tədbirin sonunda iştirakçılar Azərbaycan ilə Latviya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

**XQ**

# B.V.Məsimovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Baba Vəzir oğlu Məsimov (Baba Vəziroğlu) "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 yanvar 2024-cü il**

# Azərbaycan liderinin telemesajları xarici mediada

**Türkiyə**

**Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi Türkiyə mediasında geniş işıqlandırılıb. Dövlətimizin başçısının fikirləri Türkiyənin TRT, Anadolu Agentliyi, İHA, NTV, "Haber Global", ATV kimi nüfuzlu KİV-lərində geniş yayımlanıb.**







Anadolu agentliyində dərc olunan yazıda dövlətimizin başçısının İkinci Qarabağ müharibəsi dövründə ən çox Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya Prezidenti Vladimir Putin ilə danışıqlar apardığına dair ifadələri əks olunub: "Bu da təbii ki, Türkiyə Prezidenti müharibənin ilk günündən son gününə qədər bizim yanımızda idi, Azərbaycana verdiyi siyasi və mənəvi dəstək bir çoxlarına bir mesaj idi".

TRT-nin yayımladığı xəbərdə isə Azərbaycan Prezidentinin Zəngəzur dəhlizinin açılmasının önəmi barədə fikri xüsusi vurğulanıb, dövlətimizin başçısının çıxışından sitatlar tamaşaçıların diqqətinə çatdırılıb. Məlumatda Prezident İlham Əliyevin "Azərbaycandan Azərbaycana insanlar və yüklər heç bir yoxlama aparılmadan keçməlidir. Əks təqdirdə, Ermənistan əbədi dalan kimi qalacaq və əgər, dediyim marşrut (Zəngəzur dəhlizi – red.) açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik" ifadələrinə yer verilib.




"Haber Global"da yayımlanan informasiyada isə Prezident İlham Əliyevin Fransanın Ermənistanı müharibəyə hazırlaşdırması barədə sözləri diqqətə çatdırılıb: "Bu gün Ermənistanı silahlandıran, onlara ürək-dirək verən, onların hərbçilərini hazırlayan və növbəti müharibəyə hazırlayan ölkə Fransadır".

"İhlas" xəbər agentliyi (İHA) dövlətimizin başçısının yerli televiziya kanallarına müsahibəsi barədə xəbəri oxuculara Prezident İlham Əliyevin "Ermənistanı silahlandıran, müharibəyə hazırlayan ölkə Fransadır" ifadəsindən ibarət sərlövhə ilə təqdim edib.

"Star" qəzeti isə xəbəri "Əliyev: Ciddi məsələ olarsa, ilk zəng edəcəyim şəxs Ərdoğandır" sərlövhəsi ilə təqdim edib. Yazıda Prezident Əliyevin Vətən müharibəsi dövründə ən çox Türkiyə və Rusiya prezidentləri ilə danışıqlar aparması barədə fikrinə xüsusi yer verilib: "Türkiyə Prezidenti müharibənin ilk günündən son gününə qədər bizim yanımızda idi, Azərbaycana verdiyi siyasi və mənəvi dəstək bir çoxlarına bir mesaj idi".

**Gürcüstan**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi Gürcüstan KİV-lərinin diqqət mərkəzində olub.**

"Newsday.ge", "newsday.ge", "qafqazturk.com", "realnews.ge", "aktual.ge", "interpress.ge", "24news.ge" informasiya portalları, "Marneuli FM" radiosu Azərbaycan Prezidentinin müsahibəsindən materiallar dərc edib, xəbərlər yayımlayıblar.




Azərbaycan, rus və gürcü dillərində yayımlanan materiallarda Prezident İlham Əliyevin Azərbaycanın bu gün sürətlə inkişaf edərək dünyanın ən güclü dövlətləri sırasında olması fikri xüsusi vurğulanıb. Bildirilib ki, Azərbaycan xalqının düzgün seçim etdiyi 2003-cü il ölkəmizin müstəqil tarixində ən həlledici məqam olub.

Materiallarda fevralın 7-nə təyin olunmuş növbədənkənar prezident seçkiləri barədə dövlətimizin başçısının fikirləri də oxucuların diqqətinə çatdırılıb. Qeyd edilib ki, seçkiləri şərtləndirən ilk növbədə, sentyabr hadisələrindən sonra Azərbaycanda yeni dövrün başlanmasıdır.

Bundan başqa, materiallarda Zəngəzur dəhlizinin açılmasının vacibliyinə toxunularaq, Azərbaycan Prezidentinin bu barədə sözləri təqdim olunub: "Əgər bu dəhliz açılmasa, Ermənistan əbədi dalan kimi qalacaq və əgər dediyim marşrut (Zəngəzur dəhlizi – red.) açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik. Yəni, beləliklə, onlar bundan daha çox ziyan görəcəklər, nəinki xeyir".

Xəbərlərdə Azərbaycan Prezidentinin müsahibəsində diqqətçəkən məqamlardan birinin də ölkəmizə qarşı ikili standartlardan çıxış edən müəyyən qüvvələrlə bağlı olduğu vurğulanıb. Bu barədə yazılarda Prezident İlham Əliyevə aşağıdakı fikirlərinə istinad olunub: "Bizə qarşı olan mənfi münasibət, ənənəvi mənbələrdən gələn mənfi münasibət dayanmayacaq. Ermənistanı silahlandırma cəhdləri bu məqsədi daşıyır ki, bizi daim təzyiq altında saxlasınlar. Bu, bizi bundan sonra da rahat yaşamağa qoymamaq üçün səylərdir və əfsuslar olsun ki, burada da Fransa yenə də ön plandadır. Bu gün Ermənistanı silahlandıran, onlara ürək-dirək verən, onların hərbçilərini hazırlayan və növbəti müharibəyə hazırlayan ölkə Fransadır. Ona görə mən deyəndə ki, Fransanın siyasəti Qafqazda gərginliyin artmasına səbəb olur, məhz bunu nəzərdə tuturdum".

# Prezidentin qətiyyət formulu – ədalətə inamın Zəfər manifesti

(əvvəli 1-ci səhifədə)



Ədalətə inanmaq. Prezident İlham Əliyevin müsahibəsindəki bu fikir parlaq səslənir. Ulu öndər Heydər Əliyev inamı gənc respublikanın düçar olduğu saysız-hesabsız problemlər içərisindən, sanki, şam işığı ilə tapıb cəmiyyətə təqdim etmişdi. Ümummilli lider, demək olar ki, hər çıxışında haqq davamız üçün ideoloji zəmin hazırlamışdı. Bu böyük şəxsiyyət ədalətə inam hissini Qarabağ dərdimizin qaysaq bağlamasına imkan vermədən aşılamışdı.

Prezident İlham Əliyev 2003-cü ildən başlayaraq, eyni kursu reallaşdırmaqla, Qarabağın və işğal edilmiş digər yurd yerlərimizin timsalında həm haqq və ədalət mübarizəmizi möhkəmləndirdi, həm də əməli fəaliyyəti ilə inamın təntənə anına qovuşması naminə, bir növ, yol xəritəsi müəyyənləşdirdi. Dövlətimizin başçısı da ulu öndər Heydər Əliyev kimi, bütün mötəbər beynəlxalq tribunalarda Qarabağ həqiqətlərini təbliğ etdi. Ən əsası isə inama fövqəltəbii libas biçdi, ona özündə bütün qlobal siyasi oyunların təsirindən sığortanı, qorunmanı birləşdirən zireh qazandırdı. Elə bir zireh ki, Qarabağ itkisinin gətirdiyi sarsıntıların xalqın ruhunu sındırmasına imkan vermədi. Halbuki, belə bir təhlükə var idi: "Çünki 30 il ərzində ədalətə inam Azərbaycan cəmiyyətində müəyyən dərəcədə sarsılmışdı və istənilən cəmiyyət üçün bu, yaxşı hal deyil. Bu, istər-istəməz insanların şüuruna mənfi təsir göstərir, ruh düşkünlüyünə gətirib çıxara bilir, bədbinlik hisslərinin cəmiyyətdə geniş vüsət almasına şərait yaradır. Yəni, cəmiyyətin, sağlam cəmiyyətin yaranması, möhkəmlənməsi üçün bu amillər çox təhlükəlidir. Ona görə ədalətə inanmaq üçün əsas olmalıdır. Onu da biz hamımız bilməliyik ki, ədalət özü-özünə gəlmir, ədaləti sən gərək təmin edəsən. Müasir dünyada biz bunu artıq çoxdan başa düşmüşük. Əgər mənim çıxışlarıma nəzər salsanız, bəlkə də son 10-15 il ərzində mən dəfələrlə deyirdim ki, dünyada beynəlxalq hüquq işləmir. Bu mexanizmlər ancaq zəif ölkələr üçün işə salınır. Böyük dövlətlər buna məhəl qoymur. Onlar üçün sanki qanun qanun deyil, beynəlxalq hüquq hüquq deyil. Belə olan halda, ədaləti tələb edən, haqlı olaraq tələb edən ölkələr bu ədaləti özləri təmin etməlidir. Biz, məhz bu prinsipi rəhbər tutaraq son illər ərzində fəal işləmişik və ədaləti özümüz bərpa etmişik. Ona görə bu, o cümlədən bu nöqteyi-nəzərdən də önəmlidir, çünki ədalətə inam bərpa edildi. Yəni, biz hamımız gördük ki, bəli, ədalət zəfər çalıb, biz öz haqq işimizi yekunlaşdırmışıq və ədaləti özümüz bərpa etmişik".

Bəli, biz ədaləti özü bərpa edən xalqıq. Ancaq nəzərə almalıyıq ki, ötən otuz ilin müəyyən mərhələlərində səngiməkdə olan Qarabağ inamımızı qanunauyğunluq kimi təlqin etmək, daha doğrusu, sırımaq cəhdləri olub. Axı ayrı-ayrı xarici qüvvələrin erməni işğalını leqallaşdırmağa səy göstərdikləri yaxşı xatirimizdədir. Bu qüvvələr müxtəlif layihələrlə Azərbaycan cəmiyyətinə saxta beynəlmiləlçilik ab-havası gətirməyə cəhd etmişdilər. Əslində, ədalətə inamı öldürmək, bütövlükdə Azərbaycan-Ermənistan danışıqlarının ahənginə təsir göstərmək, təslimçilik xətti götürmüşdülər. Ancaq istəklərinə nail ola bilməmişdilər. Ona görə ki, ulu öndər Heydər Əliyevin aşıladığı barışmazlıq ruhu Prezident İlham Əliyevin şəxsində dövlət siyasətinin, o cümlədən, Qarabağ nizamlamasının leytmotivini təşkil etmişdi. Bu leytmotiv xalqımızın xoşbəxtlik axtarışındakı ən böyük dirənişdir. Dirənişdə dövlətimizin başçısının da vurğuladığı kimi, əsas halqanı məqsədlərə çatmaq üçün minimum təzyiqlə üzləşmək taktikası, bütün manipulyativ təklifləri nəzərə almadan, böyük hədəfə doğru məqsədyönlü hərəkət təşkil etmişdi. Bu mənada Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər siyasi dərsliklərə düşəcək qədər mötəbərdir: "Amma mənim üçün əsas məsələ o idi ki, bu, tarixi məsələdir, bu, ümummilli məsələdir və burada hansısa əlverişli görünə biləcək nailiyyət dalınca qaçmaq lazım deyil. Biz məsələni köklü şəkildə həll etməliyik, birdəfəlik həll etməliyik, ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməliyik. Ölkəmizdə separatizm yuvası qalmamalıdır və əgər bizim nəslimizə bunu etmək nəsib olmasa, elə gənc nəsil yetişdirməliyik ki, 20 ildən sonra, 30 ildən sonra, 50 ildən sonra onlar gəlib bunu etsinlər. Bax, əsas məsələ bu idi. Əlbəttə, hamımız xoşbəxtik ki, biz bu tarixi günləri gördük, yaşadıq və bu tarixi Zəfər Azərbaycan xalqının, dövlətinin tarixində əbədi qalacaq".

***

Əlbəttə, ali hədəflərə doğru yol heç vaxt asan olmur. 2020-ci ilin Vətən müharibəsinədək qarşılaşdığımız çətinlikləri dəf etmək son dərəcə müşkül idi. Amma müharibədən sonrakı durumun da ağırlığını xüsusi vurğulamağa ehtiyac var. Prezident İlham Əliyev müsahibəsində həmin məqama dolğun şəkildə nəzər salır. Dövlətimizin başçısının bildirdikləri əsəb müharibəsinin fraqmentləri kimi müstəsna tarixi əhəmiyyətə malikdir və heç şübhəsiz, zaman keçdikcə 2020-ci ildən sonra apardığımız psixoloji savaşın bütün incəlikləri açıqlanacaq.

Nəzərə alaq ki, bir sıra tarixi proseslər üzərindən müəyyən müddət keçdikdən sonra vətəndaşlıq hüququ, tarixin yaddaşında əbədi qalma üstünlüyü qazanır. Bu aspektdən yanaşsaq, ötən il aprelin 23-də yaşanmış hadisə də şanlı tariximizin bir parçasıdır. Həmin tarixdə Həkəri çayı üzərində yaradılmış "Laçın" sərhəd-buraxılış məntəqəsi 2020-ci il noyabrın 8-də yaşanmış Şuşa zəfərinin tamlaşmasını təmin etmişdi. Dövlətimizin başçısı da bu məqamı qabardaraq bildirir ki, 19-20 sentyabr əməliyyatının qısa müddət ərzində aparılmasının əsas səbəbi Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədinin nəzarətdə olması idi. "Çünki separatçılar artıq silah-sursata malik olmaq üçün bu imkanlardan da məhrum edilmişdilər", – deyən Prezident İlham Əliyevin 44 günlük müharibədən sonrakı dövrdə Azərbaycan Silahlı Qüvvələrinin gerçəkləşdirdiyi bütün əməliyyatların strateji əhəmiyyətini vurğulaması bir daha onu göstərir ki, dövlət suverenliyimizin bərpası güclə düşünülmüş, məntiqi siyasətin müqəddəs vəhdət məhsuludur.

Bəli, sentyabrın 20-də yaşanmış təntənə Prezidentin ölçülü-biçili siyasət trayektoriyasının parlaq nəticəsi idi. Əlbəttə, bu hadisənin, ilk növbədə, Azərbaycanın dövlət suverenliyini bərpa etmək əzminin göstəricisi olduğunu vurğuladıq. Ancaq böyük siyasətdə bir çox şeyləri məqsədə doğru səbirlə irəliləmək həll edir. İlham Əliyev şəxsiyyətinin səbirli yanaşması hansısa strateji hədəfi ertələmək məntiqindən uzaqdır.

Azərbaycan cəmiyyəti 20 il ərzində yaxşı gördü ki, əgər dövlətimizin başçısı məsələyə səbirli münasibət göstərirsə, deməli, hədəfə doğru yol daha böyük konseptuallıq qazanır. Çünki səbir hədəfi cilalayır, məfkurə halına gətirir, sanki onu düşüncələrə hopdurur. Əslində, ötən müddətdə dövlətimizin Qarabağ ermənilərinə, o cümlədən, onları alətə çevirmiş separatçılara çağırışları da bunun təsdiqidir. Tam qətiyyətlə demək olar ki, 2020-ci ildən sonrakı psixoloji müharibənin ən böyük komponenti dövlətimizin başçısının davranışlarında özünü qabarıq göstərən təmkin meyarıdır. Bu meyar konseptualdır, sistemlidir və oyun qaydalarının pozulması ilə müşayiət edilən istənilən meyili dərhal müəyyənləşdirmək təbiəti ilə silahlanıb. Müəyyənləşdirmək həm də səhvə məcbur edərək zərərsizləşdirməkdir. Ona görə də Prezident İlham Əliyev bildirir ki, antiterror tədbirlərinədək Qarabağda qanunsuz seçkilərin keçirilməsi razılaşmanın pozulması idi: "Bildiyiniz kimi, sentyabrın 9-da həmin qanunsuz seçkilər keçirilmişdi və o, ikinci qırmızı xətt idi. Çünki birinci qırmızı xətt Ermənistanın baş naziri Paşinyanın sentyabrın 2-də separatist rejimə təbrik məktubunun göndərilməsi idi. Bu, həm qırmızı xəttin pozulması idi, həm də ki, ümumiyyətlə, çox təzadlı bir addım idi. Çünki ondan qabaq Ermənistanın baş naziri Qarabağı Azərbaycan torpağı kimi rəsmən tanımışdı və bunu dəfələrlə bəyan edirdi".

Göründüyü kimi, səbir kasasının daşdığı anlar da olur. Prezident müsahibəsində bununla bağlı məqamları dolğun notlarla diqqətə çatdırır. Dövlətimizin başçısı antitettor tədbirlərini labüdləşdirən məqamları açıqlayır və bu sırada beynəlxalq ictimaiyyətin bəzi qütblərinin Qarabağda separatizm yuvasını saxlamaq cəhdlərindən tutmuş, Ermənistanın həmin cəhdlərdən illüziyaya qapılaraq, həyata keçirdiyi təxribatçı əməllərə, o cümlədən, yüzlərlə insanımızın həyatına son qoymuş mina terrorunadək, bir sıra məsələlər üzərində dayanır.

Bütün bunlara layiqli cavab verilməli idi və cəmi 23 saat ərzində verildi də. Amma dövlətimizin başçısı qarşıya qoyulan hədəfə 23 saat deyil, daha tez çatıldığını da açıqladı ki, bu da lokal xarakterli antitettor tədbirləri ilə əlaqədar gələcək tədqiqatların mövzusu kimi nəzərdən keçirilməsi vacid olan amildir. Prezidentin vurğuladığı bu xüsus da son dərəcə vacibdir: "Həm Ermənistan rəhbərliyinə, həm beynəlxalq aktorlara deyirdim ki, bir dəqiqə ərzində mən düyməyə basıb bu əməliyyatı keçirəcəyəm, heç nə də edə bilməyəcəksiniz. Açıq deyirdim onlara. Bu hadisələrin gedişatı onu göstərdi ki, – hesab edirəm bu, təkcə Ermənistan üçün yox, Ermənistanın arxasında dayananlar üçün də bir dərs olmalıdır, – bizimlə hədə-qorxu dili ilə, yaxud da təkəbbürlə davranmaq mümkün deyil".

***

Prezident İlham Əliyevin Azərbaycan – Ermənistan münasibətləri ilə bağlı üzərində dayandığı başlıca məqamlardan biri də Fransanın ölkəmizə qarşı tutduğu yarıtmaz mövqedir. Əlbəttə, bu mövqenin bir adı var – qatı ermənipərəstlik. Qeyd edək ki, məhz ermənipərəstlik son vaxtlar Paris və Bakı arasındakı ziddiyyətlərin birmənalı çıxış nöqtəsidir. Bütün bunların fonunda yenə də sual yaranır: Fransanın Azərbaycandan istədiyi nədir?

Dövlətimizin başçısı bu suala cavabında hər iki ölkənin qarşılıqlı münasibətlərinin tarixinə ekskurs edərək, kifayət qədər, pozitiv cəhətləri sadalayır. Onun söylədiklərindən hasil olan qənaət budur ki, bütün müsbət məqamlar 44 günlük müharibədən sonra sıradan çıxdı. Daha doğrusu, mühüharibədə ölkəmizin qazandığı Zəfərdən sonra.

Belə ki, Fransa Senatı separatçı rejimi müstəqil dövlət kimi tanıdı, Paris Qarabağ məsələsini dəfələrlə BMT Təhlükəsizlik Şurasına çıxarmağa, Bakını işğalçı kimi təqdim etməyə səy göstərdi. Əlbəttə, bütün bunların heç bir faydası olmadı. "Zənnimcə, ən azı 5 dəfə bu cür cəhdlər edildi və onların hamısı tam uğursuzluqla nəticələndi, çünki ölkələrin əksəriyyəti bizi dəstəklədi və bu qətnaməni qəbul etdirmək üçün onlar dövlətlərin zəruri sayını toplaya bilmədilər. Bu, əlbəttə, onlar üçün çox güclü siyasi zərbə idi, çünki biz belə desək, onlara öz meydançalarında qalib gəldik. Həmçinin düşünürəm ki, Avropa İttifaqının onlara qoşulmaması da böyük bir zərbə oldu, hərçənd məlum oldu ki, Avropa İttifaqı diplomatiyasının rəhbəri, təəssüf ki, Fransanın Azərbaycana qarşı siyasətinə dəstək verənlərin arasında yer alıb. Lakin, ümumilikdə, Avropa İttifaqı ölkələri Azərbaycana münasibətdə vahid mövqe üzrə razılığa gələ bilmədilər, Fransa isə məhz sanksiyalarda və başqa addımlarda israr edirdi. Artıq bu tezislər səsləndirilib və onlar belə desək havadan asılı qalıb, sözdən əmələ keçməyib", – deyən dövlətimizin başçısının ermənipərəst Parisin siyasi rəzillik etüdlərini canladırdığı aşkardır. Nəzərə alaq ki, Fransanın fiasko meydanı yalnız BMT ilə məhdudlaşmır. Bu sırada Avropa İttifaqı və Avropa Parlamenti də var.

Amma Azərbaycan Fransadan qorunmaqla kifayətlənmir, habelə ona qarşı, belə demək mümkünsə, əks-hücuma da keçir. Cənab İlham Əliyev vurğulayır: "Təbii ki, biz yolumuza davam edəcəyik. Qoşulmama Hərəkatında sədrliyimiz başa çatır, amma Bakı Təşəbbüs Qrupu yaşayacaq, biz fransız neokolonializminin ifşa olunmasını və fransız müstəmləkələrinin Fransanın zülmündən azad olunması prosesini dəstəkləyəcəyik".

***

Azərbaycan liderinin yerli televiziya kanallarına müsahibəsində diqqət yetirdiyi növbəti məqam Ermənistanla sülh prosesinin vacib elementi kimi özünü göstərən kommunikasiyaların açılması məsələsi idi. Məlum olduğu kimi, rəsmi İrəvan Azərbaycanın 44 günlük müharibədən sonrakı "Zəngəzur dəhlizi" ideyasına qarşı "Dünyanın kəsişməsi" layihəsini irəli sürməkdədir və bu layihə Ermənistanın müharibə məğlubu kimi üzərinə götürdüyü öhdəliklərdən yayınmasından qaynaqlanır. Öhdəlik isə konkretdir – Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən asan yol olmalıdır.

Dövlətimizin başçısı ötən ilin sonlarına doğru bildirmişdi ki, bu yolda heç bir sərhəd və gömrük nəzarəti qurulmamalıdır. Yəni, yol Azərbaycandan Azərbaycana ərazi məntiqinə əsaslanmalıdır. İrəvan və havadarları isə hər vəchlə buna qarşı çıxırlar və "Dünyanın kəsişməsi" ideyası məhz mövcud anlamda diqqət çəkməkdədir. Prezident İlham Əliyev Azərbaycanın iradəsi olmadan belə bir təşəbbüsün gerçəkləşməyəcəyinə əminlik yaradır. "Onu da bildirməliyəm ki, "Zəngəzur dəhlizi" sözü onları çox qıcıqlandırır və mən deyəndə ki, axı dəhliz hər hansı bir ölkənin suverenliyini şübhə altına almır, – Şimal-Cənub dəhlizi var, Azərbaycan ərazisindən keçir. Bu, o demək deyil ki, bizim suverenliyimiz burada şübhə altına düşür. Şərq-Qərb dəhlizi var, - amma nədənsə Ermənistanda bu dəhliz sözünə münasibət bir az fərqlidir. Ona görə bu erməni yol kəsişməsi, ya yolayırıcı, ondan sonra bunu "sülh yol kəsişməsi" adlandırmışlar. Amma faktiki olaraq bu, piar aksiyadan başqa bir şey deyil", – deyən dövlətimizin başçısı regional kommunikasiyaların açılması müstəvisindəki proseslərdə ölkəmizi işğalçı kimi qələmə vermək istəyən qüvvələrə də layiqli cavab verir. O, bir daha Fransa amili üzərinə gələrək bildirir ki, Parisin yaydığı şayiələr əsassızdır, Azərbaycanın Ermənistan ərazisinə hücum planı yoxdur. Naxçıvana yola gəldikdə isə bunun İranla razılıq formulu artıq var və bu formul İrəvan üçün otuz ilə yaxın davam etmiş təcridin davamlılıq kazusudur. Yəni, ölkəmizin lideri Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyəcəyi təqdirdə, üzləşəcəyi aqibətin xəbərdarlığını verir. Bu xəbərdarlığın bir ünvanı Fransadırsa, digər hədəfi ABŞ-dır.

Haşiyə çıxaq ki, ötən ilin sonlarına doğru ABŞ Konqresinin Nümayəndələr Palatasında gerçəkləşmiş Qarabağ dinləmələri zamanı Naxçıvana yolun İran ərazisindən keçməsinə qarşı çox böyük təpkilər səslənmişdi. Məsələ Birləşmiş Ştatlar üçün son dərəcə vacib tərzdə qoyulmuşdu. Belə qənaət formalaşmışdı ki, əgər Naxçıvana yol Ermənistanın sərhəd nəzarəti həyata keçirilmədən, ölkənin ərazisindən deyil, İslam respublikasından keçsə, Vaşinqton Bakıya qarşı tam fərqli üslubda davranacaq. Bu hədə-qorxu dolu bəyanatın müəllifi isə ABŞ Dövlət Departamenti rəhbərinin köməkçisi Ceyms O'Brayn olmuşdu. Halbuki, məqsəd Naxçıvana yolun İran marşrutunu əngəlləmək mahiyyətindən uzaq idi. Axı, Qərbdə yaxşı bilirlər ki, işğal illərində də Naxçıvana yol İrandan keçib. Görəsən, niyə o zaman məsələyə indiki kimi yanaşılmırdı?

Qərbdə onu da yaxşı bilirlər ki, sözügedən yol İrəvan üçün ciddi nəfəslikdir. Həm nəfəslikdir, həm də erməni avantürizminin davamı baxımından yüksək dividend. Əlbəttə, Azərbaycan məsələnin belə qoyuluşu ilə qətiyyən razılaşa bilməz. Cənab İlham Əliyev bunu ötən il də vurğulamışdı, indi də müsahibəsindəki təfərrüatları açıqlamaqla prinsipial mövqeyini bir daha ifadə etdi. "Bu gün Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqə yenə də İran ərazisindən həyata keçirilir. Niyə buna etiraz edilmir, məhz Mehri hissəsinə etiraz edilir? Ermənistan-İran ticarəti gündən-günə artır, çiçəklənir. İran Qərbi Zəngəzurda konsulluq açıb. Niyə bu, necə deyərlər, heç bir sual yaratmır? Yəni, belə məntiqsiz və cəfəng açıqlamalar heç kimə şərəf gətirmir və "biz buna imkan verməyəcəyik" deyəndə, – mən artıq bunu demişəm, – Amerika nəyi nəzərdə tutur, necə imkan verməyəcək? Gələcək Zəngəzurda bir sədd qoyacaq, ya Zəngilanda bir qoşun yerləşdirəcək, ya İran ərazisində? Necə imkan verməyəcək? Bu, bizim suveren işimizdir. Bizim İranla bu yaxınlarda Astaraçay üzərində körpünün açılışı olmuşdur. Nə üçün? Çünki Şimal-Cənub dəhlizində yükdaşımaların həcmi iki dəfə artıb və hazırda Astaradakı terminal bütün o yükləri götürə bilmir. Rusiya ilə ikinci keçid açmışıq Xanobada və indi Rusiya-Azərbaycan sərhədində iki keçid var, bir idi. İranla da iki keçid var. Yəni, bu, bizim suveren işimizdir", – deyən Prezident İlham Əliyev Ermənistana manipulyasiyalarla məşğul olmamağı da məsləhət bilir. Bu isə bir daha onu göstərməkdədir ki, "Dünyanın kəsişməsi", "Sülhün kəsişməsi" və sair bu sayaq adlandırmalar İrəvanın Azərbaycanla gerçək sülh gündəmini təhrif etmək cəhdindən başqa bir şey deyil və belə yanaşmalar hansısa nəticə verməyəcək. Prezident buna əmin edir: "Azərbaycandan – Azərbaycana, dediyim kimi, heç bir yoxlama aparılmadan insanlar və yüklər keçməlidir. Əks təqdirdə, Ermənistan əbədi dalan kimi qalacaq və əgər, dediyim marşrut açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik. Yəni, beləliklə, onlar bundan daha çox ziyan görəcəklər, nəinki xeyir".

Bilavasitə sülh gündəliyinə gəldikdə isə, dövlətimizin başçısının təbirincə desək, velosiped icad etməyə ehtiyac yoxdur. Yəni, Qarabağ məsələsi bağlanıb. Bu isə o deməkdir ki, sülh gündəliyində erməni avantürizmi üçün hansısa tutacaq yeri yoxdur. Konkret prinsiplər var və Azərbaycan dövləti həmin prinsiplərin beynəlxalq hüquqa uyğunlaşdırılmalı olduğunu vurğulayır. Digər tərəfdən, sülh müqaviləsi üçün əsas şərtlər artıq hazırdır. Ancaq cənab İlham Əliyevin diqqətə çatdırdığı bir vacib məqam da var: "Bu, iki suveren dövlət arasında imzalanacaq sülh müqaviləsidir. Biz orada heç bir zəmanətçilərə ehtiyac duymuruq və əgər bu, ikitərəfli formatda imzalanacaqsa, imzalanmalıdır. Əgər kimsə kömək etmək istəyirsə, biz buna da etiraz etmirik. Ancaq bu kömək elə olmalıdır ki, məcburi olmasın. Çünki bəziləri indi yarışa çıxıblar ki, danışıqlar bu ölkədə keçirilsin, o ölkədə keçirilsin, ya üçüncü ölkədə keçirilsin. Bu, bir qədər geosiyasi rəqabətə bənzəyən bir şeydir. Mən bunu istəməzdim. Mən ümumiyyətlə istəməzdim ki, Ermənistan-Azərbaycan münasibətləri geosiyasi mövzuya çevrilsin. Bu, bizim iki ölkə arasındakı məsələmizdir, özümüz də bunu həll etməliyik. Əgər razılığa gəlsək, sülh müqaviləsi imzalanacaq. Əgər razılığa gəlməsək, deməli, ya danışıqlar davam etdiriləcək, ya danışıqlar dayandırılacaq. Hər iki variant da mümkündür".

Ümumən, Azərbaycan Prezidentinin müsahibəsində Ermənistanla sülh gündəmi baxımından diqqət yetirdiyi iki vacib cəhət diqqət çəkməkdədir. Bunlardan birincisi, Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyası və demarkasiyasıdırsa, digər məqam işğal altında olan kəndlərimizin geri qaytarılmasıdır. Əlbəttə, hər iki məsələ prinsipial əhəmiyyətə malikdir. Lakin sərhədlərin delimitasiyası prosesi sülh müqaviləsindən sonra da reallaşa bilərsə, işğaldakı kəndlərimizin geri qaytarılması uzanmamalıdır. Hər halda, dövlətimizin başçısının fikirlərindən gəlinən nəticə bunu söyləməyə əsas verir.

Bəli, Azərbaycan Prezidenti israrlıdır və bu xarakter tarixin acı dərslərindən nəticə çıxarmağı təlqin edir. Nəzərə alaq ki, dövlətimizin başçısının toxunduğu son dərəcə həssas məqamlar var. Həmin məqamlar hazırda da Ermənistanla sülh prosesinin elementidir. Məsələn, Azərbaycan – Ermənistan sərhədlərinin dəqiqləşməsi müstəvisində qarşı tərəfin irəli sürdüyü prinsiplərdən biri budur ki, delimitasiya prosesi ötən əsrin 70-ci illərindən sonrakı xəritələr hesabına aparılsın. Görəsən nə üçün? Səbəbi cənab İlham Əliyev müsahibəsində ətraflı izah edir. Prezident vurğulayır ki, torpaqlarımızın Ermənistana peşkəş verilməsi mərhələli proses olub. İlk mərhələ 1918-ci ildə İrəvanın güzəştə gedilməsidir: "Yəni, 28 mayda respublika elan olundu, 29 mayda İrəvan Ermənistana verilir. Onun da izahatı heç bir məntiqə sığmır ki, bunu verməklə Ermənistan Azərbaycana qarşı ərazi iddialarından əl çəkir. Əl çəkdimi? Yox, daha da azğınlaşdı. İrəvandan olan nümayəndələrin - o vaxt Azərbaycan Xalq Cümhuriyyətində təmsil olunmuş nümayəndələrin etirazı nəzərə alınmadı. Yəni, o, böyük tarixi cinayət idi və o, bir başlanğıc idi".

(ardı 5-ci səhifədə)

**Ermənistan və Azərbaycan arasında qarşısıalınmaz prosesə çevrilmiş sülh sazişinin imzalanması məqamı yaxınlaşdıqca, təntənəli mərasimə evsahibliyi etmək istəyənlərin sayı da çoxalmaqdadır. Tərəflər münaqişəyə son qoyacaq ikitərəfli barışığa siyasi razılıqlarını bildirsələr də, İrəvanın sazişin mətni üzərində "redaktə" xarakterli işləri hələ də davam etməkdədir.**

Bakı və İrəvan arasında sülhə nail olmaq yolunda təşəbbüslərindən əl çəkməyən kənar aktorlar dialoqun sonuncu və həlledici mərhələsinə öz maraqlarına uyğun "tövsiyələrini" verməyə, Cənubi Qafqazda bərqərar olacaq sabitlikdən paylarını qoparmağa can atırlar. Bu sırada Moskvanın və Vaşinqtonun intensivləşən səylərini xüsusi qeyd etməyə dəyər.

* * *

Yeni ilin ilk günlərindən etibarən rəsmi İrəvanın bu istiqamətdə müəyyən fəaliyyəti hiss olunmaqdadır. Dünən Ermənistanın xarici işlər naziri

# "Sülh sazişi nədən İstanbulda imzalanmasın?"

## Milli Məclisin deputatının təklifi erməni tərəfə əlavə şans açır



Ararat Mirzoyan yunanıstanlı həmkarı Giorgos Gerapetritislə İrəvanda keçirdiyi mətbuat konfransında Azərbaycanın sülh müqaviləsinə münasibəti barədə anlaşılmaz və ziddiyyətli fikirlər səsləndirib. Erməni mediasının yazdığına görə, Mirzoyan hakimiyyətin mövqeyini belə ifadə edib:

"Mən deyə bilərəm ki, sülh sazişi mətninin müəyyən bəndləri üzrə Azərbaycanın təkliflərində məzmun baxımından müəyyən geriləmə müşahidə etsək də, eyni zamanda, bir sıra digər sahələrdə müəyyən irəliləyişi də görürük".

Mirzoyanın sözlərinə görə, Ermənistan müqavilənin mətnindəki həmin məqamlar üzərində işləyib və öz konstruktiv təkliflərini Bakıya göndərib. Nazir əlavə edib ki, növbəti təkliflər paketində irəliləyiş və ya geriləmədən asılı olmayaraq, sülh müqaviləsi İrəvanın dəfələrlə səsləndirdiyi "bir sıra prinsiplərə" əsaslanmalıdır.

"Ölkələr heç bir qeyri-müəyyənlik olmadan qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü tanımalıdır. Əslində, bu, maksimum aydınlıq tələb edən məsələdir. Yekun sülh müqaviləsi bu aydınlığı təmin etməlidir", – deyən Mirzoyan onu da qeyd edib ki, delimitasiya prosesi illər çəkə bilər, lakin sülh müqaviləsində prosesin aydın səbəbləri göstərilməlidir.

Ermənistanın baş diplomatının sözlərinə görə, bu iki məsələdə hər hansı qeyri-müəyyənlik "gələcək təcavüz və eskalasiya üçün" əsas ola bilər.

Yeri gəlmişkən, bir neçə gün əvvəl Ermənistan təhlükəsizlik şurasının katibi Armen Qriqoryan bildirmişdi ki, Ermənistan sülh müqaviləsi ilə bağlı cavab təkliflərini yanvarın 4-də Azərbaycana çatdırıb: "Dekabrın sonunda Azərbaycandan təkliflər paketi daxil olub və iki həftə ərzində Ermənistan tərəfi öz variantını göndərib"... Bakıdan hələ cavab alınmayıb".

* * *

Məğlub İrəvanın sülh danışıqlarının son mərhələsində qalib Bakıdan maksimum güzəştlər "qoparmağa" çeşidli cəhdlərə baş vurması aydındır. Fəqət rəsmi Bakının bu cəhdlərin prosesi ləngidəcəyini bilərəkdən edilməsini erməni riyakarlığının və ikiüzlülüyünün təzahürü kimi qəbul etməkdən başqa yolu qalmayıb. Son vaxtlar birbaşa, "tet-a-tet" dialoqun ətrafında dolaşan maraqlı versiyalardan biri də sülh sazişinin imzalanmasının artıq qaçılmaz olduğu və bunun deyilənlərdən fərqli bir məkanda reallaşacağı ilə bağlıdır.

Bu barədə XQ-yə açıqlama verən Milli Məclisin deputatı, politoloq Rasim Musabəyovun fikrincə ABŞ, Fransa, Rusiya, İran kimi böyük dövlətlər Ermənistanı sülh müqaviləsinin imzalanmasından yayındıra bilməyəcəklər:

"Təbii ki, bu dövlətlərin hər biri bölgədən öz payını qoparmağa çalışır. Misal üçün, Tehran dəmir yolunun təminatçısı kimi özünü irəli verir. Yəni, Rusiya və Türkiyə ilə yanaşı, İranın təminatını da reallaşdırmaq barədə düşünür. Rusiyanın marağı odur ki, sülh müqaviləsinin, hətta, Türkiyənin və İranın iştirakı ilə imzalanması gürçəkləşə bilər, amma bundan ötrü görüş məkanı mütləq Moskva olmalıdır. Qərbin sülh vasitəçiləri isə münaqişəyə son nöqtəni qoyacaq sazişin ya Brüsseldə, ya da Vaşinqtonda bağlanmasının tərəfdarıdırlar. Bəli, bu məsələdə onların da öz maraqları var. Amma düşünürəm ki, bütün variantları götür-qoy etdikdə, birbaşa dialoqun yekunu olaraq saziş Tbilisidə imzalanmalıdır. Digər variant Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması ilə yanaşı, buna paralel şəkildə Türkiyə–Ermənistan arasında da münasibətlərin nizamlanması ilə bağlı hansısa sənəd ortaya çıxarsa, nədən bu iki sənəd İstanbulda imzalanmasın? Oraya Rusiya və İran prezidentləri də gələ bilərlər. Düşünürəm ki, Bakı münasibətlərin məhz bu qaydada, ikitərəfli və üçtərəfli



formatda nizamlanmasına, müvafiq sənədlərin İstanbulda imzalanmasına razılığını verər. Görək İrəvan buna hazırdırmı? Bu suala cavab vermək çətindir".

Ermənistan baş naziri Nikol Paşinyanın region ölkələri arasında münasibətlərin bütün müstəvilərdə bərpasına hazır olduğu barədə açıqlamalarını hamı xatırlayır. Onun üçün "bir güllə ilə iki dovşan vurmaq" anlamına gələn bu ideya diqqətlə nəzərdən keçirilməyə layiqdir. Burada əsas məqam isə danışıqları çoxtərəfli platformalarda davam etdirmək tərəfdarı olan kənar vasitəçilərin bu prosesdən avtomatik olaraq kənarlaşmaları olacaq. Hələlik, neytral müşahidəçinin irəli sürdüyü təklif kimi baxıla biləcək bu təklifin reallamasına başlıca əngəl sülh sazişinin mətnindəki "incə nüanslar" deyil, İrəvanın siyasi iradə nümayişi ilə bağlıdır. Deputat R. Musabəyov da bu qənaətdədir:

–Təkrar edirəm, indiki məqamda sülh sazişinin mətnindən daha çox, kənar təminatçılardan danışmağa ehtiyac yoxdur. Fikrimcə, imzalanma mərasiminin keçiriləcəyi ünvan tez müəyyən edilməlidir, çünki bu məsələ sülh prosesini ləngidir.

Beləliklə, hadisələrin Milli Məclisin deputatının dediyi ssenari üzrə inkişafı həm Bakıya, həm Ankaraya, həm də İrəvana siyasi dividendlərlə yanaşı, ticari–iqtisadi fayda gətirəcəyi birmənalıdır. Bu zaman bölgədən kənardakı aktorlar vasitəçi statusundan vaz keçərək, sadəcə müşahidəçi rolunu oynamağa məcbur olacaqlar.

*İmran BƏDİRXANLI*
*XQ*

# İrəvan yersiz inaddan niyə əl çəkmir?

## Paşinyan iqtidarı "Stratfor"un çağırışını qulaqardına vurmamalıdır



(əvvəli 1-ci səhifədə)

"Stratfor", həmçinin bildirib ki, Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlər, habelə ticarət əlaqələri yeni səviyyəyə qalxacaq: "Cənubi Qafqazda Şərq–Qərb tranziti əsasən Gürcüstan ərazisindən keçməklə davam edəcək. Azərbaycan isə Rusiyanı İranla birləşdirən Şimal–Cənub dəhlizinin inkişafına töhfə verəcək".

Qeyd etdiyimiz kimi, "Stratfor"un belə bir qənaətə gəlməsi ölkəmizin Vətən müharibəsində və postmüharibə dövründə əldə etdiyi ardıcıl qələbələrlə bağlıdır. Əgər müharibənin başa çatmasından sonra Azərbaycan və Ermənistan liderləri arasında 2021-ci il yanvarın 11-də Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Moskvada keçirilən ilk görüşdən sonrakı mətbuat konfransında Nikol Paşinyan "Dağlıq Qarabağ münaqişəsi"nin həll olunmadığını iddia etmişdisə, Avropa Siyasi Birliyinin 2022-ci il oktyabrın 6-da Praqada keçirilən I sammitində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıyan sənədə imza atmışdı. Paşinyan həmin mövqeyini sonralar Brüsseldə və Kişineuda keçirilən görüşlərdə də təsdiqləmişdi. Nəhayət, 2023-cü il mayın 22-də keçirdiyi mətbuat konfransında Nikol ilk dəfə Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazi bütövlüyünü tanıdığını və bura Qarabağın da daxil olduğunu bəyan etmişdi.

Həmin bəyanatın verilməsinədək isə mühüm hadisələr baş vermişdi. 2021-ci ilin mayında – qar əridikdən sonra Azərbaycan sərhədçiləri Qaragöl ətrafında ölkəmizin sərhədlərinə sahib çıxmış, həmin ilin noyabrın 16-da hər iki tərəfdən itkilərlə müşayiət olunan insident qeydə alınmışdı. 2022-ci il sentyabrın 12–14-də Vətən müharibəsindən sonrakı ən böyük hərbi toqquşma yaşanmışdı. Bəzən "İkigünlük müharibə" adlandırılan hərbi əməliyyatlar zamanı Ermənistan ordusu ağır itkilər vermişdi. Aprelin 23-də "Laçın" sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması ilə ərazi bütövlüyümüz təmin edilmişdi. Yəni, Ermənistan baş nazirinin may ayında "Qarabağ Azərbaycandır!" deməsi öz xoşu ilə baş verməmişdi. Bu, yazımızın girişində qeyd etdiyimiz kimi, Azərbaycanın yaratdığı reallıqların nəticəsi idi.

Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində qeyd etdiyi fikirlərdən iqtibas gətirmək yerinə düşər: "2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi. Üç il ərzində biz bunu sülh yolu ilə həll etmək istəyirdik. Hesab edirdik ki, Ermənistan rəhbərliyi İkinci Qarabağ müharibəsinin nəticələrini düzgün təhlil edərək özü üçün nəticə çıxaracaq. Əfsuslar olsun ki, bu, belə olmadı. Üç il ərzində Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri nəinki yerinə yetirmədi, hətta, əksinə, bizə qarşı yeni hərbi təxribatlar hazırladı və onları həyata keçirdi. Qanunsuz olaraq torpağımızda məskunlaşmış 15 minlik Ermənistan ordusu Qarabağdan çıxarılmadı. Əksinə, yeni silahlar, sursatlar, hərbi texnika, minalar Qarabağa gətirildi və bizə qarşı mina terroru davam etdirildi. Təbii ki, biz bu vəziyyətlə barışa bilməzdik…"

### Ekspert rəyi



**Elxan ŞAHİNOĞLU,**
**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri**

**Azərbaycanla Ermənistan arasında bu il sülh sazişinin imzalanması ehtimalı yüksəkdir. Təkliflər müzakirə olunur, irəliləyiş var. Ancaq sülh sazişinin imzalanması iki ölkə arasında bütün məsələlərin həlli demək olmayacaq. Böyük ehtimalla iki məsələ sülh sazişindən kənarda qalacaq. Bunlar kommunikasiya xətlərinin açılması və sərhədlərin delimitasiyasıdır. Həmin istiqamətlər üzrə danışıqlar hələ bir müddət də davam edəcək. Sərhədlərin müəyyənləşməsi ilə bağlı danışıqlar, ümumiyyətlə, çox illərimizi ala bilər. Bunu da özümüzə dərd etməməliyik. Zatən, sərhəddəki strateji yüksəkliklər nəzarətimizdədir.**

**Kommunikasiya xətlərinin açılması ilə bağlı məsələni də Ermənistan üç il ləngitdi. Biz İranla münasibətlərdəki müəyyən gərginliklərə rəğmən, Tehranla razılaşma əldə etdik. Yəni, kommunikasiya xətlərinin açılmasının özü də, əslində, daha çox Ermənistana lazımdır. Ölkənin xarici işlər naziri Ararat Mirzoyan açıqlama verib ki, Ermənistan da Azərbaycanın kommunikasiya imkanlarından istifadə etmək hüququna malik olmalıdır. Biz bunun əleyhinə deyilik. Burada qeyri-adi heç nə yoxdur. Rəsmi İrəvan Azərbaycan vətəndaşlarının Zəngəzur dəhlizindən sərbəst keçməklə, yoxlamaya məruz qalmadan Naxçıvan Muxtar Respublikasına və Türkiyəyə rahat gediş-gəlişinə imkan versə, Ermənistan da ölkəmizin dəmir yollarından istifadə etməklə Rusiyaya, hətta Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsilə Mərkəzi Asiyaya çıxış imkanı əldə edə bilər. Ancaq qeyd etdiyim kimi, yeganə şərt bizim vətəndaşların yoxlamadan keçmədən Naxçıvana gediş-gəliş hüququnun tanınmasıdır. Zənnimcə, bu istiqamətdə danışıqlar gələcəkdə də davam edəcək və "Stratfor"un hesabatında qeyd edildiyi kimi, Ermənistanın Azərbaycanın şərtini qəbul etməsi mümkündür. Bizim şərtimiz isə Azərbaycan vətəndaşlarının Zəngəzur dəhlizi vasitəsilə sərbəst gediş-gəliş imkanına malik olmasıdır. Mərkəzi Asiya və Çindən gələn yükləri isə Ermənistan öz yurisdiksiyası çərçivəsində yoxlaya bilər. Biz bunun əleyhinə deyilik.**

### Ekspert rəyi



**Aydın MİRZƏZADƏ,**
**Milli Məclisin deputatı, politoloq**

**Azərbaycanın sülh sazişi ilə bağlı təklifləri beynəlxalq hüquqa uyğundur və ədalətlidir. Bunu beynəlxalq təşkilatlar və xarici ölkələr də görürlər. Buna görə də ölkəmizin mövqeyi gün-gündən daha çox tərəfdar tapır. Prinsipcə, Ermənistan da Azərbaycanın mövqeyinin ədalətli olduğunu dərk edir. Ancaq İrəvan mümkün qədər çalışır ki, sülh sazişində Azərbaycanın suveren hüquqlarını pozacaq müddəalar öz əksini tapsın. Bu, açıq-aydın görünür. Təsadüfi deyil ki, onlar vaxtaşırı sülh sazişinin bağlanmasını ləngidən şərtlər irəli sürürlər. Sonra isə özləri həmin şərtlərdən imtina edirlər.**

**Ölkəmiz üçün vacib məsələlərdən biri də Naxçıvanla quru əlaqəsinin yaradılmasıdır. Azərbaycan haqlı olaraq, beynəlxalq təcrübəyə əsasən tələb edir ki, Naxçıvana gedən yerli təyinatlı yüklər hər hansı yoxlamadan və gömrük rüsumundan azad olunmalıdır. Çünki Azərbaycan xarici ölkəyə yox, məhz öz ərazisinə yük və sərnişinlərin daşınmasını həyata keçirir. Əgər Azərbaycan Ermənistana və Naxçıvan ərazisindən digər ölkələrə yük göndərəcəksə, bu, əlbəttə, gömrük yoxlamasına məruz qala bilər.**

**Ermənistan unudur ki, Zəngəzur dəhlizindən təkcə Azərbaycan istifadə etməyəcək. Rusiya, Mərkəzi Asiya dövlətləri, eyni zamanda, Çin, Türkiyə, Avropaya və ərəb dünyasına çıxmaq istəyən ölkələr də bu yoldan geniş istifadə edəcəklər. Azərbaycandan Naxçıvan Muxtar Respublikasına gedən yüklər Zəngəzur dəhlizindən keçən yükləsin çox az hissəsini təşkil edəcək. Ermənistan gec-tez Azərbaycanın bu haqlı tələbini qəbul etməlidir. Beynəlxalq analitik mərkəzlər Zəngəzur dəhlizinin təkcə region üçün deyil, dünya üçün böyük əhəmiyyət daşıdığını qəbul edirlər. Ölkəmizin mövqeyinin qəbul edilməsi, dəstəklənməsi, bir daha Azərbaycanın öz suveren hüquqlarını həyata keçirmək üçün ədalətli və haqlı addımlar atdığını göstərir.**

Bəli, Azərbaycanın yaratdığı yeni reallıqlar indi nüfuzlu araşdırma mərkəzləri tərəfindən də etiraf olunur. Əslində, bununla Ermənistan rəhbərliyinə subliminal mesaj verilir ki, hazırda iki ölkə arasında həllini gözləyən əsas məsələlərdə konstruktiv yanaşma nümayiş etdirsin. Sülh sazişinin mətni ilə bağlı əhəmiyyətli irəliləyiş əldə olunsa da, hələ də həllini gözləyən bir neçə məsələ mövcuddur. Ancaq sülh sazişinin imzalanması ilə birbaşa bağlılığı olmayan kommunikasiyaların açılması və sərhədlərin delimitasiyası məsələsində ciddi irəliləyiş nəzərə çarpmır. Halbuki, qeyd etdiyimiz kimi, bu proseslərin bir-birindən asılılığı yoxdur. Ermənistan kommunikasiyaların açılması ilə bağlı 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatla üzərinə öhdəlik götürüb və həmin öhdəlik yerinə yetirilməlidir.

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bir neçə gün öncə Almaniyanın "Berliner Zeitung" qəzetinə müsahibəsində qeyd etdiyi kimi, "dəhliz" termini Ermənistanı qorxutmamalıdır, çünki bu, nəqliyyat marşrutları kontekstində geniş istifadə olunur: "Bu nəqliyyat əlaqəsi Ermənistanı İranla sərhədindən məhrum etməyəcək. Bu marşrut Ermənistanı iki hissəyə də bölməyəcək. Təəssüflər olsun ki, bununla bağlı xüsusən də bəzi Qərb mediasında ölkəmizə qarşı geniş şər-böhtan kampaniyasının aparıldığını görürük".

Ölkəmizin kommunikasiyaların açılması və delimitasiya məsələsində mövqeyinin ədalətli olması Ermənistan rəhbərliyinin 2024-cü il ərzində onu qəbul edəcəyi qənatinə gəlməyə əsas verir. "Stratfor"un proqnozu isə bunun ilk müjdəçisidir.

*Səxavət HƏMİD*
*XQ*

AKTUAL ŞƏRH

# Zəngəzur dəhlizi açılmasa, Ermənistan yenə dalanda qalacaq



(əvvəli 1-ci səhifədə)

Azərbaycan rəhbəri müsahibəsində "Zəngəzur dəhlizi" sözünün Ermənistanı çox qıcıqlandırdığını vurğulayaraq dəhlizin hər hansı bir ölkənin suverenliyini şübhə altına almadığını bildirdi. Vurğuladı ki, Şimal–Cənub dəhlizi var, Azərbaycan ərazisindən keçir. Bu, o demək deyil ki, bizim suverenliyimiz burada şübhə altına düşür. "Şərq–Qərb dəhlizi" ifadəsinə isə hansısa məntiqlə Ermənistan fərqli baxışla yanaşır. Dövlətimizin başçısının haqlı olaraq qeyd etdiyi kimi, qarşı tərəf bunu "erməni yol kəsişməsi", yaud "yolayırıcı", daha sonra isə "sülh yol kəsişməsi" adlandırıb. Amma faktiki olaraq bu, piar aksiyadan başqa bir şey deyil.

Prezident İlham Əliyev müsahibədə bir daha məlum 10 noyabr üçtərəfli Bəyanatın müvafiq müddəasını xatırladaraq Ermənistanın, ilk növbədə, Zəngilanla Ordubad arasındakı ərazidə Azərbaycana maneəsiz keçid vermək öhdəliyini üzərinə götürdüyünü, Azərbaycandan Azərbaycana, yəni respublikamızın digər ərazilərindən Naxçıvana gedən yüklərin, eləcə də vətəndaşlar və avtonəqliyyat vasitələrinin heç bir yoxlamadan keçmədən, gömrük inzibatçılığına cəlb edilmədən sərbəst keçidinə əngəl törətmək istəyini diqqətə çatdırıb. Dövlətimizin başçısı bununla bərabər, digər ölkələrin yüklərinin Ermənistan ərazisindən daşınması prosesində isə bütün gömrük rüsumlarının tətbiqinin ədalətli mövqe olduğunu xatırladıb.

Ölkə rəhbəri müsahibədə Zəngəzur dəhlizi ilə bağlı daha bir önəmli məqama – yolun təhlükəsizliyi ilə bağlı məsələyə də toxundu: "Mən dəfələrlə Ermənistan rəhbərliyinə demişəm ki, Ermənistanın qarantiyaları bizə kifayət deyil. 10 noyabr Bəyanatında göstərilmişdi ki, Rusiya sərhədçiləri 42-43 kilometr ərazidə təhlükəsizliyi və nəzarəti həyata keçirirlər və bu öhdəlik yerinə yetirilməlidir. Ermənistan isə bundan indi boyun qaçırmaq istəyir. Halbuki bu da məntiqli deyil. Çünki Rusiya sərhədçiləri Ermənistanın, İrəvanın aeroportundadırlar, Ermənistan-İran, Ermənistan-Türkiyə sərhədindədirlər. Niyə orada onlar qala bilərlər, amma burada qala bilməzlər? Sadəcə olaraq, bu, bir bəhanədir ki, bu yol açılmasın...".

Bu məqamda xatırladaq ki, ötən müddətdə Ermənistanın havadarları, məsələn, Fransa dəhlizin açılmasına hər vəchlə mane olmağa çalışıb, hətta bu məsələ ilə bağlı Azərbaycana iftira atmaqdan belə çəkinməyib. Məsələn, işğalçı dövlətin mənafeyini müdafiə edən, haqq-ədalətdən dəm vuran bəzi dövlətlər, guya bu yol açılmasa, ölkəmizin güc tətbiq edərək məqsədini reallaşdırmaq istəyində olması ilə ittiham ediblər.

Prezident İlham Əliyevin sözləri ilə desək, halbuki bu, cəfəng bir ittihamdır. Belə ucuz şayiələri yayan da Fransadır. Biz dəqiq bilirik ki, hər yerdə danışırdılar və bu gün də yəqin ki, davam edir ki, bu gün-sabah Azərbaycan Ermənistana hücum edəcək. Halbuki bunun heç bir əsası yoxdur, heç bir hazırlıq da getmir və bu gün hazırlığı gizlətmək də mümkün deyil. Çünki hər şey yuxarıdan, peykdən görünür, digər informasiya mənbələri var...

Müsahibədə Azərbaycanın dəhliz infrastruktur ilə əlaqədar bundan sonrakı fəaliyyətinə də nəzər salınıb. Belə ki, üç il ərzində bölgədə sülhün, əmin-amanlığın bərpasını istəməyən qüvvələrin pozuculuğunun sonunu gözləmədən ölkəmiz alternativ yol seçmək fikrini reallaşdırdı–Azərbaycanın əsas hissəsinin Naxçıvanla birləşdirilməsi qərarına gəlindi. Bununla bağlı artıq İranla razılıq əldə edilib. Ötən qısa müddətdə infrastrukturun təməlqoyma mərasimi keçirilib. Hazırda Ağbənd istiqamətində artıq birinci körpünün inşasına başlanılıb və ikinci körpünün isə cari il Ordubad istiqamətində tikintisi nəzərdə tutulub.

Yeri gəlmişkən, Ermənistanın manipulyasiya edərək Azərbaycanın əsas hissəsindən Naxçıvana təklif etdiyi marşrut tamamilə yararsız haldadır və o yolun mütəmadi işləməsi mümkün deyil. Çünki həmin marşrutun keçdiyi ərazi relyef baxımından əlverişsizdir, yol payız-qış aylarında çox vaxt bağlı olur. Belə halda ən səmərəli variant Mehri ərazisindəndir. Bu coğrafiyada sovet vaxtında dəmir və avtomobil yolları istismar olunub. Ermənistanın belə bir ədalətli, həmçinin səmərəli təkliflə razılaşmadığı təqdirdə şübhəsiz ki, iqtisadi-ticari əlaqələrində acınacaqlı vəziyyət yaranacaq.

Dövlətimizin başçısı müsahibəsində Xəzər regionunun Avropanın enerji keçidinin əsas mərkəzlərindən birinə çevrilməsi, hətta 2030-cu ilə qədər bu potensialın 30 faiz artırılmasının planlaşdırılması, həmçinin ölkəmizin bu il COP29 kimi böyük bir tədbirə evsahibliyi edəcəyi ilə bağlı üzərinə düşən vəzifələr barədə ətraflı bəhs etdi. Dövlətimizin başçısı, eyni zamanda, bütün bunların Azərbaycan üçün mühüm önəm daşıdığını, respublikamızın beynəlxalq nüfuzunu göstərdiyini və uğurlu siyasətimizdən xəbər verdiyini bildirib.

Ölkə rəhbəri COP29-la bağlı son hadisələrin gedişatını təhlil edərək çox dəqiq və düşünülmüş diplomatik addımlar nəticəsində bu mötəbər tədbiri Azərbaycanda keçirmək üçün əlverişli imkan əldə edildiyini vurğulayıb: "COP30-un ev sahibi bəlli olsa da –Braziliya, COP29-un ev sahibi son günlərə qədər bəlli deyildi. Xüsusilə son həftələr ərzində, hətta COP konfransı Dubayda başlayandan sonra da hələ aktiv diplomatik təmaslar davam edirdi və biz burada da istədiyimizə nail olduq. Halbuki burada da, yenə də bizim dırnaqarası ənənəvi dostlarımız hər iki tədbirdə bizə əngəl törətməyə çalışırdılar, COP29-da, necə deyərlər, daha gizli formada. Çünki burada, eyni zamanda, bölgədə sülhə doğru bir addım nəzərdə tutulurdu və bu addıma qarşı getmək, əlbəttə ki, heç kimə şərəf gətirməzdi...".

Deməli, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29-un bu il Azərbaycanda keçiriləcəyinə əngəllər göstərilsə də, son nəticədə bütün cəhdlər boşa çıxıb, ədalət qalib gəlib. Bununla bağlı qərar isə ötən il dekabrın 11–də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub.

COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Azərbaycanın bu tədbirə Şərqi Avropa Qrupu ölkələri arasından yekdil qərarla ev sahibi seçilməsi ölkəmizə yüksək etimadın göstəricisidir. Azərbaycan artıq beynəlxalq tədbirlərə evsahibliyi etmək sahəsində özünə yetərincə müsbət imic qazanıb. Tədbirin Azərbaycanda keçirilməsi ilə bağlı qərar həm də ona görə əhəmiyyətlidir ki, bu, Azərbaycanın lokal antiterror tədbirlərindən iki ay yarım sonra verilib. Bu isə dünya ictimaiyyətinin Azərbaycanın atdığı addımlara dəstəyindən xəbər verir. Bu tədbir Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, yaşıl iqtisadiyyatı nə dərəcədə prioritet sahə kimi gördüyünü bütün dünyaya sübut edəcək. Tədbirin Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun daha da artmasına və ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa və asan çatdırılmasına böyük təkan verəcək.

Müsahibədə vurğulandığı kimi, 2024-cü ildə ölkəmizdə keçiriləcək COP29 dünyanın ən aktual bəşəri problemlərinin müzakirə olunduğu mühüm beynəlxalq platformadır. Bu tədbirin Azərbaycanda keçirilməsi böyük etimadın göstəricisi olmaqla, ölkəmizin qlobal problemlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş mövqeyini təsdiqləyir.




Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə öz töhfəsini verir. SOCAR-ın COP28-də metan tullantılarının sıfıra endirilməsi ilə bağlı könüllü öhdəlik götürməsi ölkəmizin iqlim problemlərinə həssaslığının təzahürüdür.

Qeyd edək ki, "Yaşıl iqtisadiyyata keçid" və "yaşıl enerji" təchizatçısına çevrilmək Azərbaycanın iqtisadi siyasətinin prioritetlərindəndir. Dövlət başçısının müvafiq sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də bu istiqamətdə təşəbbüsləri stimullaşdıracaq.

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində Böyük Qayıdış Proqramına da toxunaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən sürətli bərpa və yenidənqurma layihələrinin icrası ilə bağlı fikirlərini də bölüşüb. Dövlətimizin başçısı bununla əlaqədar hesabat ilində qarşıda duran vəzifələrdən bəhs edib və yerli sahibkarların, həmçinin xarici investorların bu işlərə daha da fəal cəlb olunması üçün hansı institusional addımlar atılmasından bəhs edib. Ölkə rəhbəri müsahibədə, ilk növbədə, işğaldan azad olunan ərazilərdə infrastruktur layihələri ilə yanaşı, əsas nailiyyəti–beş yaşayış məntəqəsinə keçən köçkünlərin məskunlaşdığını diqqətə çatdırıb."Laçın, Füzuli şəhərləri, Ağalı, Talış və Zabux kəndləri artıq dirçəlir. Bu il həmin o yaşayış məntəqələrinə keçmiş köçkünlərin qaytarılması davam edəcək. Bu ilin İnvestisiya Proqramı yaxın günlərdə mənim tərəfimdən təsdiq olunacaq, bir neçə dəfə artıq müzakirədən keçib. Həm Qarabağa, Şərqi Zəngəzura, həm də ölkəmizin digər yerlərinə aid İnvestisiya Proqramı bizim əsas alətimizdir, bərpa üçün əsas alətimizdir",–deyib.

Xatırladaq ki, cari il Qarabağ və Şərqi Zəngəzurda infrastruktur layihələrinin icrası davam etdiriləcək, su anbarları, yollar, körpülər, dəmir yolları, məktəblər və xəstəxanaların tikintisi diqqətdə saxlanılacaq. İçməli su xətləri, elektrik enerjisi ilə bağlı layihələrin gerçəkləşdirilməsinə xüsusi önəm veriləcək. Sərsəng və Xaçınçay su anbarlarının bərpası məqsədilə tədbirlər görüləcək. Yaxın gələcəkdə Füzulidəki Köndələnçay Su Anbarının açılışı reallaşacaq. Zabuxçay Su Anbarının tikintisi isə bu il tamamlanacaq. Bütün bunların nəticəsində böyük bir ərazinin suvarma suyu ilə təminatı öz həllini tapacaq.

Bu gün düşməndən təmizlənən ərazilərdə sənaye müəssisələri yaradılır. Artıq Ağdam və Cəbrayılda iki böyük sənaye zonası fəaliyyət göstərir, əraziləri getdikcə genişlənir. Belə bir sürətli bərpa-quruculuq işləri daha böyük sayda keçmiş köçkünləri öz dədə-baba torpaqlarına– Şuşa, Cəbrayıl, Kəlbəcər, Xankəndi və Xocalı şəhərlərinə qaytarılmasını da şərtləndirir.

Dövlətimizin başçısı müsahibədə Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə isə keçmiş məcburi köçkünlərin 2025-ci ildə qayıtmasının nəzərdə tutulduğunu, Xocalının Kərkicahan, Malıbəyli, Turşsu kəndlərinin də bərpasına artıq start verildiyini də bildirib və 2026-cı ilin sonuna qədər 140 min keçmiş köçkünün öz dədə-baba torpaqlarına qaytarılmasının əsas vəzifə olduğunu vurğulayıb. "Əminəm ki, biz buna da nail olacağıq. Onu da bir daha bildirməliyəm ki, bütün bunları biz öz daxili imkanlar hesabına edirik. Heç bir donor təşkilatı, heç bir digər tərəf bizə kömək göstərmir. Ancaq Özbəkistan və Qazaxıstan Füzulidə iki məktəbin tikintisi ilə bağlı bizə qardaş dəstəyi göstərmişdir, bütün qalan layihələr daxili imkanlar hesabına reallaşdırılır",–deyə ölkə rəhbəri qeyd edib.

***Vaqif BAYRAMOV***
***XQ***

# Prezidentin qətiyyət formulu – ədalətə inamın Zəfər manifesti

(əvvəli 3-cü səhifədə)

Göründüyü kimi, Prezident İlham Əliyevin mövqeyi barışmazdır. Dövlətimizin başçısının müsahibəsindəki digər fikirlər də bu baxımdan müstəsna əhəmiyyət daşımaqdadır və "Ermənistan nə üçün 1970-ci illərdən sonrakı xəritələri əsas götürür?" sualına cavabı dolğunluğu ilə əks etdirməkdədir. Məsələ burasındadır ki, ölkənin rəhbərliyi tarixi izi silməyə çalışır. Deməli, baş nazir Nikol Paşinyan heç də əbəs yerə demirdi ki, məqsədi Ermənistana, necə deyərlər, doğum şəhadətnaməsi almaqdır. Və deməli, N.Paşinyanın 1991-ci ilin Alma-Ata Bəyannaməsini rəhbər tutması təsadüf sayılmamalıdır. Bəyannamə keçmiş SSRİ-yə daxil olan respublikaların bir-birinin ərazi bütövlüyünü tanımalarını əsas götürür. Ancaq burada maraqlı nüans var – bir halda ki, Alma-Ata Bəyannaməsi SSRİ-dən ayrılmanın suverenlik trayektoriyasını müəyyənləşdirir, o zaman nəyə görə Sovetlər Birliyinə qoşularkən, mövcud olan ərazilər amili üzərində dayanılmasın? Əsl ədalət bu deyilmi? Nə üçün Azərbaycan SSRİ-yə böyük ərazi ilə daxil olmalı, İttifaqdan kiçik ərazi ilə ayrılmalıdır? Yaxud, əksinə, hansı səbəbdən Ermənistan ərazi uduşu qazanmalıdır? Elə Prezident İlham Əliyevin də yanaşması mövcud xüsusdadır: "Onlar məhz buna görə 1970-ci illərin xəritələrini əsas götürmək istəyirdilər. Mən sual verəndə ki, yaxşı, niyə 1970-ci illər? Deyin, mənə izah edin, bunun hansı metodoloji əsasları var, siyasi əsasları var? Yoxdur. Əgər biz siyasi əsaslarına istinad etsək, onda istinad nöqtəsi kimi ya Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövrünü, ya da sovetləşmə dövrünü götürməliyik. O olar siyasi metodologiya. Əgər biz xronoloji metodologiyaya üstünlük versək, onda gəlin baxaq, XX əsrin əvvəlində xəritələr nə idi, gəlin bu xəritələr üzərində işimizi quraq. Yəni, siz 1960-cı, 1950-ci, 1940-cı illəri kənara qoyursunuz və məhz 1970-ci illərə istinad etmək istəyirsiniz. Məhz buna görə ki, bizim tarixi torpaqlarımız artıq onlara verilmişdi. Ona görə biz buna qəti surətdə etiraz etmişik və edirik. Əfsuslar olsun ki, 1970-ci illərin xəritəsini, əsas götürmək istəyən təkcə Ermənistan deyil, onun yəni, "Ermənistan plyus" qruplaşmasıdır və biz buna heç vaxt razılıq verə bilmərik".

Bəs, Azərbaycan nəyə razılıq verə bilər? Prezident İlham Əliyev müsahibəsində bu məsələyə də aydınlıq gətirir. Hazırkı sərhədlərin şərti olduğunu deyən ölkəmizin lideri bildirir ki, delimitasiya prosesində siyasi metodologiya, yaxud xronologiya əsas götürülməlidir. Fəaliyyət hansısa xəritə əsasında qurulmamalı, Azərbaycan və Ermənistanın sərhəd komissiyaları işini fəallaşdırmalı, ekspert qrupları yaranmalıdır. Həmin qruplar isə sərhədi qarış-qarış müəyyənləşdirməlidirlər. Deməli, indiki halda İrəvan dairələri tərəfindən səslənməkdə olan, guya, Azərbaycanın suveren Ermənistan ərazisinə təcavüz etdiyinə dair fikirlər də nəzərə alınmamalıdır. Yeri gəlmişkən, dövlətimizin başçısı müsahibəsində sırf bu məqama son dərəcə əmin şəkildə toxundu: "Nə 2021-ci ilin may ayındakı mövqelərdən, nə də 2022-ci ilin sentyabr ayındakı mövqelərdən biz bir addım geri gedən deyilik, çünki o sərhəd müəyyən edilməlidir. Ancaq bizim indi Ermənistan tərəfindən mübahisə edilən yerləşməyimiz heç bir yaşayış məntəqəsini əhatə etmir. Bizim durduğumuz mövqelərdə, təpələrdə heç vaxt yaşayış olmayıb. Ermənistan isə bu gün bizim kəndlərimizi işğal etməkdə davam edir və bu, dözülməzdir. Yenə də qeyd etmək istəyirəm və hesab edirəm ki, komissiyaların bu ayın sonunda görüşü əsnasında bu məsələyə aydınlıq gətiriləcək".

Bəli, Prezident İlham Əliyev 2024-cü ildə verdiyi ilk müsahibəsində, belə demək mümkünsə, faktoloji əminlik aşıladı. Dövlətimizin başçısının bildirdikləri ni ədalətə inam hissinin Zəfər manifesti kimi də qiymətləndirmək mümkündür. Qətiyyətlə demək olar ki, ölkəmizin liderinin Zəfər manifestindəki əminliyin hədəfi Azərbaycan xalqıdır. Yəni, lider xalqa, xalq da liderinə inanır. Bunun nəticəsidir ki, 2023-cü il Vətənimiz üçün böyük uğurlar ili oldu. Xalqımız 2024-cü ilin də parlaq il kimi şanlı tariximizə yazılacağına əmindir. Çünki uğur və müvəffəqiyyətin böyük təminatçısı – Prezident İlham Əliyev kimi dünya miqyaslı şəxsiyyət var.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

**Konfrans**

# "Dinin siyasiləşdirilməsi: zərərli təsirlər"

**Yanvarın 11-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə "Dinin siyasiləşdirilməsi: zərərli təsirlər" mövzusunda konfrans keçirilib.**



Komitənin sədr müavini Səyavuş Heydərov tədbirdə çıxış edərək əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət-din münasibətlərinə diqqət çəkib. Azərbaycanın din siyasətində dini etiqad azadlığının təminatının prioritet məsələlərdən olduğunu qeyd edən S.Heydərov dövlət tərəfindən dini icmalara, müxtəlif dinlərə məxsus ibadətgahlara göstərilən diqqət və qayğıdan danışıb.

Sədr müavini vurğulayıb ki, ABŞ Dövlət Departamenti tərəfindən Azərbaycanda dini etiqad azadlığının pozulması barədə fərziyyələrə istinadla ölkəmizi heç bir beynəlxalq statusa malik olmayan qrupa (xüsusi izləmə siyahısı) daxil etməsi təəssüf doğurur. ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyası tərəfindən təqdim edilən "nöqsanlar" ölkəmizdəki gerçəkliyi əks etdirmir, reallıqla daban-dabana ziddiyyət təşkil edir.

Milli Məclisin deputatı Hikmət Məmmədov, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Bakı Şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Rus Pravosloav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Elnur Əfəndiyev, Azərbaycan Katolik Kilsəsinin nümayəndəsi Yozef Marek, Avropa Yəhudilərinin Bakı Dini icmasının ravvini Şneor Seqal, Alban-udi Xristian dini icmasının sədri Robert Mobili, Gürcü Yəhudiləri dini icmasının sədri Zamir İsayev, Azərbaycan Bəhailəri Mərkəzinin katibi Ramazan Əsgərli və "Azərbaycan Bibliya Cəmiyyəti" xristian dini icmasının sədri Rasim Xəlilov çıxışlarında ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyasının Azərbaycanla bağlı dərc etdiyi xüsusi hesabatı və Dövlət Departamenti tərəfindən ölkəmizin qondarma xüsusi izləmə siyahısına daxil olan ölkə kimi müəyyənləşdirilməsini yekdilliklə pisləyiblər. Bildirilib ki, həmin sənədlərdə Azərbaycandakı dini etiqad azadlığı ilə əlaqədar yer almış böhtan fikirlər ölkəmizdə mövcud olan dini tolerantlıq mühitinə qarşı qərəzli kampaniyadır. Müxtəlif konfessiyaların nümayəndələri olaraq heç bir zaman Azərbaycanda dini zəmində qarşıdurma, qısnama, ayrı-seçkilik yaşamadıqlarını diqqətə çatdıran natiqlər ABŞ Dövlət Departamentini bundan sonra Azərbaycan həqiqətlərini nəzərə alaraq obyektiv mövqe sərgiləməyə səsləyiblər.

***XQ***

MÜŞAVİRƏ

# Media subyektlərinin seçki fəaliyyətinin əsasları



**2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar müxtəlif istiqamətlərdə maarifləndirmə layihələrinin həyata keçirilməsi intensiv davam etdirilir. Silsilə tədbirlər çərçivəsində yanvarın 11-də Bakıda Mərkəzi Seçki Komissiyasının (MSK), Medianın İnkişafı Agentliyinin, Audiovizual Şura və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin seçkilərdə fəaliyyətinin əsasları mövzusunda müşavirə keçirilib. Tədbirin məqsədi media subyektlərinin prezident seçkilərində sərbəst fəaliyyətinin daha da təkmilləşdirilməsi və məlumatlılıq səviyyəsinin yüksəldilməsindən ibarətdir.**

MSK sədri Məzahir Pənahov çıxış edərək media nümayəndələrinin ilk gündən bütün seçki prosesinin içində olduğunu və məsələləri hərtərəfli işıqlandırdıqlarını deyib. O, KİV-lərin seçkilərdəki rolunun yüksək tutmasının vacibliyini qeyd edib. M.Pənahov bildirib ki, KİV həmişə müəyyən çatışmazlıqları aradan qaldırmaq üçün addımlar atmalıdır. Əgər tərəflər həmin iradlardan nəticə çıxarmırsa, ondan sonra məsələni işıqlandırmaq lazımdır. Seçki məsələsində birinci növbədə hamımız Azərbaycan vətəndaşı kimi çıxış etməliyik.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi əzmkarlığı və qətiyyəti sayəsində Zəfərlə başa çatmış Vətən müharibəsindən sonra ölkəmizdə və eyni zamanda regionumuzda yeni siyasi reallıqlar yaranıb. Azərbaycanın liderliyinin ön planda dayandığı bu reallıqlar xalqımızın tarixi arzularının həyata keçməsi, suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpa olunması kimi vacib amillərlə şərtlənir. Yeni mərhələ cəmiyyət həyatının bütün sahələrini əhatə etməklə ölkəmizdə dərinləşmiş islahatların davamlılığını, həyatımızın müasir dövrün dinamik inkişafına uyğunlaşdırılmasını və beləliklə, ölkəmizin tərəqqisinin daimiliyini təmin edir. Qalib Azərbaycan hər bir soydaşımızın qürur yeri olmaqla yanaşı, ölkəmizin qabaqcıl mövqeyini, beynəlxalq müstəvidə öz layiqli yerini tutmasını istəməyən qüvvələrin də planlarını alt-üst etməkdədir.

Ə. İsmayılov deyib: "Milli maraqlarımıza xidmət edən müstəqil medianın inkişafının dövlətin əsas prioritetləri sırasında dəyərləndirən Prezident jurnalist əməyinə daim yüksək qiymət verib, Azərbaycan həqiqətlərinin yerli və beynəlxalq auditoriyaya çatdırılmasında medianın rolunu xüsusi qeyd edib. 2022-ci ildə Milli Mətbuat Günündə Şuşada ilk dəfə keçirilən beynəlxalq Media Forumuna müraciətində Prezidentin jurnalistlər qarşısında qoyduğu mühüm vəzifələr aktuallığını qoruyub saxlamaqdadır".

Audiovizual Şuranın sədri İsmət Səttarov diqqətə çatdırıb ki, seçkiqabağı təşviqatda ən böyük məsuliyyət ictimai yayımçının üzərinə düşür. Dövlət büdcəsindən maliyyələşən yayımçıların hamısı ictimai yayımçı funksiyası daşısa da, məhz seçkiqabağı təşviqat qanunla ictimai yayımçı kimi tanınan İctimai Televiziya və Radio Yayımları Şirkəti tərəfindən həyata keçirilməlidir. Dövlətə məxsus olan yayımçılar vasitəsilə seçkiqabağı təşviqat aparılmır. İctimai yayımçı seçkiqabağı təşviqatı ödənişli əsaslarla aparmaq üçün ehtiyatda əlavə efir vaxtı saxlamalıdır. Qeydə alınmış bütün namizədlər üçün ödəniş həcmi və şərtləri eyni olmalı, bu barədə müvafiq məlumat seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərc olunduğu gündən başlayaraq ən geci 30 gün ərzində dərc edilməlidir. İctimai yayımçının ödənişli istifadəyə təqdim edəcəyi ehtiyatda olan efir vaxtının ümumi həcmi Seçki Məcəlləsinin 80.5-ci maddəsinə uyğun olaraq ayrılan pulsuz efir vaxtının (3 saat) ümumi həcmindən az və həmin həcmdən iki dəfədən artıq ola bilməz. Qeydə alınmış hər bir namizəd üçün ehtiyatda saxlanmış efir vaxtından ödənişli əsaslarla istifadə norması onun ümumi həcminin qeydə alınmış namizədlərin ümumi sayına bölünməsi yolu ilə müəyyənləşdirilir.

Mətbuat Şurasının sədri Rəşad Məcid Azərbaycan mediasının zəngin seçki təcrübəsinə malik olduğunu deyib. O, eyni zamanda seçkiqabağı təşviqat, xüsusilə ödənişli və ödənişsiz təşviqatın aparılması ilə bağlı Mərkəzi Seçki Komissiyasının üzvlərinin fikirlərinə ehtiyac duyulduğunu qeyd edib.

Rəşad Məcid bildirib ki, media əvvəlki illərdə olduğu kimi, Azərbaycan xalqının həyatında mühüm rol oynayacaq 7 fevral seçkilərində də böyük məsuliyyətlə iştirak edəcək. Eyni zamanda, sosial mediada hansısa namizədə qarşı saxta xəbərlərin yayıla biləcəyi şəksizdir. Peşəkar media belə hallarda məsələlərə vaxtında münasibət bildirməlidir: "7 fevral bir müddətdən sonra Azərbaycan tarixinin ən əzəmətli bayram günlərindən biri olacaq. Bütün bu məsələlərdə, xalqımızın, seçicilərin çiyninə böyük məsuliyyət düşür. Bütün dünya görsün ki, Azərbaycan xalqı öz gələcəyinə biganə deyil. Heç şübhəsiz bu məsələlərdə Azərbaycan mediası ən öndə getməlidir".

Sonra MSK üzvləri "Azərbaycan Respublikası Prezidenti seçkilərində seçkiqabağı təşviqata dair ümumi tələblər, seçkiqabağı təşviqat subyektləri, onların hüquq və vəzifələri", "Ödənişli və ödənişsiz əsaslarla aparılan seçkiqabağı təşviqat prosesində media subyektlərinin rol və vəzifələri" mövzularında çıxış ediblər.

Təqdimatlar zamanı iştirakçılara, həmçinin seçki prosesinin ictimailəşdirilməsi, aşkarlığın və şəffaflığın təmin olunması, eləcə də seçkiqabağı təşviqat mərhələsində və səsvermə günü medianın rol və vəzifələri barədə ətraflı məlumat verilib.

Təşkilatçı qurumların rəhbərləri və təmsilçiləri ilə yanaşı, aparıcı media subyektlərinin rəhbərlərinin və nümayəndələrinin də iştirak etdikləri müşavirə mövzular ətrafında fikir mübadiləsi və sual doğuran məsələlərin müzakirəsindən sonra işini başa çatdırıb.

*XQ*

# Müstəqillik dövrünün ilk ümumölkə seçkisi

**"Media nümayəndələri ilk gündən bütün seçki prosesinin içindədir və məsələləri hərtərəfli işıqlandırırlar. Biz kütləvi informasiya vasitələrinin seçkilərdəki rolunu həmişə yüksək tutmalıyıq".**



Bu fikirləri yanvarın 11-də Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin seçkilərdə fəaliyyətinin əsaslarına həsr olunan müşavirədə çıxış edərkən deyib.

MSK sədri qeyd edib ki, KİV həmişə müəyyən çatışmazlıqları aradan qaldırmaq üçün addımlar atmalıdır. Əgər tərəflər həmin iradlardan nəticə çıxarmırsa, ondan sonra məsələni işıqlandırmaq lazımdır. Seçki məsələsində birinci növbədə hamımız Azərbaycan vətəndaşı kimi çıxış etməliyik.

## Azad olunmuş ərazilərdə 26 seçki məntəqəsi yaradılıb

İşğaldan azad olunan ərazilərdə ilk dəfə seçki keçiriləcək. Hesab edirəm ki, bu, Azərbaycan üçün tarixi hadisədir. Bildiyiniz kimi, həmin ərazilərdə 26 seçki məntəqəsi yaradılıb. Bu məntəqələr orada tikilmiş müasir binalarda yerləşir. Həmin məntəqələri çox yüksək səviyyədə lazımi seçki ləvazımatları ilə təchiz etmişik. Məntəqələrdə müşahidə aparmaq azaddır. Beynəlxalq müşahidəçilər həmin məntəqələrə gedib proseslə tanış ola bilərlər.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bu fikirləri jurnalistlərə müsahibəsində səsləndirib

Həmin seçki məntəqələrində çəkilişlərin aparılmasının zəruriliyini bildirən MSK sədri deyib ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu artıq beynəlxalq müşahidəçi kimi fəaliyyət göstərir. Onlar uzunmüddətli müşahidəçiləri artıq yerlərə göndəriblər. Bu müşahidəçilər kifayət sayda dairələrdə olublar. Çalışırıq ki, onlarla əməkdaşlığımızı konstruktiv əsaslarla quraq.

## 17 min 500-dən çox müşahidəçi qeydiyyatdan keçib

Bu günə qədər 17 min 500-dən çox müşahidəçi qeydiyyatdan keçib. Təxminən 6300 seçki məntəqəsinin olacağını nəzərə alsaq, hər məntəqəyə orta hesabla üç müşahidəçi düşür.

Bunu Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov yanvarın 11-də jurnalistlərə müsahibəsində deyib.

"Müşahidəçilərin çox olmasını alqışlayırıq. Arzu edirik ki, həmin müşahidəçilər işğaldan azad edilmiş bölgələrdə də seçki prosesini izləsinlər", – deyə MSK sədri qeyd edib.

*XQ*



# Mediamızın seçki təcrübəsi böyükdür

**Mətbuat Şurasının sədri Rəşad Məcid yanvarın 11-də bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin seçkilərdə fəaliyyətinin əsaslarına həsr olunan müşavirədəki çıxışında deyib ki, mediamızın seçki məsələsində böyük təcrübəsi var. Eyni zamanda, seçkiqabağı təşviqat, xüsusilə ödənişli və ödənişsiz təşviqatın aparılması ilə bağlı Mərkəzi Seçki Komissiyasının üzvlərinin fikirlərinə ehtiyacımız var.**



R. Məcid bildirib ki, media əvvəlki illərdə olduğu kimi, Azərbaycan xalqının həyatında mühüm rol oynayacaq 7 fevral növbədənkənar prezident seçkilərində də böyük məsuliyyətlə iştirak edəcək. Eyni zamanda, sosial mediada hansısa namizədə qarşı saxta xəbərlərin yayıla biləcəyi şəksizdir. Peşəkar media belə hallarda məsələlərə vaxtında münasibət bildirməlidir.

O deyib ki, 7 fevral bir müddətdən sonra Azərbaycan tarixinin ən əzəmətli bayram günlərindən biri olacaq. Bütün bu məsələlərdə, xalqımızın, seçicilərin çiyninə böyük məsuliyyət düşür. Bütün dünya görsün ki, Azərbaycan xalqı öz gələcəyinə biganə deyil. Heç şübhəsiz bu məsələlərdə Azərbaycan mediası ən öndə getməlidir.

*XQ*

# Şəffaf, azad və ədalətli seçkilər cəmiyyətin demokratiya imtahanıdır



**Bu il fevralın 7- nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıq davam edir. Seçki məntəqələri avadanlıqla təmin edilir, seçici siyahıları bir daha dəqiqləşdirlir və seçkiyə çağırış plakatları asılır. Bölgələrdə də seçkilərə ciddi hazırlıq işləri aparılır. Bununla əlaqədar 66 saylı Saatlı seçki dairəsi ilə əlaqə saxladıq.**

**Dairə seçki komissiyasının sədri Arif Əliyev dedi:**

– Dairəmizin hüdudlarında olan seçki məntəqələrində növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıq işləri yüksək səviyyədədir. Seçki dairəsi üzrə 27 bələdiyyə hüdudlarında olan 50 seçki məntəqəsi fəaliyyət göstərir. Həmin seçki məntəqələrində 50 min 614 seçicinin adı seçici siyahılarına salınmışdır. Dairə və məntəqə seçki komissiyaları Seçki Məcəlləsinin tələblərinə və Mərkəzi Seçki Komissiyasının təqvim planına uyğun olaraq seçkilərə ciddi hazırlaşır.

Dairə və məntəqə seçki komissiyaları seçkiyə qədərki dövrdə və seçki günü lazım olan bütün inventar, avadanlıq və ləvazimatlarla, səsverməyə çağırış xarakterli ümumi təşviqat materialları, Seçki Məcəlləsi, təlimatlar, təqvim planı və yaddaş kitabçaları ilə təmin olunub. 7 seçki dairəsinə veb-kamera quraşdırılıb. Ötən seçkilərdə də şahid olduq ki, seçkilərin şəffaflığının təmin olunmasında veb-kameraların mühüm rolu vardır. Bütün veb-kameralar MSK ilə əlaqələndirilib.

Hazırda DSK-da müşahidəçilərin qeydiyyatı prosesi aparılır. Dairə üzrə indiyə qədər 309 müşahidəçi qeydə alınıb. Onlaradan 50 nəfəri YAP-ın təyinatı ilə, digərləri isə öz təşəbbüsü ilə qeydə alınanlardır. Hazırda bu proses davam etdirilir. Seçki Məcəlləsinə uyğun olaraq, prezidentliyə namizədi qeydə alınmış YAP tərəfindən dairə və məntəqə seçki komissiyalarının hər birinə 1 nəfər məşvərətçi səs hüquqlu üzv təyin edilib.

Arif müəllim dedi ki, DSK tərəfindən seçicilərə qeydiyyatdançıxma vəsiqələrinin verilməsi prosesi davam edir. Belə ki, fevralın 7-də qeydiyyatda olduğu seçki məntəqəsi üzrə müəyyən səbəblərə görə səs verə bilməyən seçicilər DSK-ya müraciət edir və qeydiyyatdançıxma vəsiqəsi alırlar. Onlar seçkilər günü istədikləri seçki məntəqəsində səs vermək hüququna malikdirlər. Qeydiyyatdançıxma vəsiqələrinin DSK-lar tərəfindən verilmə prosesi yanvarın 13-nə qədər davam edəcək. Yanvarın 14-dən fevralın 4-dək isə Seçki Məcəlləsinin tələblərinə əsasən, qeydiyyatdançıxma vəsiqələrinin verilməsini məntəqə seçki komissiyaları davam etdirəcək.

Hazırda DSK üzrə seçici siyahılarının dəqiqləşdirilməsi işi davam etdirilir. Hər hansı bir bir səbəbdən daimi yaşadığı ərazini rəsmi yolla tərk edən seçicinin adı seçici siyahısından çıxarılır və müvafiq olaraq ərazidə rəsmi qeydiyyata alınmış seçicilərin adları siyahıya salınır. Çalışırıq ki, seçici siyahılara Seçki Məcəlləsinin tələbləri səviyyəsində hazırlansın. Bütün seçki məntəqələrində qeydə alınmış prezidentliyə namizədlərin təşviqat materilallarının yerləşdirilməsi üçün təşviqat lövhələr vardır.

A.Əliyev dedi ki, qeydə alınmış prezidentliyə namizədlər, onların səlahiyyətli nümayəndələri, həmçinin vəkilləri, namizədi qeydə alınmış siyasi partiyalar və siyasi partiyaların blokları və onların vəkilləri yanvarın 15-dən seçkiqabağı təşviqatın aparılmasına başlayacaqlar. Onların təbliğat tədbirlərinin həyata keçrilməsi və seçicilərlə görüşlərin keçirilməsi üçün DSK-nın təklifi ilə yerli icra hakimiyyəti və bələdiyyə qurumları tərəfindən müvafiq yerlər müəyyənlədirilmişdir.

Arif müəllim bu il səs verənlər sırasında ən yaşlı seçicilərin müəyyənləşdirilməsi barəsində də məlumat verərək dedi ki, ən yaşlı seçicimiz 104 yaşlı qadındır. 103 və 101 yaşlı iki kişi seçicimiz də səsvermədə iştirak edəcəklər. Ümumiyyətlə, 80–104 yaşlı seçicilərimizin sayı 695 nəfərdir.

Seçki məntəqələrinin yerləşdiyi binalar da Seçki Məcəlləsinin tələblərinə tam cavab verir və seçicilər üçün əlverişli yerdədir. Məntəqələr daimi elektirk enerjisi ilə təmin olunub. Buna baxmayaraq, ehtiyat tədbirlər də görülmüş və məntəqələr generatorlarla təchiz olunmuşdur. Qeyd olunanlar bir daha təsdiqləyir ki, dairə ərazisində növbədənkənar prezident seçkilərinin şəffaf, azad və ədalətli keçirilməsi üçün lazımi şərait yaradılıb.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Teleradio namizədlərə bərabər şərait yaradır

**Seçki Məcəlləsində seçkiqabağı təşviqatla bağlı məsələlər tam əksini tapıb. Seçkiqabağı təşviqat mərhələsi seçkiyə 23 gün qalmış başlayır və seçki gününə 24 saat qalmış bitir. Seçkiqabağı təşviqat mərhələsi ictimai yayımçının üzərinə düşür. İctimai yayımçı efirdə namizədlərə bərabər şərait yaradır və prezidentliyə namizədlərin İctimai Televiziyada pulsuz efir vaxtı almaq hüququ var.**



Audiovizual Şuranın sədri İsmət Səttarov bərabər seçkiqabağı təşviqat imkanları və media subyektlərinin seçkilərdə fəaliyyətinin əsaslarına həsr olunan müşavirədə çıxışı zamanı bu fikirləri səsləndirib..

İ.Səttarov bildirib ki, namizədlər üçün ayrılmış efir vaxtı həftədə üç saatdan az olmamalıdır. "Pulsuz efir vaxtı namizədlər arasında bərabər şərtlərlə bölünür. İctimai yayımçı, həmçinin ödənişli efir üçün də ehtiyatda əlavə vaxt saxlamalıdır. Özəl yayımçılar isə seçkiqabağı təşviqat aparmaq məsələsində sərbəstdirlər. Onlar təşviqat aparmaqla bağlı istəklərini Mərkəzi Seçki Komissiyasına bildirməlidirlər. Audiovizual Şura audiovizual sahədə tənzimlənməni həyata keçirən dövlət orqanı olaraq, seçkiqabağı təşviqatla bağlı monitorinqlər həyata keçirir. Həmçinin Audiovizual Şura televiziya və radioda seçkiqabağı təşviqatla bağlı Seçki Məcəlləsinin bütün tələblərinə əməl olunmasını daim nəzarətdə saxlayır".

*XQ*

# Azərbaycan "yaşıl keçid"in önündə

**Qlobal istiləşmənin, kəskin iqlim dəyişikliklərinin mənfi təzahürlərindən əziyyət çəkən bəşəriyyət ənənəvi enerjidən bərpaolunan enerjiyə doğru yön alıb. Bu məqsədlə son illər dünya ölkələri bəşəriyyətin xilası naminə səylərini getdikcə artırır, "yaşıl enerji"yə keçidi sürətləndirmək üçün enerji sahəsində əməkdaşlığı genişləndirməyə can atırlar. Hətta uzun illər dünyanın neft-qaz sektorunda uğurla fəaliyyət göstərən şirkətlər də enerji sahəsinə yeni prizmadan yanaşır, "yaşıl" potensialın istifadəsinə öz töhfələrini verməyə çalışırlar.**



Ölkə Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibəsində bu vacib məqama toxunaraq bildirib ki, hazırda bir çox aparıcı neft şirkətləri hətta öz adlarını da dəyişdirib enerji şirkətlərinə çevirirlər: "Neft-qaz sahəsində fəaliyyət göstərən şirkətlərin investisiya portfelində əgər "yaşıl enerji" layihələri olmasa, onlar böyük çətinliklərlə üzləşəcəklər. Orada müxtəlif məhdudlaşdırıcı addımlar da istisna deyil".

Belə bir şəraitdə Azərbaycanın da bu ümumi trendin içində olmasının vacibliyini vurğulayan Prezident İlham Əliyev qeyd edib ki, dünyada, xüsusilə dünyanın enerji məkanında gedən proseslərdən geridə qalmamaq üçün ölkəmizin misilsiz potensialı var. Belə ki, təsdiqlənmiş proqnozlara görə, Azərbaycanın quru ərazisində 37 qiqavatlıq külək və günəş enerjisi, Xəzər dənizinin Azərbaycan sektorunda isə 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Bütövlükdə isə, ölkəmizin bərpaolunan enerji sahəsində potensialı 200 qiqavata yaxın qiymətləndirilir. Yeri gəlmişkən, Dünya Bankının bir qolu olan Beynəlxalq Maliyyə Korporasiyası da Azərbaycanın Xəzər dənizindəki 157 min meqavatlıq bərpaolunan enerji potensialını yüksək qiymətləndirib.

Məlum olduğu kimi, son illər Xəzər regionu Avropanın enerji keçidinin əsas mərkəzlərindən birinə çevrilib. Bu da təsadüfi deyil. Çünki dünyanın neft-qaz ölkəsi kimi tanınan Azərbaycan Avropa İttifaqının prioritet elan etdiyi "yaşıl keçid" platformasının reallaşmasına da mühüm töhfələr verməyə çalışır. Heç şübhəsiz, bu da ölkəmizə olan inamı bir qədər də artırır. Elə COP29 kimi böyük bir tədbirə ev sahibliyinin Azərbaycana həvalə olunması da məhz bu inamdan irəli gəlir. Yeri gəlmişkən, Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsi zamanı COP29-un ölkəmizdə keçirilməsi ilə bağlı qərarı Azərbaycanın beynəlxalq nüfuzunun və uğurlu siyasətinin göstəricisi kimi dəyərləndirərək deyib: "Tam səmimiyyətlə deyə bilərəm ki, bizim çox dəqiq və düşünülmüş diplomatik addımlarımız nəticəsində bu mötəbər tədbiri Azərbaycanda keçirmək üçün imkan əldə etdik... Biz istəyirik öz vəsaitimizi bu sahəyə ayıraq ki, həm ölkəmizdə, necə deyərlər, "yaşıl enerji" inkişaf etsin, həm dünyaya töhfə verək. Burada, əlbəttə ki, indi mahiyyət üzrə də çox ciddi proseslər gedəcək. Azərbaycan COP29-un prezidenti kimi xüsusi rola malik olacaq. Proseslərin gedişatı bizim mövqeyimizdən böyük dərəcədə asılı olacaq. Biz artıq bir neçə ölkədən əməkdaşlıq təklifi almışıq. Bizimlə bu hazırlıq dövründə əməkdaşlığın istiqamətləri müəyyən edilsin və biz bütün ölkələrlə əməkdaşlığa hazırıq, bu, bizim üçün də böyük bir təcrübə olacaq"

Hazırda ölkəmizin ümumi enerji istehsalında bərpaolunan enerjinin payı, təqribən, 20 faiz təşkil edir. Bununla belə, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də ölkəmizdə "yaşıl enerji" istehsalının genişləndirilməsi məsələsinə xüsusi yer ayrılıb. Belə ki, ümumi enerji istehsalında bərpaolunan enerjinin payının 2025-ci ildə 24 faiz, 2030-cu ildə isə 30 faizə çatdırılması nəzərdə tutulur. Bu da onu göstəririr ki, Azərbaycan yaxın gələcəkdə karbon emissiyalarının azaldılmasına mühüm töhfələr verməyə tam qadirdir. Elə Prezident İlham Əliyev də məlum müsahibəsində bu məqama toxunaraq bildirib ki, "yaşıl enerji"yə gəldikdə, yenə də burada Azərbaycan öz rolunu oynayacaq. "Yaşıl enerji" dəhlizinin, o cümlədən Qara dənizin dibi ilə çəkiləcək kabelin də Azərbaycanın resurslarına hesablandığını diqqətə çatdıran dövlət başçısının sözlərinə görə, "yaşıl enerji"ni ixrac etməklə ölkəmizin önəminin daha da artacağını Avropa Komissiyasında yaxşı anlayırlar. Yeri gəlmişkən, bu il martın 1-də öz Bakıda keçiriləcək Cənub Qaz Dəhlizinin növbəti Məşvərət Şurası ilə yanaşı, Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası keçiriləcək. Azərbaycanla Avropa Komissiyasının həmsədrliyi ilə reallaşdırılacq bu mötəbər enerji toplantısının gedişində bərpaolunan enerji sahəsində əməkdaşlığın mövcud vəziyyəti, eləcə də perspektiv imkanlar geniş müzakirə olunacaq.

Ölkə Prezidenti yerli televiziya kanallarına müsahibəsi zamanı bərpaolunan eneji potensialından səmərəli istifadənin Azərbaycanın enerji siyasətinin prioritet istiqaməti kimi xarakterizə edərək bu sahədə həyata keçirilən tədbirlərə də nəzər salıb. Dövlətimizn başçısı ötən ilin oktyabrında Qaradağ rayonunda Günəş Elektrik Stansiyasının istismara verilməsini bu baxımdan təqdirəlayiq addım kimi dəyərləndirərək qeyd edib ki, ölkəmizdə yaxın 3-4 ilə bərpaedilən enerji növlərinin həcmini təqribən 3-4 min meqavat səviyyəsinə çatdırmaq mümkün olacaq. Ölkə rəhbəri fikrinin davamı olaraq bildirib ki, hazırda elektrik stansiyalarımızda il ərzində təqribən 5 milyard kubmetr təbii qaz elektrik enerjisinin istehsalına sərf edilir. "Yaşıl enerji" istehsalının artırılması isə il ərzində, təqribən, 3-3,5 miyard kubmetr "mavi yanacağ"a qənaət etməyə imkan yaradacaq. Heç şübhəsiz, Avropada Azərbaycan qazına tələbatın getdikcə artdığı indiki şəraitdə bunun iqtisadi səmərəsi olduqca yüksəkdir.

Məlum olduğu kimi, ötən müddətdə Azərbaycan hökuməti bərpaolunan enerji sektorunda əməkdaşlıq etdiyi dünyanın aparıcı şirkətləri ilə imzaladığı müqavilə və anlaşma memorandumları çərçivəsində 10 min meqavat "yaşıl enerji" istehsalına nail olmağı hədəfləyib. Bunun iqlim dəyişikliyi məsələlərinə, həmçinin təbii qazı daha böyük həcmdə ixrac etməyə imkan yaradacağını diqqətə çatdıran Prezident İlham Əliyev qeyd edib ki, ölkəmizin bu sahədəki potensialı həddindən artıq çox olduğundan bununla kifayətlənmək olmaz. Deməli, son illər mötəbər və etibarlı enerji tərəfdaşı imicini qazanmış Azərbaycanın Avropa İttifaqı ilə "yaşıl keçid" platforması sahəsində də əməkdaşlığın genişləndirilməsi üçün imkanları kifayət qədərdir.

Eyni zamanda, bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi ilə bağlı həyata keçirilən layihələrin ölkədə məşğulluğun təminatına da mühüm töhfə verəcəyi şəksizdir. Təsadüfi deyil ki, yerli televizya kanallarına verdiyi müsahibədə bu vacib məqama toxunan dövlətimizin başçısı bildirib ki, bərpaolunan eneji layihələrinin reallaşdırılması yeni texnologiyaların Azərbaycana gətirilməsinə imkan yaratmaqla yanaşı, həm iş yerlərinin açılmasına, həm də bölgələrin inkişafına böyük təsiri olacaq. "Çünki Xəzər dənizindən kənarda bizim bütün qalan potensial stansiyalarımız bölgələrdə yerləşir, o cümlədən Qarabağ bölgəsində", – deyə ölkə Prezidenti əlavə edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# "Azərişıq" Kəlbəcər dağlarına nur paylayır

**"Azərişıq" ASC işğaldan azad edilən bütün ərazilərdə, o cümlədən coğrafi quruluşuna görə ən çətin relyefə malik Kəlbəcər və Laçında yenidənqurma işlərini davam etdirir.**



ASC-dən verilən məlumata görə, Kəlbəcər şəhəri ərazisində yeni 35/0,4 kV-luq yarımstansiya və İdarəetmə Mərkəzinin, İstisu ərazisində 110/35 kV-luq yarımstansiyanın inşası, eləcə də 35 kV-luq xətlərin çəkilişi sürətlə aparılır. Ağqaya, Qamışlı və Mərcimək kəndləri istiqamətində yenidənqurma işləri gedir.

Qeyd edilən yaşayış məntəqələrində yeni dayaqlar basdırılır və müasir tipli, izolyasiyalı kabel xətləri çəkilir. Rayonun şəhər ərazisindəki qospitalda, həmçinin Cermux, Yellicə, Zəylik, İstisu, Zod, Zar, Yanşaq, Keşdək kəndlərində yerləşən mühüm obyektlərin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq elektrik verilişi xətlərinin çəkilişi işləri tam yekunlaşıb.

Kəlbəcər rayonunda 2024-cü il ərzində yeni 110/35 kV-luq "Şəhər" yarımstansiyasının tikintisi və mövcud 110 kV-luq şəbəkə ilə əlaqələndirilməsi, 110/35/10 kV-luq "Qamışlı" yarımstansiyasından çıxan 110 kV-luq mövcud hava xəttinin Kəlbəcər şəhəri ərazisindən İstisuya qədər olan hissəsinin 110 kV-luq iki dövrəli hava xətti ilə yenidən qurulması və şəhərsalma planına əsasən rayonun Zallar, Yanşaq, Zar kəndlərinin elektrik enerjisi ilə təmin olunması üçün 35 kV-luq elektrik verilişi xətlərinin çəkilməsi nəzərdə tutulur.

***XQ***

# "Şahdəniz"də yeni kəşfiyyat

**Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" qaz-kondensat yatağındakı "SDX-8" kəşfiyyat quyusunun qazılması üzrə nəzərdə tutulmuş 7 min metrlik ümumi layihə dərinliyinə nail olunub. Bu barədə "BP Azərbaycan" şirkətindən bildiriblər.**



Məlumatda qeyd olunur ki, daha sonra yerdə qalan quyu işləri başa çatdırılacaq və əldə edilmiş məlumatlar proqnozlaşdırılacaq. Bu işlərin isə bir neçə ay ərzində başa çatdırılması nəzərdə tutulur.

Xatırladaq ki, BP "Şahdəniz" perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş çərçivəsində müqavilə ərazisində yeni "SDX-8" kəşfiyyat quyusunun qazılmasına ötən il yanvarın 23-də başlanıb. Quyu 2022-ci ilin dekabrında "Şahdəniz" yatağının şərq cinahında, SDX-8 quyusunun ərazisində yerləşdirilən Heydər Əliyev adına yarımdalma qazma qurğusundan istifadə edilməklə qazılıb.

Yeri gəlmişkən, "Şahdəniz"in təsdiqlənmiş ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensat olaraq qiymətləndirilir. "Şahdəniz" layihəsinin iştirakçıları isə BP (operator – 29,99 faiz), LUKOYL (19,99 faiz), TPAO (19 faiz), SOCAR (14,35 faiz), NICO (10 faiz) və SGC (6,67 faiz) şirkətləridir.

***XQ***

# Dünya Bankının nümayəndə heyəti Bakıda

***Enerji Məsələlərini Tənzimləmə Agentliyinin (EMTA) İdarə Heyətinin sədri Samir Axundov Dünya Bankının enerji məsələləri üzrə baş mütəxəssisi Rojer Koma Kunilin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***



Görüş zamanı agentliyin fəaliyyəti, Azərbaycanda energetika sahəsi üzrə mövcud normativ hüquqi aktlar, eləcə də tarif metodologiyası barədə məlumat verilib. Görüşdə, həmçinin bərpaolunan enerji ilə bağlı yeni layihələr üzrə investisiya imkanları, elektrik enerji şəbəkəsinin gücləndirilməsi, Dünya Bankı ilə mümkün əməkdaşlıq məsələləri müzakirə edilib.

***XQ***

# Dünya Bankı Orta Dəhlizin səmərəliliyini təşviq edir

**Dünya Bankının (DB) hesabatında bu maliyyə qurumu Orta Dəhlizin (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun) səmərəliliyini artırmaq üçün Azərbaycan, Qazaxıstan və Gürcüstana bütün nəqliyyat şəbəkəsi üzrə yüklərin izlənilməsi imkanının təminini tövsiyə edir.**

Hesabatda bunun üçün həm dəmir yolu, həm də Xəzər dənizi ilə daşımaları əhatə edən vahid elektron sənəd dövriyyəsinə keçid təmin edilməsi zəruriliyi diqqətə çatdırılır. Eyni zamanda, logistik qovşaqların yaradılması hesabına yüklərin konsolidasiyası, dəmir yolu nəqliyyatına keçidə yardım göstərmək və Şərqlə Qərb arasında yük axınlarının balansını yaxşılaşdırmağın əhəmiyyəti vurğulanır. Bundan başqa, yekun nəqliyyat tariflərinin şəffaflığı və bu məsələdə proqnozlaşdırmaya üstünlük verilməsi də önə çəkilir.

DB Azərbaycan və Qazaxıstana dəniz limanında yüklərin daşınma müddətini azaltmağı, Bakı – Aktau və əks istiqamətdə marşrutlar üzrə konteynerlərin həcmlərini artırmağı, konteynerlər üçün yük və liman tariflərini aşağı salmağı da tövsiyə edir. Adıçəkilən hesabata əsasən, Azərbaycan yüklərin gəmilərdən sahilə daşınmasının səmərəliliyini artırmalı, Qazaxıstan isə limanların bağlanması parametrlərini nəzərdən keçirməli və bütün bazar iştirakçıları üçün ayrı-seçkilik olmadan liman xidmətlərinə çıxışı təmin etməlidir. Beynəlxalq maliyyə qurumu, həmçinin Gürcüstanın liman-dəmir yolu və avtomobil daşımalarının səmərəliliyinin artırılacağı, naviqasiya kanalının vəziyyətinin yaxşılaşdırılacağı və konteynerlər üçün liman tariflərinin azaldılacağı təqdirdə Orta Dəhlizin səmərəliliyinin yüksələcəyi əminliyini də vurğulayır.

Dəmir yolları və sərhəd-keçid məntəqələrinə gəlincə, DB Qazaxıstan tərəfindən vaqonların sayınının və manevr əməliyyatlarının səmərəliliyinin artırılmasını, Azərbaycan və Gürcüstanın isə bu prosesi əsasən sərhəd-keçid məntəqələrində həyata keçirmələrini təklif edir. Beynəlxalq maliyyə qurumunun ekspertləri bildirirlər ki, belə addımlar məhdud investisiya nəticəsində də əhəmiyyətli nəticələr verə bilər. Bunlar prioritet, dərhal diqqət tələb olunduğu məsələ kimi nəzərdən keçirilməlidir.

Bank 2030-cu ilə qədər Orta Dəhliz boyunca daşımaların həcminin 2021-ci illə müqayisədə 3 dəfə artacağını və yüklərin daşıma müddətini 2 dəfə azalacağını proqnozlaşdırır. Eyni zamanda, bildirir ki, investisiya və əməliyyat təkmilləşdirmələrinin düzgün kombinasiyası vasitəsilə bu dəhliz transkontinental ticarətin iqtisadi və siyasi davamlılığına əhəmiyyətli töhfə verə bilər. Bundan başqa, sözügedən layihə dəniz limanlarına çıxış vasitəsilə Çinə, Avropaya və dünyanın digər regionlarına etibarlı marşrutu gerçəkləşdirməklə Mərkəzi Asiya və Cənubi Qafqazın potensialının inkişafını şərtləndirir.

Yeri gəlmişkən, Sərhədlərarası Tədqiqatlar Assosiasiyasının (CBRA) rəhbəri Maykl Ellisin mediaya bildirdiyinə görə, hazırda Azərbaycan nəqliyyat daşımalarını elektronlaşdırır, məlumat mübadiləsini çevikləşdirir. Bu isə dəhlizin inkişafı istiqamətində atılan uğurlu bir addımdır. Çünki belə bir əməliyyat Orta Dəhliz boyunca ölkələrin yük keçidini asanlaşdırır, konteynerlərin sürətli daşınmasını gerçəkləşdirir. Dünyada ticarət həcminin dinamik artması, buna uyğun nəqliyyatın genişləndirilməsi şəraitində nəqliyyat daşımalarının elektronlaşdırılması zəruri bir prosesdir.




Sərhədlərarası Tədqiqatlar Assosiasiyası rəhbərinin sözlərinə görə, Rusiya-Ukrayna müharibəsi daşımalara mənfi təsir göstərir. Ukrayna dünya bazarında əsas tədarükçü olmaqla buğda zəncirində mühüm yerə sahibdir, müxtəlif ölkələri bu strateji məhsulla təmin edir. Lakin müharibə mövcud nəqliyyat imkanlarının yetərli olmadığını və Orta Dəhlizin rolunun artırılmasının vacibliyini də göstərir.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Ruminiya və Polşa qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Orta Dəhlizlə bağlı bir məqamı da vurğulamaq istərdik. Belə ki, Çini Avropa İttifaqı ilə Mərkəzi Asiya, Qafqaz və Türkiyə vasitəsilə birləşdirən bu dəhliz ölkəmizin iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq layihədir. Bu layihə ilə əlaqədar fəaliyyətin gücləndirilməsi Qərblə Şərq arasında körpü rolunu oynayan Azərbaycan üçün mühüm önəm daşıyır.

İqtisadi baxımdan səmərəli, siyasi cəhətdən də xüsusi əhəmiyyətə malik Orta Dəhliz Avrasiya regionunda son illər ən çox müzakirə olunan məsələlərdən biridir. Çinin "Bir kəmər, bir yol" layihəsinin bir hissəsi kimi bu dəhliz, həmçinin tarixi İpək yolunun ən mühüm komponentlərindən biri kimi dəyərləndirilir. Buna görə də Orta Dəhliz üzrə tranzit müddətinin 2024-cü ildə 18-23 gündən 14-18 günə, o cümlədən Qazaxıstan ərazisində 6 gündən 5 günə endirilməsi planlaşdırılır.

Onu da xatırladaq ki, 2023-cü ildə Orta Dəhliz çərçivəsində yükdaşımaların həcmi, təqribən, 90 faiz artaraq 2 milyon tonu keçib. Yeri gəlmişkən, 2022-ci ildə marşrut üzrə yükdaşımaların həcmi 2,5 dəfə artaraq 1,5 milyon tona çatıb. Mövcud marşrutlara ciddi alternativ kimi dəyərləndirilən dəhlizin ümumi ötürücülük qabiliyyəti isə il ərzində 5,8 milyon ton yükə hesablanıb.

Qazaxıstanın strateji hədəfi isə 2030-cu ilə qədər Orta Dəhlizin ötürücülük qabiliyyətini 10 milyon tona çatdırmaqdır. Bunu reallaşdırmaq üçün adıçəkilən ölkə 2027-ci ilə qədər "dar keçidləri" aradan qaldırmaq və Orta Dəhlizi inkişaf etdirmək üçün Azərbaycan, Gürcüstan və Türkiyə ilə "yol xəritələri" imzalayıb.

Sonda onu da deyək ki, 2022-ci ilin martında Azərbaycan və İran arasında imzalanan memoranduma əsasən, ölkəmizin Şərqi Zəngəzur iqtisadi rayonu ilə İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası arasında yeni dəmir və avtomobil yollarının açılması, eləcə də rabitə və enerji xətlərinin yaradılması planlaşdırılır. Bu məqsədin reallaşdırılması üçün Araz çayı üzərində iki avtomobil (piyada keçidi ilə) və iki dəmir yolu olmaqla, ümumilikdə, 4 körpünün, eləcə də rabitə və enerji təminatı infrastrukturunun tikintisi nəzərdə tutulur.

Artıq Zəngilan, İran, Naxçıvan və yenidən Türkiyə ərazisindən keçəcək bu yolun yaradılması ilə bağlı böyük işlər həyata keçirilir. Həmçinin Qars-Naxçıvan dəmir yolunun inşası da diqqətdə saxlanılır. Bu isə Orta Dəhlizin yeni bir qolunun yaranması kimi də dəyərləndirilir.

***V.BAYRAMOV***
***XQ***

Əks-səda

# Bakıda səslənən Zəngəzur mesajı İrəvanı lərzəyə gətirdi

**Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində Zəngəzur dəhlizi, sülh müqaviləsi, delimitasiya-demarkasiya prosesi, işğal altındakı 8 kənd və digər məsələlərlə bağlı səsləndirdiyi fikirlər, ölkəmizin mövqeyinin həmişəki kimi aydın, birmənalı və prinsipial şəkildə ifadə olunması Ermənistanda geniş əks-səda doğurub. Ölkənin müxtəlif informasiya resursları, o cümlədən xəbər saytları müsahibədən çıxarışlar edərək, onu öz səhifələrində yerləşdiriblər. Müsahibə xəbis niyyətli bəzi siyasətçilər, deputatlar, politoloqlar və jurnalistlər arasında isə ajiotaj yaradıb. Ənənəvi anti-Azərbaycan ritorikasına köklənən, bundan özləri üçün, necə deyərlər, xal qazanmağa çalışan həmin şəxslər müsahibəyə isterik reaksiya veriblər. Belələrindən biri özünü "Cənubi Qafqazın problemlərinə diqqət yetirən müstəqil və azad düşüncəli jurnalist" adlandıran Robert Ananyandır.**




**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV,
Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri**

**– Ermənistan tərəfi 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli Bəyanatdan dərhal sonra Zəngəzur dəhlizinə qarşı çıxmağa başlamışdı. Ötən üç il ərzində onlar həmin mövqelərini dəyişmədilər. Buna görə də Azərbaycan İran vasitəsilə alternativ yol tapdı. İndi, yəni alternativ yolun tapılmasından sonra bunlar ortaya düşərək "Sülhün kəsişməsi" adlı layihə təqdim ediblər. Ermənistan bununla Zəngəzur dəhlizinə alternativ yaratmağa çalışır. Burada bizi qane etməyən iki məsələ var. Birinci rejim məsələsidir. Yəni, hansı rejim tətbiq olunacaq. İkincisi isə təhlükəsizlik məsələsidir. Yəni, yolun təhlükəsizliyinə kim cavabdehlik daşıyacaq.**

**Biz Ermənistanla bu iki məsələdə razılıq əldə edə bilmirik. Amma ermənilər buna qarşı çıxırlarsa, özləri bilərlər. Tipik erməni yanaşmasıdır. Biz onlara vaxtilə bir çox layihələrə qoşulmağı təklif etmişdik. Həm neft kəmərlərinin, həm də digər layihələrin Ermənistandan keçməsini təklif etmişdik. Buna razı olmadılar və axırda tam dalan vəziyyətinə düşdülər. Zəngəzur dəhlizinin açılmayacağı təqdirdə də itirən Ermənistan olacaq. Bizim üçün İran variantı var.**

**Ekspert rəyi**



**Fərhad MƏMMƏDOV,
Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru**

**– Ermənistanda Azərbaycan Prezidentinin müsahibəsi ilə bağlı fərqli interpretasiyalar var. Ancaq Prezident tam səmimi şəkildə Azərbaycanın baxışlarını açıqladı. Bu baxışlar ədalətlidir və beynəlxalq hüquqa əsaslanır. Rəsmi Bakı yalnız Zəngəzur dəhlizinin xüsusi rejimdə açılmasını təklif edir. Bu, o deməkdir ki, Azərbaycandan–Azərbaycana gedən insanlar və yüklər yoxlanılmamalıdır. Biz onu da başa düşməliyik ki, Naxçıvan üzərindən keçməklə, tutaq ki, İrəvandan Mehriyə, başqa sözlə, Ermənistandan–Ermənistana gedən şəxslər və insanlarla da bağlı həmin qayda işləyəcək. Bunu eksterritorial status, yaxud "işğal faktı" kimi təqdim etmək absurddur. Onlar bizim təkliflərə belə yanaşdıqları üçün Azərbaycan Prezidenti dedi ki, qəbul edirsinizsə, edin, etmirsinizsə, heç nə açılmayacaq.**

**Əgər Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü tanıyıbsa, mərhələli şəkildə anklavlar məsələsinin də həlli mümkündür. Azərbaycanın bu istiqamətdə də təklifləri və yanaşması konstruktivdir. Azərbaycan Prezidentinin ölkəmizin mövqeyini açıq-aydın bildirməsi ilə bağlı Ermənistanda ajiotaj yaradılması da yersizdir. Yəni, bu, Ermənistan tərəfi üçün yeni bir şey deyil. Dəfələrlə deyilib. Belə olan halda sülh sazişini çətinləşdirən sərhəd və kommunikasiyaların açılması məsələsini qeyd etmədən imzalamaq daha doğru olardı. Zənnimcə, Ermənistan tərəfi ajiotaj yaratmaqdan, dezinformasiya yaymaqdan, manipulyasiya etrməkdənsə, bu haqda ciddi düşünməlidir.**

O, "X" platformasındakı hesabında müsahibə ilə bağlı yerləşdirdiyi irihəcmli yazısında qeyd edib ki, guya, Azərbaycan Prezidenti Ermənistanı hədələyib. Ananyan bu fikrini dövlət başçımızın dediyi "Azərbaycandan–Azərbaycana, dediyim kimi, heç bir yoxlama aparılmadan insanlar və yüklər keçməlidir. Əks təqdirdə, Ermənistan əbədi dalan kimi qalacaq və əgər, dediyim marşrut açılmasa, biz Ermənistanla heç bir başqa yerdə sərhədimizi açmaq fikrində deyilik. Yəni, beləliklə, onlar bundan daha çox ziyan görəcəklər, nəinki xeyir" sözləri ilə "əsaslandırmağa" çalışıb. Deyib ki, Ermənistan tərəfi Zəngəzur dəhlizini təmin etmək istəməsə, Ermənistan Azərbaycan və Türkiyə tərəfindən mühasirədə (?) qalmaqda davam edəcək.

Erməni jurnalistin yuxarıdakı fikirləri "hədə" kimi qəbul etməsi anlaşılan deyil. Onun yanaşması qüsurludur. Başqa necə olmalıdır? Ölkənin bir yerindən digər yerinə gedən insanların və aparılan yüklərin yoxlamaya məruz qalması harada görünüb? Azərbaycanın bu tələbi ədalətlidir və beynəlxalq hüquqa uyğundur. Məsələn, SSRİ-nin dağılmasından sonrakı illər ərzində Rusiya vətəndaşlarının ölkənin ən qərb vilayəti olan Kalininqrad eksklavına rahat gediş-gəliş imkanı olub. Yalnız 2004-cü ilin mayında Polşa və Litva Avropa İttifaqına daxil olduqdan sonra Kalininqrad vilayətinin sakinləri sərhədləri keçmək və Rusiyanın qalan ərazilərinə səyahət etməkdə çətinliklərlə üzləşdilər. Hətta, 2022-ci ilin fevralında Rusiya–Ukrayna müharibəsinin başlanmasından sonra Qərb ölkələri tərəfindən şimal qonşumuza tətbiq olunan güclü sanksiyalar da Kalininqrada tranzitə təsir etməyib.

R.Ananyanın Zəngəzur dəhlizinin açılmayacağı təqdirdə Ermənistanla sərhədlərin heç bir başqa yerdə açılmayacağı fikrinə dözümsüz yanaşması da başa düşülmür. Zəngəzur dəhlizinin açılması məsələsi 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda öz əksini tapıb. Əgər Ermənistanla Azərbaycan arasında sərhədlər açılmalıdırsa, bu proses ilk növbədə Zəngəzur dəhlizindən başlamalıdır. Digər sərhəd-nəzarət buraxılış məntəqələrinin açılması bundan sonra baş verə bilər. Yaxud, bütün sərhəd qapılarının eyni vaxtda açılması mümkündür.

Bu da sirr deyil ki, Zəngəzur dəhlizinin açılmasından təkcə Azərbaycan deyil, Ermənistan və bütün region ölkələri faydalanacaq. İrəvan isə dəhlizin açılmasının suverenliyinə təhdid olacağını bəyan edərək, onu açmaqdan imtina edir. Halbuki, Azərbaycan ən yüksək səviyyədə dəfələrlə Ermənistanı "dəhliz" ifadəsindən qorxmamağa çağırıb, ölkəmizin Zəngəzur bölgəsinə iddiasının olmadığını bəyan edib. Elə haqqında söhbət açdığımız müsahibə zamanı Prezident İlham Əliyev deyib: "Çünki Ermənistan, bildiyiniz kimi, 10 noyabr üçtərəfli Bəyanatının bir müddəasını yerinə yetirmir və faktiki olaraq öz öhdəliyinə laqeyd yanaşır. Ona görə bunu pərdələmək, eyni zamanda, "Zəngəzur dəhlizi" sözünü sildirmək üçün belə bir təklif irəli sürmüşdür. Onu da bildirməliyəm ki, "Zəngəzur dəhlizi" sözü onları çox qıcıqlandırır və mən deyəndə ki, axı dəhliz hər hansı bir ölkənin suverenliyini şübhə altına almır, – Şimal-Cənub dəhlizi var, Azərbaycan ərazisindən keçir. Bu, o demək deyil ki, bizim suverenliyimiz burada şübhə altına düşür. Şərq-Qərb dəhlizi var, – amma nədənsə Ermənistanda bu dəhliz sözünə münasibət bir az fərqlidir. Ona görə bu erməni yol kəsişməsi, ya yolayırıcı, ondan sonra bunu "sülh yol kəsişməsi" adlandırmışlar. Amma faktiki olaraq, bu, piar aksiyadan başqa bir şey deyil".

Hay jurnalistin Ermənistanın Azərbaycan və Türkiyə tərəfindən mühasirəyə (?) alınması iddiası isə nonsensdir. Bu, bir faktdır ki, Ermənistan özünün işğalçılıq siyasəti nəticəsində dalan vəziyyətinə düşüb. Türkiyə isə 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğal olunmasından sonra Ermənistanla sərhədi bağlayıb. Bu gün də bölgədə əmin-amanlıqda səmimi görünməyən İrəvanın yürütdüyü "gah nala, gah mıxa vurmaq" siyasəti üzündən sərhədlərin açılması mümükn olmur. Belə olan təqdirdə Ananyan, o cümlədən onun həmvətənləri başqalarından inciməməli, özlərindən küsməlidirlər.

Ananyan isə tək deyil. Ermənistanda onun kimi düşünənlər çoxluq təşkil edirlər. İrəvan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin İranşünaslıq kafedrasının müdiri Vardan Voskanyan insanların və malların Zəngəzur dəhlizindən yoxlamasız keçməsini Ermənistana "de-fakto ultimatum" kimi qəbul etdiyini bildirib.

Ölkənin sabiq prezidenti, Azərbaycana qarşı qanlı etnik separatizmin fəal iştirakçısı Robert Koçaryanın oğlu, "Ermənistan" fraksiyasının deputatı Levon Koçaryan deyib ki, Azərbaycan və Türkiyənin Ermənistanla sülh yaratmaq istədiyini düşünənlər yanılırlar. O, özünün "Telegram" kanalında yazıb: "Hələ də bu cür düşünənlər, yumşaq desəm, sadəcə olaraq, reallıqdan uzaqdırlar".

Ermənistan parlamentinin müdafiə və milli təhlükəsizlik komitəsinin sədri Andranik Koçaryan isə hesab edir ki, Azərbaycan Prezidenti İlham Əliyevin səsləndirdiyi hər bir fikir ciddi qəbul edilməlidir. Jurnalistlərlə söhbətində o deyib ki, ermənilərin də vəzifəsi Ermənistanın əsaslarını gücləndirmək və möhkəmləndirmək olmalıdır: "Bu gün ən doğrusu sülh şəraitində yaşamaqdır. Müharibə nə vaxtsa bitməlidir, yoxsa yox?!"

Qeyd edək ki, Prezident İlham Əliyev müsahibə zamanı Zəngəzur dəhlizinin təhlükəsizliyi məsələsinə də münasibət bildirib: "Mən dəfələrlə Ermənistan rəhbərliyinə demişəm ki, Ermənistanın qarantiyaları bizə kifayət deyil. 10 noyabr Bəyanatında göstərilmişdi ki, Rusiya sərhədçiləri 42-43 kilometr ərazidə təhlükəsizliyi və nəzarəti həyata keçirirlər və bu öhdəlik yerinə yetirilməlidir. Ermənistan isə bundan indi boyun qaçırmaq istəyir. Halbuki, bu da məntiqli deyil. Çünki Rusiya sərhədçiləri Ermənistanın, İrəvanın aeroportundadırlar, Ermənistan-İran, Ermənistan-Türkiyə sərhədindədirlər. Niyə orada onlar qala bilərlər, amma burada qala bilməzlər? Sadəcə olaraq, bu, bir bəhanədir ki, bu yol açılmasın. Biz üç il gözləmişik, bizi ittiham edirdilər ki, biz güc tətbiq edərək o yolu açacağıq. Halbuki bu, cəfəng bir ittiham idi..."

Bu məqama münasibət bildirən hakim "Mülki müqavilə" partiyasının üzvü, parlamentin xarici əlaqələr komitəsinin rəhbəri Sarkis Xandanyan deyib ki, Ermənistan dəfələrlə kommunikasiyaların açılmasına dair öz mövqeyini bildirib və bunun hansı prinsiplərə uyğun baş verməli olduğunu qeyd edib: "Bu prinsiplərə kommunikasiyaların keçdiyi ölkələrin suverenliyinə və qanunlarına hörmət və qarşılıqlıq daxildir. Həmin prinsiplər müqavilədə öz əksini tapmalıdır və iyulda aparılan danışıqlar zamanı bu məsələlərlə bağlı şifahi razılıq əldə olunub. Bundan sonra dəhliz məntiqi ilə bağlı bütün söhbətlər bizim üçün ən azı anlaşılmazdır".

Xandanyan qeyd edib ki, ərazidən keçəcək yolların təhlükəsizliyi Ermənistanın müvafiq strukturları tərəfindən təmin ediləcək: "Kommunikasiyaların açılmasının Ermənistanın suverenliyi və qanunvericiliyi çərçivəsində həyata keçiriləcəyi deyildikdə, bu, o deməkdir ki, həm indi, həm də blokdan çıxarıldıqdan sonra ərazimizdən keçən yollarda təhlükəsizlik Ermənistanın müvafiq strukturları tərəfindən təmin olunmalıdır".

Bunun 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın doqquzuncu bəndinin tətbiq olunmayacağı anlamına gəlməsi ilə bağlı sualı şərh edən Xandanyan, yalnız erməni tərəfinin israr etdiyi kommunikasiyaların açılması prinsiplərini təkrarlayıb.

Göründüyü kimi, Azərbaycan Prezidentinin müsahibəsi Ermənistan cəmiyyətinin gündəminə çevrilib. Müsahibə geniş müzakirə olunur: normal düşüncə qabiliyyətinə malik olanlar ondan özləri üçün nəticə çıxarır, xəstə təfəkkürlülər isə onu öz bildikləri kimi qavrayırlar. Ancaq bütün hallarda Ermənistanda siyasi gündəmi də regionda yeni reallıqlar yaradan Azərbaycanın formalaşdırdığı bir daha aydın olur.

***Səxavət HƏMİD***
***XQ***

Köşə

# Xalqına, dövlətinə, regiona və dünyaya xidmət örnəyi...

## Bu məram Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində aydın görünürdü

**O, sözün həqiqi mənasında, istənilən sahədə yeniliyə meyillidir və həmin istiqamətdə də daim öz məqsədinə çatır. O, "köhnə"ni unutmur. Əksinə, bütün yenilikləri məhz köhnə ənənələr üzərində qurur. Dövlətimizi dünyanın əsas aktorlarından birinə çevirəndə də belə idi, bütün dünyanın diqqətini haqq işimizə cəlb edəndə də, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası prosesində də, hətta, istənilən müsahibəsində də.**



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

Biz uzun illər idi ki, yanvarın ilk həftələrində dövlət başçımızın sədrliyi ilə keçirilən "Nazirlər Kabinetinin ötən ilin sosial-iqtisadi inkiçafının yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş müşavirəsi" adlı ümumrespublika miqyaslı tədbirləri unutmamışıq. Orada dövlət başçımız geniş giriş nitqindən sonra sahə rəhbərlərinin hesabatlarına qulaq asmaq istəyir, nazirlərə və komitə sədrlərinə müvafiq suallar verirdi. Son bir neçə ildə isə cənab Prezident yenə də yanvarın ilk həftələrində keçirilən geniş tədbirdə özünün sual vermək ənənəsini mətbuat təmsilçilərinə həvalə edir. Necə deyərlər, "siz soruşun, mən isə yeni reallıqların nədən ibarət olduğunu söyləyim".

Builki müsahibədə bir jurnalist kimi məni daha çox məmnun edən iki məqam var idi: Biri dövlət başçımızın jurnalistlərin suallarını cavablandırarkən ötənilki siyasi həyatımızın bəzi xüsusi detallarını da yada salması, digəri isə Azərbaycan Prezidentinin öz siyasi fəaliyyətində təkcə, xalqımızın, dövlətimizin maraqlarının təmin edilməsinə deyil, həm də regionun və ümumiyyətlə, dünyanın əksər problemlərinin həllinə töhfələr vermək əzminin ortada olması.

Yanvarın 10-da bir daha məlum oldu ki, Prezident İlham Əliyev xalqa xidmət etmək məqsədini, sözün həqiqi mənasında, şaxələndirməyə nail olub. Onun cavablarında ölkənin sosial-iqtisadi həyatının, dövlətin hərbi-texniki hazırlığının, dövlət başçısının siyasi-diplomatik fəaliyyətinin bütün məsələləri xalqın ən sadə təmsilçisinin də anlayacağı şəkildə dilə gətirildi.

Mən xalqın arasında daha çox olduğuma görə bəlkə də hər gün belə suallar eşidirdim ki, prezident seçkilərinə hələ xeyli qalsa da, nə üçün növbədənkənar seçkilər keçiririk? Bu sualın cavabını dövlət başçımız həm ölkə daxilindəki, həm də beynəlxalq aləmdəki "maraq sahiblərinə" aydın şəkildə çatdırdı: "Mənim Prezident kimi fəaliyyətimin 20 ili tamamlandı. Bu da bir dövrdür və bunu da biz bir yekun kimi qəbul etməliyik. 20 ildən sonra yenidən prezident seçkilərinin keçirilməsi, təbii ki, bu xronoloji dövrü də əsaslandırmış olur".

Başqa bir məqam, cənab Prezident son üç ildə ölkə mətbuatında yazılan, kütləvi tədbirlərdə səsləndirilən " İlham Əliyev Qarabağı düşmən işğalından azad etdi", "Ali Baş Komandanımız ermənilərə və onların havadarlarına sarsıdıcı zərbələr vurdu" və digər bu kimi arqumentlərə cavab olaraq dedi: " Biz hamımız xoşbəxtik ki, bu dövrdə yaşayırıq, bu dövrün şahidləriyik, bu böyük Zəfərin əldə olunmasında iştirak etmişik. Hərə öz yerində, siz media nümayəndələri kimi, mən Ali Baş Komandan kimi, xalqımızın bütün təbəqələri öz işi ilə bu Qələbəni yaxınlaşdırırdılar. Bu, ümummilli bir məsələyə çevrildi, ümummilli hərəkata çevrildi və 30 il ərzində bir çox beynəlxalq tərəfdaşlarımızın səylərinə baxmayaraq, bu mövzu unudulmadı".

Xüsusilə vurğulanmalı məqamlardan biri də üç il qabaq bədxahlarımızın dilindən düşməyən hədyanların "Xocalısız, Xankəndisiz hansı qələbədən danışırsınız?" sualının cavabını eşitməyimiz oldu: "Əlbəttə, əgər müharibə davam etsəydi, Kəlbəcər və Laçın rayonlarını özü də artıq qış mövsümündə azad etmək çox çətin olardı. Halbuki, biz bunu da edəcəkdik. Amma itkilərimiz həddindən artıq çox ola bilərdi, hətta 44 günlük müharibədə verdiyimiz şəhidlərin sayından qat-qat çox ola bilərdi. Biz hamımız bunu yaxşı bilirdik." Məhz bu məqamı nəzərə alaraq yuxarıda qeyd etdik ki, cənab Prezidentin xalqa xidməti kifayət qədər şaxələndirilib. O mürəkkəb məqamda, Şuşanın da azad edilməsindən sonrakı sevincli saatlarımızda istənilən azərbaycanlı ordumuzun daha çox irəli getməsini arzulyır və hətta, tələb edirdi. Ancaq cənab Prezident ordumuzun daha az itki verməsinin qayğısına qaldı.

Biz yuxarıda "cənab Prezidentin regiona xidmət əzmi" ifadəsini də təsadüfən yada salmadıq. Çünki dövlət başçımız həmin müsahibəsində dönə-dönə xatırlatdı ki, biz İkinci Qarabağ müharibəsinə qədər də, müharibənin getdiyi günlərdə də, Qələbədən ötən üç ildə də daim sülhə can atmışıq və yenə də həmin fikirdəyik. Çünki sülh regionumuza tərəqqi və rifah gətirəcək. Ermənistanda anlamalıdırlar ki, bu gün sülhə hamıdan çox onların ehtiyacı var.

O ki qaldı, Prezident İlham Əliyevin dünyada gedən proseslərin ədalətli məcraya yönləndirilməsinə töhfələr verdiyi barədə arqumentimizə, bu məqsədlə də cənab Prezidentin özündən sitat gətirməyimiz qənaətimizi tam aydınlaşdıracaq: "Qoşulmama Hərəkatında sədrliyimiz başa çatır, amma Bakı Təşəbbüs Qrupu yaşayacaq, biz fransız neokolonializminin ifşa olunmasını və fransız müstəmləkələrinin Fransanın zülmündən azad olunması prosesini dəstəkləyəcəyik".

Replika

# Vandalların Bastiliya təqdimatı

## Paris saxta erməni göz yaşlarına ayna tutur

**Fransa paytaxtının Bastiliya meydanında Paris meriyası və "L'Œuvre d'Orient" katolik icması birgə açıq səma altında "Dağlıq Qarabağ: erməni irsi təhlükə altında" sərgisini təşkil ediblər. Ermənistanın Fransadakı səfirliyinin yaydığı məlumatda qeyd olunur ki, sərginin nüvəsi "Dağlıq Qarabağın erməni tarixi və mədəni irsini təcəssüm etdirən" 30 eksklüziv fotoşəkildən ibarət imiş. "Böyük bacı"larının yaxından dəstəyi ilə təşkil olunmuş, Qarabağ üçün "həyəcan təbili"nin çalındığı sərginin rəsmi açılış mərasimində çıxış edən Ermənistanın Fransadakı səfiri Asmik Tolmacyanın "humanist təşəbbüsə" görə Paris meriyasına və katolik təşkilatına minnətdarlığını bildirməsi təbii qəbul olunmalıdır. Axı bu qurumlar həmişə Ermənistanın və erməni xalqının yanında olublar, onlara "haqq işlərində" hərtərəfli dəstək veriblər.**

30 il işğal altında saxladıqları Qarabağımızda insanlarımıza və təbiətimizə qarşı vandalizmin ən son həddini sınaqdan çıxarmış ermənilərin milli-dini, tarixi-mədəni abidələrimizə tutduqları divanı, Yer üzündən sildikləri, əcnəbilərin "Qafqazın Xirosiması" adlandırdığı Ağdamın xarabalıqlarını unudaraq, saxta irslərinin həyasızcasına təbliğinə və müdafiəsinə qalxmalarına ad verməkdə çətinlik çəkirik.

* * *

Üç il iki ay bundan əvvəl Azərbaycanın möhtəşəm Zəfərlə bərpa etdiyi tarixi ədaləti həzm etməyə başlamış ermənilərin "miatsum" xülyasını ölməyə qoymayan rəsmi Parisin körüklədiyi separatizm-revanşizm meyillərinin okeanın o tayında, Kaliforniyada da təzahürlərini tez-tez görürük. Bu cür avantürist ideyalara "siyasi züytutanlar"ın məqsədinin heç də ermənilərə canlarının yanmadığı, sadəcə Cənubi Qafqazda korporativ maraqlarını güddükləri barədə yazmışdıq.

Paris meriyasının və kilsənin həmrəyliyinin rəmzi sayılan həmin sərgidəki çıxışında erməni səfir Azərbaycanın "Dağlıq Qarabağda etnik təmizləmə apardığını", indi isə bölgədə ermənilərin "mövcudluğunun izlərini silmək üçün addımlar atdığını" bəyan edib. "Dağlıq Qarabağ: erməni irsi təhlükə altında" sərgisində nümayiş etdirilən fotoşəkillərdəki kilsələr, heykəllər və monumentlər Bakının "bu siyasətinin sübutları" imiş.



Sərgi ilə bağlı Ermənistanın Fransadakı səfirliyinin məlumatında daha sonra deyilir ki, mərasimdə Paris merinin müavinləri Arno Nqaça və Karin Rollan, "L'Œuvre d'Orient" katolik icmasının prezidenti Jan-İv Tolo, eləcə də "Dağlıq Qarabağın Fransadakı nümayəndəsi" Ovanes Qevorkyan alovlu nitq söyləyiblər.

Parisin tarixi Bastiliya meydanında nümayiş etdirilən itib getməkdə olan "artsax irsi"nə aid fotoşəkillərin arxasından, əslində, ermənilərin Qarabağda törətdikləri və insanlıqla bir araya sığmayan vəhşiliklərin, vandalizmin "portreti" boylanır. Həqiqəti əks etdirən həmin "portreti" təkcə biz deyil, Fransanın sağlam düşüncəli ziyalıları, praqmatik siyasiləri də görürlər. Otuz ildən sonra əsl sahibinə qayıtmış və bir də geri dönməyəcək Qarabağ münaqişəsinin gerçək tarixinə az-çox bələd olan fransızlar da yox deyil.

Fransanın fəxri senatoru tituluna layiq görülmüş Alen Vassel qondarma sərgidəki fotoşəkillərə deyil, 30 il ərzində Azərbaycanın Qarabağ torpağında törədilən vəhşiliklərdən, eləcə də indi Fransanın özündə hayların yalan və riyakarlıqdan yoğrulmuş fəaliyyətlərindən kifayət qədər məlumatlı adamdır. O, Evian şəhərində ermənipərəst qüvvələrin təzyiqləri nəticəsində Azərbaycan parkına vurulan zərər, eləcə də şəhər meriyası tərəfindən parkın adının dəyişdirilməsi təşəbbüslərinə münasibət bildirib. Onun qənaətincə, baş verən hadisələrə narazılıq bildirməyin çeşidli üsulları, müxtəlif yolları var. "Amma yazıçılar, şairlər bizim ümumi tariximizdir. Aleksandr Düma və şair şahzadə Xurşidbanu Natəvan kimi dahilərin əsərləri bizim mədəni irsimizin bir hissəsidir və mədəniyyətimizə məxsusdur", – deyən Vassel Evianda baş verənləri absurd, obyektivlikdən tamamilə uzaq ermənipərəst qüvvələrin qanunsuz əməllərinin nəticəsi kimi qiymətləndirib.



Yəni, dünya ədalət və reallıq hissini itirməmiş fransızlardan xali deyilmiş. Elə ermənilərin öz işərisində də millətinin gələcəyinin qonşuları Azərbaycan və Türkiyə ilə birgə yola çıxmaqdan başqa alternativin olmadığını dərk edən sağlam düşüncəlilər az deyil. İki ölkə arasında sülhün hənirtisinin duyulduğu indiki məqamda məhz onlar sözlərini deməli, mövqelərini sərgiləməlidirlər. Bundan ötrü Parisə getməyə gərək yoxdur, İrəvanın Teatr meydanı yetərlidir.

***İ.HƏSƏNQALA***
***XQ***

ZƏFƏR YOLÇULARI

# Vətəndən can əsirgəməyən oğul

**Bu yaxınlarda Sumqayıtın Tarixi Muzeyində Vətən müharibəsi şəhidi Səbuhi Əlixan oğlu Həsənquliyevin xatirəsinə həsr olunmuş tədbirdə anasının ona həsr etdiyi şeirləri söyləməsi hər kəsi təsirləndirdi. Qəhrəmancasına ölümü ilə tarix yazan igidin anası ondan sonra şəhid balasının adını özünə təxəllüs götürüb və "Maisə Səbuhi" imzası ilə yeni kitabını nəşr etdirib.**

"Şəhidlik Tanrı hədiyyəsidir" adlanan kitabının üzqabığında qəhrəmanın iri şəkli, səhifələrində isə haqqında yazılmış kövrək, həzin və qürur dolu neçə-neçə şeir yer alıb.



**Nə zaman böyüyüb qəhrəman oldun?**
**Şuşanı qurtarıb arzuna doldun.**
**Vətənçün döyüşüb gül kimi soldun,**
**Məzarın zirvədə qazılıb sənin...**

Səbuhi Həsənquliyev 2002-ci ildə Ucar rayonunun Boyat kəndində dünyaya gəlib. Ailənin 2 oğlan övladından biri olub. 2008-ci ildə Sumqayıt şəhərindəki Cəbrayıl rayonu 5 nömrəli məktəbin 1-ci sinfinə gedib və 9-cu sinfi bitirəndən sonra Peşə liseyində təhsil alıb. 2020-ci ilin yazında həqiqi hərbi xidmətə yollanıb. Vətən müharibəsi başlananda o, sadəcə 5 ayın əsgəri idi. Qürurlanırdı ki, düşməndən qisas almaq imkanı yaranıb. Cüssəsinə və ayıq-sayıqlığına görə onu XTQ-yə cəlb ediblər. Bundan sonra Səbuhi "yaşma"larla birgə ən öndə getməyə başlayıb, döyüşlərdə fəal iştirak edib, qəhrəmanlıqlar göstərib. Cəsur döyüşçü şəxsi nümunəsi ilə daim silahdaşlarını qələbəyə ruhlandırıb.

Yaralı, ya da şəhid olmuş dostlarının birini də döyüş meydanında yalnız buraxmayan qəhrəmanımız Şuşada şiddətli əlbəyaxa döyüşlərdə iştirak edib. Tac şəhərimiz uğrunda son döyüş ərəfəsində sanki şəhid olacağını əvvəlcədən hiss edən Səbuhi toya gedirmiş kimi, qoluna qırmızı parça bağlayaraq "Vətən uğrunda qurban gedirəm", – deyib. Döyüşdə çox sayda düşməni məhv edib. Dostunun düşmən tərəfindən vurulduğunu görüb və onu mərmi yağışının altından çıxarmağa çalışarkən özü də gülləyə tuş gəlib. Döyüş yoldaşları ona çatanda Səbuhinin artıq ağır yaralanaraq şəhid olduğunu görüblər.

Onun Vətən bayrağına bükülmüş nəşi Sumqayıta gətirilib və Şəhidlər xiyabanında qəhrəmanla izdihamlı vida məraimi keçirilib. Səbuni Həsənquliyev ölümündən sonra Azərbaycan Prezidentinin sərəncamları ilə "Vətənə xidmət görə" ordeninə, Cəbrayılın, Füzulinin,Qubadlının, Şuşanın azad olunmasına görə və "Vətən uğrunda" medallarına layiq görülüb...

Yuxarıda xatırlatdığımız anım tədbirində şəhidin keçdiyi qısa, lakin şərəfli yoldan, onun Vətənə naminə fədakarlıqlarından ətraflı bəhs olunub. Torpaq üçün canından keçən qəhrəmanlara həsr olunmuş şeir və mahnılar səsləndirilib.

Mərasimin sonunda çıxış edən şəhidin şair anası igid övladı ilə fəxr etdiyini dilə gətirib, bundan sonrakı yaradıcılığını bütünlüklə igid övladına və digər şəhidlərə həsr edəcəyini söyləyib.

***Əli ƏLİYEV***
***XQ***

# Şuşa zirvəsində əbədiləşən qardaşlar

**Otuz il idi ki, düşmən tapdağında qalan torpaqlarımız üz qaramız olmuşdu. Şükürlər olsum ki, nəhayət, 44 günlük "Zəfər Yürüşü" ilə erməni işğalına son qoyduq. Amma Qarabağın məkrli düşməndən təmizlənməsi, ərazi bütövlüyümüzün bərpası qurbansız ötüşmədi, 3 min şəhid verməli olduq.**




Haqqında söhbət açmaq istədiyim şuşalı Vidadi Fərhadov da Qarabağda şəhadətə ucalan soydaşlarımızdandır. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin mənzil-kommunal və təmir xidmətində mühəndis işləyən Vidadi bu il sentyabrın 19-da separatçı erməni silahlı dəstələrinin Şuşaya terror hücumu zamanı iş yoldaşlarını sığınacağa apararkən həyatını itirib. Qəhrəman hərbçilərimizin 23 saat ərzində düşmən tör-töküntülərini zərərsizləşdirməsini və dövlət suverenliyimizi tam bərpa etməsini görməsə də, onun ruhu şaddır ki, bu yolda canını qurban verənlərdəndir.

Elə buradaca xatırladaq ki, Vidadinin böyük qardaşı Füzuli də 1991-ci ildə eyni aqibətə düçar olub: 1991-ci ildə Şuşada kənd təsərrüfatı idarəsinin rəhbəri işləyən Füzuli müdafiə tədbirlərinin təşkili zamanı düşmənin atdığı "Alazan" mərmisinə tuş gələrək həyatını itirib. İkinci Qarabağ müharibəsi başlananda Vidadi Vətən müdafiəçilərinin sırasına qatılmağa çox can atsa da, yaşına görə bu, mümkün olmayıb. Amma Böyük Zəfərdən sonra yaranan ilk imkandaca o, Şuşaya gedib və bərpa-quruculuq işlərində çalışmağa başlayıb. Təəssüf ki, nankor ermənilərin növbəti xəyanəti bu yurdsevər insanı da aramızdan apardı.

Vidadi Şuşasız illəri ömründən saymırdı. Bu nisgillə 29 il canını dişinə tutub yaşadı, bir cüt övlad böyütdü. Şuşa azad olunanda sevinci yerə-göyə sığmadı, fərəhdən qanad taxıb, doğma yurda pərvazlandı. Elə orada da əbədiyyətə qovuşdu. Ona məxsus sosial şəbəkə statuslarına, fotolara, videosüjetlərə baxdıqca, Şuşanın istisinə bələnərkən necə vəcdə gəldiyinə, uşaq kimi şadlanmağına heyrətlənməmək mümkün deyil. Vidadi o şuşalılardan idi ki, yurdunu Ayı, ulduzu, yağışı, qarı, dolusu, dumanı, dovşanı, kirpisi ilə sevirdi... 56 yaşlı Vətən fədaisindən həzin, kövrək xatirələr qalıb.

Taleyin, qismətin gərdişinə baxın ki, iliyinə qədər vətənpərvər qardaşlar olan Füzuli və Vidadinin atası Aydın kişi xəstə canı ilə 29 il "Şuşa, Şuşa!" deyərək həsrətə dözdü və tac-şəhərimizin işğaldan qurtulan gününü görəndən sonra Şuşa torpağına tapşırılmaq vəsiyyəti ilə ömür karvanını çəkib getdi. İndi Şuşa səmasında ata və övladlarının pak ruhu bərabər pərvazlanır...

Vidadinin qardaşı oğlu, babasının adını daşıyan kompüter mütəxəssisi Aydın Fərhadlının dedikləri: "Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ən böyük təsellimiz düşmən tapdağındakı torpaqlarımızın azadlığa, əsl sahiblərinə qovuşması, yurd həsrətlilərinin oralara qayıtmasıdır. Ailəmiz doğma şəhəri tərk eləmək məcburiyyətində qalanda mənim 2 yaşım vardı. İndi isə 33 yaşındayam və bir müddət öncə icra hakimiyyətinin sifarişi ilə həmin ərazilərin elektron xəritəsini hazırlayanların sırasında olmağımla fəxr edirəm. Məxsusi duyğularla cənnətməkan Qarabağımızın virtual səyahətləri gerçəkləşdirənlərdənəm. Ən böyük arzum həmişəlik köçüb Şuşada yaşamaq, övladlarımı orada böyütməkdir".

Babası və əmiləri Şuşada uyuyan Aydını dinlədikcə yadımıza ulu şairimiz Məhəmmədhüseyn Şəhriyarın Vətən eşqli misraları düşür:

**Can qurban etmənin vaxtı çatıbsa,**
**Səndən hansı namərd əsirgəyər can?**
**Qoyaram başını ayaqlarına,**
**Ey ana torpağım! Ey Azərbaycan!**

Bu, Vətən uğrunda vuruşan, çarpışan, yurdun hər daşına can qoyan insanların həyat kredosu, ölməzlik himnidir.

***Qurban CƏBRAYIL,***
***"Mədəniyyət"***
***jurnalının redaktoru***

Elin varı – ilin barı



# Saatlı torpağı "ağ qızıl"ın işığında

## Ötən il respublikada ən çox – 38 min ton pambıq bu rayonda toplanıb

**Saatlı rayonunun fermerləri növbəti pambıq mövsümündə istər suvarma suyu ilə bağlı yaşanan bəzi çətinliklərə, istərsə də təbiətin şıltaqlığına– pambıq yığımı dövründə intensiv yağışların yağmasına baxmayaraq, ruhdan düşmədilər. Onlar 38 min 270 ton məhsul toplamaqla ölkə üzrə birinci yerdə qərarlaşdılar.**



Qeyd edək ki, 2023-cü ildə Saatlıda respublika üzrə ən çox– 12 min 624 hektar sahədə pambıq əkilib və 1787 fermerlə müqavilə bağlanıb. Rayon üzrə hektarın məhsuldarlığı isə 30,31 sentnerə yüksəlib.

Əməktutumlu sahə olan pambıqçılığın respublikamızda yenidən dirçəlməyə, başqa sözlə desək, pambığın yenidən "ağ qızıl"a çevrilməyə başladığı dövrdən, yəni 2016-2017-ci illərdən Azərbaycan dövləti bu sahəyə hər zaman xüsusi diqqət və qayğı ilə yanaşıb. Belə ki, sözügedən sahənin inkişafı ilə bağlı dövlət proqramları qəbul edilib, fermerlərə məhsul subsidiyası ödənilməyə başlanıb, pambığın alış qiyməti ilbəil artan tendensiya üzrə fermerlərin xeyrinə dəyişməkdə davam edib. Təkcə 2022-ci ildə pambıq tədarükü və emalı müəssisələri tərəfindən məhsulun fermerlərdən alış qiymətinin artırılmasına dair iki dəfə qərar qəbul olunub: pambığın alış qiyməti hər tona 50 manat olmaqla iki dəfə, yəni 100 manat artırılıb.

Beləliklə, 2023-cü ildə pambığın fermerlərdən alış qiyməti (hər tonuna) I növ üçün 800 manat, II növ üçün 780 manat, III və IV növlər üzrə isə müvafiq olaraq, 740 və 700 manat müəyyənləşdirilib. Eyni zamanda, 2022-ci ildə tədarük məntəqələrinə təhvil verilən pambığın hər tonuna görə fermerlərə 170 manat subsidiya ödənildiyi halda, ötən il Aqrar Subsidiya Şurasının qərarına əsasən, bu rəqəm artırılaraq190 manata çatdırılıb. Əlbəttə, göstərilən bütün bu dəstək fermerlərin də pambıqçılığa olan marağını və həvəsini xeyli artırıb.

Xatırladaq ki, Saatlı rayonunda ən yüksək pambıq istehsal 1981-ci ilə ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrünə təsadüf edir. Lakin həmin dövrdə respublika üzrə pambıqçılıq sahəsində ilk iki yerdə, bir qayda olaraq, Bərdə və Sabirabad rayonları qərar tutardı. Sevindirici haldır ki, hazırda Saatlı rayonu bu estafeti uğurla davam etdirir.

***Mahir ALLAHYAROV,***
***"Dönüş" qəzetinin redaktoru***

Epidemioloji durum

# Ana və körpələrini qızılcadan necə qoruyaq?

**Ötən ilin sonlarından başlayan və hazırda davam edən qızılca epidemiyasının yayılması ilə əlaqədar ölkədə əks-epidemik və profilaktik tədbirlərin aparılması davam etdirilir. 2023–2024-cü ilin payız–qış mövsümündə 15 min 550 nəfərin vaksinasiyası aparılıb.**

TƏBİB-dən verilən məlumata görə, qrip əleyhinə inaktivləşdirilmiş vaksinlər mövsümi olaraq, qrip ağırlaşmalarının meydana çıxma riski yüksək olduğu vaxtlarda uşaqların və böyüklərin qripdən qorunmasına kömək edir. Qrip əleyhinə peyvənd olunmaq istəyən vətəndaşlar regionlar üzrə rayon mərkəzi xəstəxanalarında, Bakı şəhəri üzrə isə müəyyən olunan müvafiq ilkin səhiyyə müəssisələrində bu tibbi xidmətdən ödənişsiz olaraq yararlana bilərlər.

Peyvəndləmə ilə bağlı Səhiyyə Nazirliyi əhaliyə çağırış ünvanlayıb. Qurum qeyd edib ki, yaranmış epidemioloji vəziyyətin təhlilinə əsasən, azyaşlılarla yanaşı, 10 yaşından yuxarı uşaqlar və böyüklər arasında da yoluxma halları müşahidə edilir. Yoluxanların, demək olar ki, hamısı qızılcaya qarşı heç vaxt peyvənd olunmayan və bu xəstəliyi keçirməyənlərdir.

İnfeksiyanın yerli yayılmasının, xəstəlikdən ağırlaşma və ölüm hallarının qarşısının alınması üçün 10 yaşa qədər uşaqların ölkədə qüvvədə olan profilaktik peyvəndlər təqviminə əsasən, vaksinasiyası ilə yanaşı, qızılcaya həssas 11– 40 yaşlı əhali qruplarının da peyvənd olunması vacibdir. Bunu nəzərə alaraq, Səhiyyə Nazirliyi vaksin preparatlarının ölkəyə gətirilməsini təşkil edib. Alınan vaksinlər Niderland istehsalıdır, ÜST və Avropa Şurasının tövsiyələrinə uyğundur.

**40 yaşa qədər insanlara vaksin tövsiyə edilməsi ilə bağlı belə bir sual da meydana çıxır: hamilələrə peyvənd vurdurmaq olarmı? Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutunun mama-ginekoloqu Aysel Bəyişova bununla bağlı XQ-yə bildirdi:**

– Vaxtında qızılcaya qarşı peyvənd olunmayan qadınlarda hamiləlik müddətində xəstəliyin gedişi ağır ola bilər. Çünki həmin dövrdə qadının fizioloji olaraq immun sistemi nisbətən zəifləyir. Hamiləlik zamanı yoluxma mənbəyi xəstə insanla ünsiyyətdə olmaqdır. Xəstəliyin hamiləliyə təsiri yoluxma müddətindən asılı olaraq dəyişir. İlk 3 ayda inkişafdan qalmış hamiləliyə, düşüklərə səbəb olur.





Əgər hamiləlik dövründə xəstəlik inkişaf edirsə, bu zaman döldə mərkəzi sinir sisteminin zədələnmələri, mayalanma dövrünə təsadüf etdiyi halda isə xromosom anomaliyalarının yaranmasına səbəb ola bilər. İkinci 3 ayda isə uşaq vaxtından əvvəl olsa da, bəzən tam sağlam doğula bilər.

Qızılca zamanı ağciyər pnevmoniyasının inkişafı riski hamilələrdə yüksək olur. Belə olanda 72 saat ərzində hamiləyə qızılca əleyhinə immunoqlobulin vurulmalıdır. Bu, həm virusa yoluxmanın qarşısını alır, həm də xəstəliyin yüngül keçməsinə şərait yaradır.

Qızılcadan qorunmağın ən təhlükəsiz yolu vaxtında peyvənd olunmaqdır. Qızılca peyvəndi məxmərək peyvəndi ilə birgə vurulduğu üçün insanı hər iki xəstəlikdən qoruyur. Peyvəndlənmiş şəxslər xəstə insanla təmasda olsalar da, ya xəstəliyə yoluxmurlar, ya da çox yüngül keçirirlər. Xüsusən də qızılcaya qarşı vaxtında peyvənd edilən uşaqlarda xəstəliyin ağırlaşmaları müşahidə edilmir.

**Həkimin fikrincə, hamiləlik zamanı qızılca peyvəndi vurdurmaq qəti şəkildə məsləhət görülmür:**

– Hamiləlik planlaşdıran qadınların, ən azı, 6 ay əvvəl qızılcaya qarşı peyvəndlənməsi tövsiyə olunur. Xəstəliyə yoluxan hamilələr üçün xüsusi bir müalicə üsulu mövcud deyil. Ona görə də simptomatik müalicə təyin edilir. Körpə dünyaya gəldikdən sonra müayinə olunur. Əgər uşaqda qızılca aşkar olunarsa, o, anası ilə bərabər qalır və ana südü ilə qidalanır. Amma yoluxmayıbsa, ana izolyasiya olunur və müalicə kursu təyin edilir.

Qeyd edək ki, yüksək yoluxuculuq qabiliyyəti olan qızılca infeksiyasından qorunmağın ən təsirli yolunun vaksinasiya olduğunu nəzərə alaraq, Səhiyyə Nazirliyi əhaliyə bir daha müraciət edir və qeyd olunan həssas əhali qruplarını qızılca infeksiyasına qarşı peyvənd olunmağa çağırır. Vaksinasiya üçün yaşayış yerləri üzrə uşaq və böyüklərə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət oluna bilər.

***Z.HÜSEYNOVA***
***XQ***

Xatirələrə köçənlər

# Unudulmaz Yalçın müəllim...

**Yalçın Əlizadə... Bu ad məni 29 il əvvələ aparır: 1994-cü il, BDU-nun Jurnalistika fakültəsi, 1-ci kurs, 2-ci semestr, ixtisaslara seçim üçün müsahibə mərhələsi. Qrupumuzda çoxları Televiziya və radio jurnalistikası kafedrasına düşmək istəyirdi. Düzdür, kafedra müdiri Yalçın Əlizadənin zəhmi hamımıza sirayət etsə də, efirə həvəsimiz bu qorxuya qalib gəlirdi. Hər kəs özünü bu cəlbedici qrupda görürdü. Mən şanslılardan oldum.**

İstəyimi reallaşdıran ilk şansın ardınca digərləri gəldi. Artıq 29 ildir zəhmindən çəkidiyim insanın – Yalçın müəllimin göstərdiyi yol və bu yolda yandırdığı yaşıl işıq sayəsində Jurnalistika fakültəsinin bir parçasına çevrildim. Bakalavriatdan sonra magistratura, daha sonra dissertantura...



Bu pillələrlə irəlilədikcə elmi rəhbərim Yalçın müəllimin məsləhətlərindən yararlandım. "Hər kim 100 il yaşamasa..." (Mirzə Babayev və Nəsibə Zeynalova ilə müsahibə) mövzusunda diplom işi yazmaq istəyimə qarşı çıxmasa da, siyahıda diplom rəhbərim kimi Yalçın Əlizadənin adını oxuyanda – "bu, çox çətin olacaq", – düşündüm. Elə düşündüyüm kimi də oldu. Təkcə sənət korifeylərinə ünvanlayacağım suallara görə üç ay dekanlığa ayaq döydüm. Həmin dövrdə hər iki Xalq artistinin səhhəti yaxşı deyildi. Diplom işimlə yanaşı, narahatlığım həm də bununla bağlı idi. Bunun üzərinə Yalçın müəllimin tələbkarlığını da əlavə edəndə, situasiya daha da dramatikləşirdi. Amma geriyə yol yox idi. Yalçın Əlizadəyə veriləcəyim ilk "yaradıcılıq hesabatından" nəinki yayınmaq, bu barədə düşünmək belə mümkün deyildi. Bütün çətinliklərə baxmayaraq, tələbə-jurnalistin hazırladığı radio-kompozisiya diplom rəhbərinin məqbul sayacağı səviyyədə alındı. Məhz Yalçın müəllimin xeyir-duası ilə veriliş Azərbaycan radiosunun "Musiqili görüşlər" proqramında efirə verildi...

***

Magistraturanı bitirdikdən sonra Yalçın müəllim mənə dissertant olmaqla yanaşı fakültədə işləməyi təklif etdi. Jurnalist kimi çalışmaq istəyimi bildirəndə etiraz etmədi, amma elmi fəaliyyəti unutmamağı tapşırdı. Qısa müddət ərzində çap və elektron mediada çalışdım. Amma ustadımın tövsiyəsini unutmadım. Sonra fakültəyə Tədris Televiziya Studiyasının müdiri kimi qayıtdım. Dissertant kimi əvəzolunmaz elmi rəhbərimlə mövzu üzərində məsləhətləşmələrə də elə o vaxtdan başladıq. Artıq Yalçın Əlizadə Jurnalistika fakültəsinin dekanı, mənsə müəllimi idim. Onu tanıyanlar qayğıkeşliyi ilə bərabər, nə qədər tələbkar olduğunu da yaxşı bilirlər. Heç yadımdan çıxmaz, sənəd işi ilə bağlı rektorluğa getdiyim üçün dərsə 5 dəqiqə gecikdim. Fikirləşirdim ki, buna görə problem olmaz. Amma dəhlizdə məni gözləyən dekanı görəndə, onun "tənbehini" eşidəndə yanıldığımı anladım.

Ustadımın növbəti etimadını BDU-da vəzifədə olanların dərs yükünün azaldılması ilə bağlı qərar çıxarkən gördüm. Məzuniyyətdə olarkən fakültədən zəng edib, "təcili Yalçın müəllimin yanına gəlin", dedilər. Düzü, elmi işimlə bağlı problem olduğunu düşündüm. Amma yanılmışdım. Yalçın müəllim Televiziya və radio kafedrasının iki əsas fənnindən birini, illərdir özünün tədris etdiyi "Radio jurnalistikasının əsasları" fənninin mənə həvalə olunduğunu dedi və əlavə etdi: "Bir aya yeni mühazirələrlə səni gözləyirəm". Gözlənilməz təklifdən imtina etməyə çalışdım. "Hazır deyiləm", "çox az vaxt qalıb" kimi bəhanələr işə yaramadı. O, dərsə gecikdiyim zaman üzləşdiyim eyni ciddiyyətlə məni susdurdu.

Xəstəliyi ilə əlaqədar fakültədən uzaqlaşdığı zamanlarda belə Yalçın müəllim tələbələrdən dəstəyini əsirgəmədi. Magistratura səviyyəsində dərslərə girmək üçün elmi dərəcəm olmasa da, Yalçın müəllim yenə də yaşıl işığını yandırdı, "magistraturadakı dərslərimi Aynura verin" – dedi.

Sağlığında sonuncu uğurumu – Beynəlxalq Jurnalistika və informasiya siyasəti kafedrasının müdiri vəzifəsinə təyinatdan öncə Yalçın müəllimə zəng vurdum. "Müəllim, proqnozlarınız, həmişə olduğu kimi, yenə də özünü doğruldur..." deyəndə onun bir dəqiqəlik sükutunda Ustadın böyüklüyünü duydum. Yalçın müəllim heç vaxt dəyişmədi. İnsan kimi sabitqədəmliyini həmişə qoruyub saxladı.

Mənim üçün cığırını açdığı və yaşıl işıq yandırdığı peşə yolunda addımlayarkən əmin oldum ki, Yalçin müəllim özündən sonrakı illərin Jurnalistika fakültəsini də formalaşdırdı. İndi tək mənə yox, fakültənin bir çox əməkdaşına yaşıl işıq yandıran Ustadı anırıq. İl yarım bundan əvvəl Nəsir Əhmədli ilə vidalaşmışdıq. Cismani ayrılıq onun da payına düşdü. Məkanınız cənnət olsun, ustad!!!

***Aynur NƏSİROVA,***
***BDU-nun beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri***

Aşıq sənətini yaşadanlar

# Bir "Ürfani" çal, ay Mirzə...

**Ulu Borçalının sazını-sözünü yaşadanların avazı Dədə Qorqud ruhundan yoğurulub. Bu diyar Xındı Məmməd, Əmrah Gülməmmədov, Hüseyn Saraçlı, Kamandar Əfəndiyev kimi sənətkarlar yetirib.**

Aşıq Kamandarın layiqli davamçısı olan Mirzə Alı oğlu Məmmədov ustadının tövsiyəsi ilə saza, sözə ömürlük bağlanıb. Onun istedadı, ədəb-ərkanı, ustadlara sayğısı daim diqqət çəkib. Ustadı səpə-səpə gedib, o da onun arxasınca yığa-yığa.

Bu gün Aşıq Kamandar cismən dünyadan köçsə də, ruhən Aşıq Mirzənin sazında, sözündə yaşayır. Bir də onun misralarından ustad Əmrahın ruhu boylanır. Danışanda sözləri sanki ahənglə, nəzmlə dildən çıxır. Buna görə də Borçalı məclislərinin bəzəyidir Aşıq Mirzə. Ustadlarının ocağından köz götürüb, yana-yana püxtələşməsinə görədir ki, elin, obanın sevimlisi olub.

...O, qısa müddət ərzində qardaşlarını itirib. Bu səbəbdən ağır psixoloji sarsıntılar keçirib. Uzun müddət sazı əlinə almayıb. Ancaq Aşıq Kamandarın, ustad Gülabı Vəliyevin "təpinmə"lərindən sonra yenə sazlı-sözlü dünyaya qayıdıb. Dostu Hümbət Mahmudoğlu da ona üz tutaraq deyib:

**Ustadlara hörmət elə,**
**Daim yada sal, ay Mirzə.**
**Al sinənə telli sazı,**
**Bir "Urfanı" çal, ay Mirzə.**

Onun qayıdışı daha sanballı olub, səsli-sədası təzədən aləmə yayılıb. Və sevinib ki, ustadlarının yeri boş qalmayıb. Aşıq Mirzənin sinəsini sazsız, dilini sözsüz təsəvvür etmək mümkün deyil. Çox sevdiyi "Döşəmə Koroğlu"nu xüsusi zövqlə və şövqlə ifa edərək, dinləyicilərinə Vətənə məhəbbət, yurda bağlılıq ovqatı aşılayır, coşğun bir ortam yaradır ətrafında. Bu gün saz öz müqəddəsliyi, söz öz kəsəri ilə Aşıq Mirzənin ruhundan, qan yaddaşından qaynayır.

El məclislərində onun ustad Kamandar tərzində ustad Əmrahdan oxuduğu



sözlər dalqa-dalğa ətrafa yayılır, pərvanələri dövrəsinə yığır. Hər çıxışını bir sənət imtahanı sayan Aşıq Mirzə məclislərdə canlı ifasıyla ilk növbədə ustadlarının ruhunu şad eləyir.

Aşıq Mirzənin qardaşları Aşıq Mehman və Novruz da aşıqdırlar. Artıq onların övladları da bu sənətə könül veriblər. Novruzun oğulları Cövdət, Səxavət, Söhrabın oğlu Cəmil gözəl saz ifaçılarıdır, gözəl səsləri var. Alı isə gözəl nağara ifaçısıdır, həm də oxumağı da bacarır.

Sonda Aşıq Mirzənin təb töhfəsi olan "Kür üstündədir" şeirini təqdim edirik:

**O mənim elimdir, mənim Vətənim,**
**Adı çəkiləndə əsir bədənim.**
**Hər gələn mehmana hörmət edənim,**
**İnsanların xası Kür üstündədir.**

**Borçalı bulağı, Kürün qırağı,**
**Bütün mahallarda bəlli sorağı.**
**Marallar ovçusu, laçın yaylağı,**
**Elin xoş sədası Kür üstündədir.**

**Aşıq, nə deyirəm, başa düş məni,**
**Qəriblik sözünə olmaram qəni.**
**Bu Aşıq Əmrahın ana Vətəni,**
**Anamın laylası Kür üstündədir.**

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Uğurlar, hədəflər

# Milli turizmin COP29 çağırışları






**Dünən Bakı Konqres Mərkəzində Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının təşkilatçılığı ilə "Turizm sənaye subyektlərinin ilin yekunları və COP29 ərəfəsində çağırışlar" mövzusunda forum keçirilib.**

Turizm sahəsi üzrə ixtisaslaşmış agentliklərinin təmsilçilərini bir araya gətirən forumda sözügedən sektorun uğurları və perspektivləri nəzərdən keçirilib. Assosiasiyanın İdarə Heyətinin sədri Göydəniz Qəhrəmanov çıxışında ötən ilin ölkə turizmin inkişafı üçün uğurlu olduğunu və turizmin qeyri-neft sektorunun bir qolu kimi xüsusi mərkəzə çevrildiyini bildirib. Müstəqillik dövründə Ümummilli lider Heydər Əliyevin turizmə ayırdığı xüsusi diqqət sayəsində bu sahənin tərəqqi mərhələsinə qədəm qoyduğunu söyləyən sədr deyib ki, Prezident İlham Əliyev qayğısı ilə turizm sahəsi daha da inkişaf edib və beynəlxalq aləmə inteqrasiyası güclənib.

Natiqin sözlərinə görə, pandemiya dövrü nəzərə alınmasa, Azərbaycana səfər edən əcnəbilərin sayı son illər 3 dəfə artıb. Mehmanxana və mehmanxana tipli gecələmələrin sayında 8 dəfə artım müşahidə olunub.

Azərbaycan Hotel Assosiasiyası İdarə Heyətinin sədri Eldar Əlimuradov rəhbərlik etdiyi qurumun fəaliyyətindən bəhs edərək deyib ki, ölkə rəhbərliyinin bu sahəyə önəm verməsi turizm sektorunda canlanmaya səbəb olub. Onun sözlərinə görə, 2011-ci ildən sonra turizmin inkişafı yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycanda bir çox beynəlxalq hotel brendləri təmsil olunur. Hazırda ölkəmizdə 757 hotel fəaliyyət göstərir. Postpandemiya dövründə hotelçilik sahəsi yenidən dirçəlib.

Azərbaycan Turizm Bələdçiləri Assosiasiyasının Baş katibi Tural Musayev bələdçilik fəaliyyətinin turizmin inkişafına təkan verən əsas xidmət sektoru olduğunu qeyd edib. O bildirib ki, ötən dövr ərzində ölkəmizdə turizm bələdçilərin sayı 9 dəfə artıb.

Azərbaycan Turizm Blogerləri Assosiasiyası İdarə Heyətinin sədri Azər Qəribov səyahət etdiyi ölkələrin adət-ənənələri və fərqli xüsusiyyətlərindən söhbət açaraq, Azərbaycanın COP29-a ev sahibliyi edəcək ölkə kimi seçilməsinin əhəmiyyəti barədə danışıb.

Forum çərçivəsində turizm sənayesində ixtisaslaşmış assosiasiyalar birgə bəyanat qəbul ediblər. Sənəddə dövlət başçısının apardığı siyasətə tam dəstək ifadə olunub. Sonra forum işini "Turizmin inkişafında biznes-dövlət əməkdaşlığı, son 20 il ərzində əldə edilən uğurlar" və "COP29 ərəfəsində imkanlar və çağırışlar, turizm sənayesindən gözləntilər" adlı panel müzakirələrlə davam etdirib.

***Ə.DOSTƏLİ***
***XQ***

# Çağdaş "Turan sevdalısı"

**Türk dünyasında araşdırmaları ilə məşhur olan folklorşünas, publisist Əli Şamilin yaradıcılığına həsr edilən "Turan sevdalısı" məqalələr toplusu soydaşımızın ədəbiyyat tarixi, türkologiya və publisistika ilə bağlı dəyərli tədqiqatlarına işıq tutan yeni bir təqdimatdır.**

Əli Şamil elmi-publisistik yaradıcılığı ilə yalnız Azərbaycanda deyil, bütün Türk dünyasında tanınan alimlərdəndir. O, Türk xalqlarının yaşadığı əraziləri qarış-qarış gəzib, zəngin materiallar toplayıb, bu da onun tədqiqatlarının məzmununa ciddi təsir göstərib. Onun "Türkçülüyün qurbanları", "Quzey Kıbrıs", "Uyğur, qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı", "Colan türkmanları", "Qaşqaylar və onların folkloru", "Parçalanmış Türküstanı gəzərkən", "Qırım sevgisi" adlı araşdırmalarından da Əli Şamil yaradıcılığının necə geniş bir çoğrafiyanı əhatı etdiyi görünür.

Kitaba "Turan yolçusu" adlı ön söz yazan filologiya elmləri doktoru, professor Vaqif Sultanlı Əli Şamilin yaradıcılığını belə qiymətləndirir: "Tarixin və taleyin axarında dünyaya səpələnmiş türk toplumunun yurd saldığı elə bir yer yoxdur ki, Əli Şamil ora baş çəkməsin. Getdiyi, gəzdiyi, qonaq olduğu yerləri Böyük Vətənin bir hücrəsi kimi sevdiyi, bağlandığı və tanıtdığından araşdırmaları elmi yönü ilə yanaşı, milli mahiyyət daşıyır. Bu səpkili yazılarının ən mühüm özəlliyi isə uzun illər yad güclərin əlilə ayrı salınmış, müxtəlif adlarla parçalanmış, bir-birinə qarşı qoyulmuş Türk xalqlarını Türk Dünyasının ayrılmaz bir parçası kimi təqdim etməyə çalışmasıdır".




Azərnəşrdə işıq üzü görən kitabın elmi redaktoru və tərtibçisi filologiya elmləri doktoru, professor Almaz Həsənqızı, rəyçiləri filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli və filologiya üzrə fəlsəfə doktoru, dosent Sürəyya Sultanovadır. Kitaba Əli Şamilin yaradıcılığı ilə bağlı aparılan tədqiqatlar və xatirələr daxil edilmişdir.

***XQ***

Paytaxtın baş planı

# Bakı daha da gözəlləşəcək

**Ötən ilin sonunda Nazirlər Kabinetinin təsdiq etdiyi Bakı şəhərinin 2040-cı ilə qədərki dövrdə inkişafına dair Baş Planı paytaxtın bütün inzibati ərazisini əhatə etməklə qarşıdakı dövrdə şəhərin əsas inkişaf prioritetlərini özündə əks etdirir. Tanınmış memar Cahid Həsənov dünyanın böyük mədəniyyət mərkəzlərindən sayılan Bakıda nəzərdə tutulan yenilənmə tədbirlərini arxitektura tələbləri baxımından şərh edib. Onun şərhini təqdim edirik:**



Çoxdan gözlədiyimiz və nəhayət, təsdiq olunmuş Bakının Baş Planının memarlıq və şəhərsalmamıza nə verəcəyi ilə bağlı onu deyə bilərəm ki, bu günə qədər memarlıq və şəhərsalmada olmamış yeniliklər baş verəcək. Belə ki, bu gün əsas amil, üzləşdiyimiz, bütün dünya memarlıq və şəhərsalmanın başlıca problemi olan şəhər sıxlığı problemidir.

Sovet dövründə Baş Plan paytaxt şəhərinin əhali sayına və növbəti 10–30 ildə artım nisbəti nəzərə alınmaqla tərtib və təsdiq edilirdi. Dövlət müstəqilliyimiz də məhz həmin qaydaların mövcud olduğu bir vaxtda əldə olundu. Bundan sonra əhali artımı proqnozlara qətiyyən uyğun gəlmədi. Bakıya axın artdı. Bir yandan məcburi köçkünlər, digər tərəfdən rayonlarda iş tapa bilməyib paytaxta üz tutanlar çoxaldı. Eləcə də o dövrə hesablanmış yol infrastrukturu indiki tələblərə uyğun deyildi. Yeni Baş Plan isə əhali sayının artımına uyğun hazırlanıb. Buna uyğun tikintilər gedəcək və həmin sıxlıq azalacaq.

Qeyd edim ki, sovet dövründə Bakının bir mərkəzi – "Fəvvarələr meydanı", sonra isə dənizkənarı bulvar vardı. İndi artıq Bilgəhdə istirahət kompleksi, Ağ Şəhər bulvarı, Bakının bütün rayonlarında park və xiyabanlar salınıb, hər kəs öz ərazisində olan parka gedir. Məhz bu, Baş Planda nəzərə alınıb. Biz də şəhərsalma üzrə mütəxəssis, memar olaraq öz təkliflərimizi vermişik.

Əgər Bakıdan kənarda genişmiqyaslı sosial xarakterli bir park salınırsa, yaxud inzibati bina inşa olunursa, avtomatik olaraq özəl firmalar, MTK-lar tərəfindən bu etapın icrası başlanır. Şəhərsalma belə əmələ gəlir. Həmin binalarda qiymət baha olduğuna görə artıq insanlar düşünür ki, şəhərin sıxlığında nə işim var, yanında parkı, məktəbi, hətta metrostansiyası olan evlər var. Deməli, Bakı şəhərinin mərkəzi ərazilərinin çoxalması şəhərdə sıxlıq yaradan amillərin aradan qaldırılmasına gətirib çıxaracaq.

Yeni salınacaq yollarda zolaqların enli olması, uzunluğunun çoxalması, 360–400 kilometrlik əlavə yolların salınması onu göstərir ki, yolların sıxlığı dünənin və bugünün problemidir, sabah vəziyyət düzələcək.



Onu da deyim ki, Baş Planın təsdiqi növbəti dövr üçün yalnız iqtisadiyyatın artımı deyil, memarlıq və şəhərsalmanın genişlənməsi, idman komplekslərinin, özəl sektorların yeni ərazilərdə sayının xeyli artırılması, iş yerlərinin açılması deməkdir. İndi həm də şəhərin Baş Planında yaxın 50 ildə dünya sənayesində hansı nəqliyyat vasitələrinin inkişaf edəcəyi nəzərə alınıb ki, bundan da məqsəd şəhərdə tıxacların ləğvi, sıxlığın aradan qaldırılması və bir çox digər infrastruktur problemlərin kompleks həllinə nail olmaqdır.

Baş Planda tam şəkildə, hətta Xırdalan dairəsində olacaq qollar, yolayrıcları, körpünün aşağı istiqamətdəki yoldan yükü öz üzərinə götürən şaxələr vasitəsilə ərazilərə istiqamətləndirilməsi mexanizmi özünün geniş əksini tapır.

Bütün bunlar əminlik yaradır ki, yaxın gələcəkdə şəhərsalmada nümunəvi qayda olacaq, yeni mədəni obyektlərlə, müasir üslubda tikiləcək binalarla, park və xiyabanlarla, möhtəşəm abidələrlə paytaxtımız daha da gözəlləşəcək.

***XQ***

Xarici mediadan seçmə

# Dünya 2024-cü ildən niyə qorxmalıdır?

## "UnHerd": Bu il daha təhlükəli olacaq

**2023-cü il dünya üçün hər günü qana bələnmiş və insan iztirabları hopmuş çox ağır bir il oldu. Çoxsaylı münaqişələr və böhranlar planetimizi sanki didirdi. Kim deyə bilər ki, bu il yaxşı olacaq? Hələ ki, 2024-cü il üçün siyasi analitiklərin və iqtisadçı ekspertlərin proqnozları 2024-cü ilin daha da pis olacağını vəd edir.**

2020-ci ildə Mişel Uelbekdən soruşanda ki, koronavirus pandemiyasından sonra dünyanı necə təsəvvür edirsiniz, o, çox sərrast bir cavab verdi: "Eynən belə, ancaq bir az daha pis". 2024-cü ildə də oxşar bir şeyin bizi gözlədiyini qabaqcadan görmək üçün falçı olmaq lazım gəlmir. 2023-cü ildə dünyada 1945-ci ildən bəri görünməmiş qlobal münaqişələr baş verdi. Bu il isə daha da pis olacaq. Əlbəttə, dünya müharibəsi hələ uzaqda olsa da, planeti qəddar düşmənçilik bürüyüb: birqütblü ABŞ imperiyasından qalan qənimətlərin bölüşdürülməsinin böyük post-qlobalizm dövrü başlayıb. 1940-cı illər Böyük Britaniya üçün və ya 1991-ci il Rusiya üçün necə olubsa, qarşıdan elə bu cür epoxal bir dövr yaxınlaşmaqdadır.

Keçmişdə qalan iki dünya müharibəsindən fərqli olaraq, hazırkı rəqiblər fövqəldövlətləri birbaşa qarşıdurmaya çağırmırlar - ən azından hələlik. Eyni zamanda, Amerika hegemonluğu dolayısı ilə çox ciddi çağırışla üzləşib: zəif satellit-dövlətləri hədəfə alan rəqiblər onun imperiyasının ucqarlarını yavaş-yavaş gəmirirlər. Çünki əmindirlər ki, bugünkü Amerika öz nizamını dünyaya sırımaq üçün kifayət qədər logistik potensiala və daxili siyasi sabitliyə sahib deyil.



1990-2000-ci illərdə, özünün birqütblü dövrünün zirvəsində olan ABŞ, demək olar ki, dünyanın qalan hissəsini özünün satellitinə çevirmişdi. Sonra onlar hesab göstərənlərə, səxavətlə indi çox çətinliklə nağdlaşdırılan təhlükəsizlik çekləri verdilər: eynən iflas kimi, tənəzzül də əvvəlcə tədricən, sonra isə birdən-birə yerə gəlir. Tarixə keçən 2023-cü il kimi, 2024-cü ilin əsas mövzusu da qlobal hökmranlığın sonunu sürətləndirən imperiyanın gərginliyinin həddini aşması olacaq. Hələ ki, Amerika təhlükəsizlik xidmətləri Qırmızı dənizdən Donbasa, Cənubi Amerikanın cəngəlliklərindən Uzaq Şərqə qədər dünya miqyasında alovlanmaq təhlükəsi yaradan lokal yanğınları çılğınlıqla söndürə bilirlər.

Ancaq işlər necə pis olursa-olsun, onlar həmişə daha da pisləşə bilər. Bəlkə də biz çox tələsdik və unutduq ki, cəmi altı ay əvvəl Priqojinin ildırımsürətli və gözlənilməz üsyanından dərhal sonra Rusiya təhlükəsizlik xidmətləri hərarətlə və yüksək səslə – ya Qərbə xəbərdarlıq olaraq Ukraynaya, ya da birbaşa Qərbin özünə, nüvə zərbəsi endirməyin məqsədəuyğunluğunu müzakirə edirdilər. İstər qlobal, istərsə də daxili böhran hissi gündəlik həyatda o qədər dərin kök atıb ki, "soyuq müharibə"dən bəri ən təhlükəli nüvə eskalasiyası faktiki olaraq diqqətdən kənarda qalıb. Biz şükür etməliyik ki, bu an keçdi, lakin bu, özü-özlüyündə Amerikanın qlobal mövqeyinin zəiflədiyinin sübutudur. Nüvə narahatlığının qısa müddət ərzində alovlanması Kremlin həm daxildə görünməmiş təhlükə gördüyü, həm də Ukrayna Silahlı Qüvvələrinin çoxdan gözlənilən yay əks-hücum əməliyyatı ərəfəsində döyüş meydanında məğlubiyyət riski ilə üzləşdiyi bir vaxtda baş verdi. Ancaq əks-hücum, indi bildiyimiz kimi, bütün gözləntiləri alt-üst etdi və Ukrayna üçün ağrılı uğursuzluğa çevrildi. İndi bəlli olur ki, nüvə müharibəsi riskini azaltmaq üçün Kiyev ən yüksək qiyməti ödəməli olacaq.

Sanki anlaşılmaz şahmat oyununda olduğu kimi, Ukraynada cəbhə xəttləri bu il demək olar ki, dəyişməyib - amma gözləntilər tamamilə dəyişib. Bir il əvvəl hamı razılaşdı ki, Xüsusi Hərbi Əməliyyatın özü artıq Putin üçün strateji məğlubiyyətə çevrilib: onun ordusu gözlənilmədən zəif, döyüş meydanında səmərəsiz olub və 2022-ci ilin payızında Ukrayna Silahlı Qüvvələrinin şimal-şərqdəki hücumları nəticəsində dağılıb. Amma NATO alyansı nəinki daxili fikir ayrılıqları səbəbindən dağılmadı, həm də səfərbər olmaq üçün yeni məqsəd tapdı: Rusiya təhlükəsinə qarşı birləşmək və Ukraynanın hərbi qələbəsi üçün artıq mövcud olan və hələ planlaşdırılmamış böyük miqdarda hərbi texnika göndərmək. İndi bu zəfər hissi çoxdan ötüb geçib. Qərbin qələbə naminə vəd etdiyi sursat istehsalında sıçrayış baş tutmadı və Rusiya nəinki iqtisadiyyatını müharibə vəziyyətinə keçirdi, həm də Qərb şirkətlərini ələ keçirməklə Qərbin sanksiyalarına tutarlı cavab verdi. Yəni nəticə gözləntilərin tam əksinə oldu: Rusiya hücum imkanlarını gücləndirdi və iqtisadi bum yaşadı. Qərb Rusiyaya özünün ümid etdiyi hərbi stimul verdi. Nəticədə, indi Ukraynanı qaranlıq və sərt qış gözləyir. Bu il ötənilkindən daha da pis olacaq.

2023-cü ildə Kiyev və onun Qərbdəki himayədarları ölkənin cənub-şərqində bir güclü həmlə ilə münaqişəni uğurla başa vurmağa ümid edirdilər. Gözlənilirdi ki, o, Rusiyanın müdafiə xəttini yarıb Krım və Qara dəniz sahilləri üzərində nəzarəti ələ alacaq, bundan sonra "təhqir edilmiş" Putin, şübhəsiz ki, sülh danışıqlarına başlayacaq. Lakin bu macəra uğursuzluğa düçar oldu və indi münaqişənin daha canlı mərhələsində Zelenskinin verdiyi cəsarətli proqnozda qələbəyə birbaşa yol yoxdur. Ukrayna qoşunları Rusiyanın artan hücum gücünün qarşısını almaq və onu zəiflətmək ümidi ilə şimal sərhədi boyunca və şərqdəki hazırkı cəbhə xəttinin arxasında tələsik müdafiə xətləri çəkirlər. Eynən bu yaxınlarda NATO-nun himayəsi altında formalaşdırılan Ukrayna Silahlı Qüvvələrinin zirehli briqadalarını məhv edən rus istehkamları kimi. Ancaq Rusiyanın Qərbin səxavətlə bağışladığı silahların "polad dağı yaratmaq uğurunu" təkrarlamaq mümkün olmayacaq. Çünki artıq cəbhəyə həvəslə gedən könüllülər dalğası səngidi. İndi onların yerini inadkar çağırışçılar tutub və belə bir vəziyyətdə Kiyev yalnız sıranı saxlamaq üçün yarım milyon insanı səfərbər etməyi planlaşdırır.

Ukrayna Silahlı Qüvvələrinin komandanı Valeri Zalujnıy Prezident Zelenskinin hərbi əməliyyatların sona çatması ilə bağlı hədsiz nikbin proqnozlarını təkzib edəndə və mövcud vəziyyəti "dalan" kimi səciyyələndirəndə, bu, Kiyevdə daxili siyasi parçalanmanın böyüməsini ortaya çıxardı. Sərt reallıq isə ondan ibarətdir ki, indi təşəbbüs Rusiyaya keçib və Ukrayna yalnız bu gün az qala qələbə kimi görünən sülh danışıqları ümidi ilə döyüşləri dalana dirəyə bilər. Amma indiki vəziyyətdə Moskva öz imkanlarına arxayındır və Ukrayna ərazi və siyasi güzəştlərə getməyincə, onlara maraq göstərməyəcək. Ukrayna buna getsə, bu, artıq kapitulyasiyaya bərabər olacaq.

Əgər Kiyev bundan sonra axmaqlıq edərsə, deməli, hegemon dövlət artıq ona marağını itirər. Çünki Birləşmiş Ştatlar bir neçə onilliklər ərzində bataqlığa düşdüyü və çoxlu resurslar sərf etdiyi Yaxın Şərqlə yenidən diqqətini yayındırır. İsrail həm diplomatik, həm də hərbi cəhətdən Vaşinqtondan asılıdır, lakin bu, Netanyahunun Qəzza zolağındakı cəza müharibəsinə heç bir təsir göstərməyib. ABŞ elçiləri İsraildən hərbi şövqünü cilovlamağı xahiş edir, lakin Netanyahu, əksinə, dərhal hərbi əməliyyatları genişləndirəcəyini bildirir. Amerika strateqləri Ukraynaya görə qiymətli arsenallarının tükənməsindən narahatdırlar, İsrail isə ABŞ-ın bağışladığı hərbi sursatları hədələyici sürətlə atmaqda davam edir. Vaşinqton sursat istehsalını artırana və arsenalını doldurana qədər – bu, illər çəkə bilər – Qəzzaya və ya Ukraynanın şərqinə atılan hər mərmi Amerikanın hərbi gücünü zəiflədir. Nəticədə, bu "mərmi aclığı" yaradacaq və mövcud resurslar ABŞ-ın bütün dünyada hərbi öhdəliklərini yerinə yetirməsi üçün kifayət etməyə bilər. Bu kəsir Amerikanın rəqiblərinə fövqəldövlətə birbaşa meydan oxumaq üçün nadir və gözlənilməz fürsət verir. Çünki bilirlər ki, ABŞ üçün istənilən uzun sürən yüksək intensivli müharibə aparmaq çox çətin olacaq.

Amma istehsal məntiqi, diplomatik təcrid və Qəzzadakı müharibə ilə bağlı daxili narazılıq birləşərək, ABŞ-ı münaqişənin tez bir zamanda həllini axtarmağa məcbur edirsə, hadisələrin məntiqi, əksinə, vəziyyətin daha da gərginləşəcəyinə səbəb ola bilər. Münaqişənin Livana sıçrayacağı riski heç də azalmayıb - əksinə, İsrail şimal sərhədlərində genişmiqyaslı müharibəyə başlamaq üçün bütün imkanları səfərbər edir, çünki minlərlə dinc israilli "Hizbullah"ın qarşılıqlı artilleriya atəşlərinə görə artıq evlərini tərk edib. Eyni zamanda, Yəmənin husilər hərəkatının Qırmızı dənizdə gəmiçiliyi blokadaya alması göstərdi ki, İsrailə getdikcə artan dəstək üçün Qərb ölkələri birbaşa xərclər çəkir və regional güclər daha böyük əminliklə ABŞ-a meydan oxuyurlar.

Husilər Yəmənin mülki əhalisinə fəlakətlər gətirən Səudiyyə Ərəbistanı ilə onilliklərlə davam edən müharibədən zəfərlə çıxdılar. Bu kampaniyalar zamanı Səudiyyə qüvvələri Amerika təyyarələrindən, bombalarından və ABŞ kəşfiyyatının dəstəyindən geniş istifadə etdi, lakin döyüş meydanında heç vaxt uğur qazana bilmədilər. Bununla müqayisədə Birləşmiş Ştatların qısa müddətli cəza bombardmanı riski husilər üçün yəqin ki, məqbul görünəcək. Amerikanın həm ölkədaxili, həm də beynəlxalq aləmdə İsraili dəstəkləməsi kimi qiymətləndiriləcək daha geniş bir münaqişəyə qarışmaq istəmədiyini bilən husilər daha böyük cəsarətlə Amerika donanmasının konvoylarına birbaşa hücum edəcəklər.

İsrailin Qəzza zolağındakı kampaniyası siyasi baxımdan o qədər zəhərlidir ki, hətta Amerikanın NATO üzrə ən yaxın müttəfiqləri belə, Vaşinqtonun Qırmızı dənizin təhlükəsizliyini təmin etmək səylərindən uzaq durmağı üstün tuturlar. Eyni zamanda, yanlış satınalma siyasəti nəticəsində ABŞ Hərbi Dəniz Qüvvələri ticarət yollarının təhlükəsizliyini təmin etmək üçün resursları səfərbər etməkdə çətinlik çəkir - bu, əslində qlobal imperiyanın əsas funksiyasıdır. Amma Birləşmiş Ştatlar hətta "Hizbullah" və ya husilərlə birbaşa döyüşməkdən yayındığına görə İrana zərbə endirmək perspektivi (bu hətta Amerikanın gücünün zirvədə olduğu bir zamanda həddən artıq iddialı məqsəd hesab olunurdu) çox az ehtimal olunur. Bu da öz növbəsində sonrakı risklərə getmək üçün Tehranın iştahını artırır. Birləşmiş Ştatlar nəinki həddən artıq yüklənib və həddən artıq missiyalarla gəmilərini çox istismar edir, həm də kömək etməyə həvəsi olmayan daha zəif müttəfiqlərindən də asılı vəziyyətə düşüb. Nəticədə, biz Qırmızı dənizdə Amerikanın gələcək Sakit okean münaqişəsində özünü necə aparacağına dair müqəddiməni görürük: bu, başqasını olmasa da, Çini çox ilhamlandıracaq.

Nizə zərbələri ilə zəifləmiş yaralı mamont kimi qanı axan "hegemon" dünya səhnəsində səndələdi. Amerika ayrı-ayrılıqda bütün rəqiblərindən güclü qalmasına baxmayaraq, güclü regional rəqiblərə qarşı eyni vaxtda üç böyük münaqişəyə tab gətirə bilməyəcək. Bunun üçün hazırkı siyasi şəraitdə ağlasığmaz səfərbərlik lazımdır. Amerika öz gücünün zirvəsində olanda rəqibləri bölünüb itaətkarcasına oturdular. Birləşmiş Ştatlar qlobal təhlükəsizlik yükünü öz üzərinə götürdü. O zaman bunun çox asanlıqla əldə edilə biləcəyi görünürdü, lakin bunun uzun müddət davam etməsi lazımi sənaye bazasını tükəndirdi. ABŞ səhv seçim etdi, indi isə geri qayıtmaq çətindir. Nəticədə Amerika artıq müdafiə rejiminə keçərək dirçələn rəqiblərdən müdafiə olunmaq və qlobal siyasətin möhtəşəm remeykini mümkün qədər gec təxirə salmaq cəhdi ilə daha yaxşı dövrlərdə əldə etdiyi nailiyyətləri qoruyub saxlamağa çalışır. Lakin Rusiya, İran və ya Çindən fərqli olaraq, Amerikanın demokratik sistemi qısamüddətli planlaşdırmanı stimullaşdırır və liderlərə uğursuzluğa görə məsuliyyəti növbəti administrasiya qismində fəaliyyət göstərəcək rəqiblərin üzərinə atmaq imkanı təklif edir. Bayden administrasiyası artıq siyasi gücünü itirib və 2024-cü ildə, demək olar ki, müəyyən siyasi məğlubiyyətə doğru gedir. Onlar artıq yorğun və fikirləri dağınıq gerontokrat kimi hakimiyyətin sükanı arxasındadırlar. Amerika tarixinin daha erkən mərhələsində hakimiyyətin ötürülməsinin rəvan davam edəcəyi, imperiyanın strateji məqsədlərinin qorunub saxlanmasında lazımi varisliyin təmin ediləcəyi təbii qəbul edilmişdi. 2024-cü ildə belə davamlılığa ümid etmək olmaz. ABŞ-ın hər iki keçmiş seçki dövrü onilliklərin ən pis vətəndaş iğtişaşları və siyasi qeyri-sabitlik dalğaları ilə yadda qaldı. Hər iki partiya və onların bürokratik aparatı daxilindəki fraksiyaları, partiyanın silahı kimi çıxış edən satılmış mətbuatın asanlıqla radikallara çevirdiyi coşan vətəndaşlara arxalanaraq, bir-birinin legitimliyini şübhə altına alırlar. Bu il görünməmiş siyasi ixtilaflar Amerikanı daxildən sarsıdacaq və dünyanın qalan hissəsi imperiya taxt-tacı uğrunda mübarizənin kölgəsində donub qalacaq.

Vaşinqtonda hakimiyyət uğrunda mübarizə təkcə Ukraynanın deyil, həm də bütün NATO alyansının taleyini həll edəcək. Amerikada seçki ilində Netanyahunun yeni ABŞ administrasiyasının daha əlverişli olacağı ümidi ilə İsrailin gələcək təhlükəsizliyini riskə ataraq, öz müharibəsini daha da uzağa aparmaq, hətta onu regional münaqişəyə çevirmək stimulu var. İran, "Hizbullah" və husilər üçün, Yaxın Şərqdə böyük bir münaqişədən qaçmağa çalışan ehtiyatlı Bayden administrasiyasının məhvi eskalasiya üçün ən böyük fürsətdir. Həlledici zərbə vurmaq fürsəti gözləyən Çin üçün optimal vaxt Vaşinqtonun daxili qarışıqlıqlardan ən çox diqqətini yayındırdığı vaxt olacaq – ola bilsin ki, qarşıdan gələn seçki mövsümü bu fürsəti təmin etsin. Bunu əldən vermək olmaz, çünki o bir daha təkrarlanmaya bilər. Bu da öz növbəsində Tayvanın ələ keçirilməsini sürətləndirəcək.

Son onilliklər ərzində dünya özünün ən təhlükəli dönəmini yaşayır və hər bir teatrda baş verən hadisələrin məntiqi gərginliyin bu ilə də adlayacağını vəd edir. 2024-cü ildə ABŞ-ın gərgin daxili çəkişmələri Amerika imperiyasının qənimətləri uğrunda gedən qanlı dünya mübarizəsi ilə böyük rezonans doğuracaq. Ötən 2023-cü il qlobal münaqişələr səbəbindən qana bulanmış və insan iztirabları ilə müşayiət olunan çətin bir il oldu. Ancaq geriyə baxsaq, biz, bəlkə də, o ili qorxulu fırtınaların hələ üfüqdə olduğu il və dünya nizamının qızıl payızı kimi xatırlayacağıq. Bu il tarixi il olacaq və biz ondan qorxmaqda həqiqətən haqlıyıq.

**Aris Roussinos,**
**"UnHerd", Böyük Britaniya**

*Tərcümə etdi:*
***İlqar RÜSTƏMOV***
***XQ***

# Azərbaycan güləşi rekordlar orbitində

## Yay Olimpiya Oyunları yeni uğurlar vəd edir

**Ötən il Azərbaycan güləşi üçün çoxsaylı rekordlarla əlamətdar olub. Pəhləvanlarımız beynəlxalq arenalarda keçirilən ən nüfuzlu yarışlarda böyük uğurları ilə bizi sevindiriblər.**



**Olimpiya çempionu, Azərbaycan Güləş Federasiyasının İcraiyyə Komitəsinin üzvü Fərid Mansurovla görüşüb, 2023-cü ildə pəhləvanlarımızın qazandıqları nailiyyətlər barədə danışdıq. Ölkəmizdə qədim ənənələri olan güləşin bugünkü inkişafı, beynəlxalq arenalarda pəhləvanlarımızın əldə etdikləri qələbələrdən söhbət açan F.Mansurov, bu uğurların gələcək inkişafımız üçün daha möhkəm təməl yaratdığını bildirdi:**

– Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin idmanın inkişafına göstərdiyi diqqət və qayğı, ayrı-ayrı idman növləri üzrə nail olduğumuz böyük uğurlar Azərbaycanın nüfuzlu idman ölkəsi kimi şöhrətini yüksəldir. Ənənəvi idman növlərindən olan güləşdə qazandığımız nailiyyətlər, həm də "güləş ölkəsi" olduğumuzu bir daha sübut edir.

Yola saldığımız ildə yunan-Roma güləşi üzrə millimiz (kişilər) komandalar arasında ilk dəfə dünya çempionu oldu. Yığmamızın xallara (120) və medalların əyarına (2 qızıl, 3 gümüş) görə də öz rekordunu yeniləməsi mühüm nailiyyətdir.

Digər rekordu kişilərdən ibarət komandamız Avropa çempionatında qazandı. Belə ki, yığmamız qitə yarışında medalların əyarına görə (2 qızıl, 3 gümüş, 1 bürünc) öz rekordunu yenilədi. Komandamızın U-23 Avropa çempionatında toplanan xallara (123) və medalların əyarına görə (3 qızıl, 1 gümüş) yüksək nəticə qazandı.

İkiqat dünya çempionu sərbəst güləşçilərimizin nailiyyətlərini də vurğuladı. Qeyd edildi ki, millimiz dünya çempionatında tarixinin ən yüksək xalını (66) toplayıb. 20 yaşadək sərbəst güləşçilərimiz Avropa çempionatında ilk dəfə ən yüksək xala (143) sahib olublar. Eyni uğuru qitə çempionatında tarixinin ən yüksək xalını (145) yığan U-15 millimiz də qazanıb. Sərbəst güləşçilərlə yanaşı, qadın güləşi üzrə də bir sıra rekordlar qeydə alınıb.

Ümumilikdə, güləşçilərimiz 2023-cü ildə Avropa çempionatlarında 22-si qızıl, 20-si gümüş, 30-u bürünc olmaqla 72 medal, dünya çempionatlarında isə 5-i qızıl, 11-i gümüş və 13-ü bürünc olmaqla 29 medal qazanıblar. Şübhəsiz, biz bu nailiyyətlərlə kifayətlənə bilmərik. Qarşıdan dördilliyin ən nüfuzlu yarışı olan Paris Yay Olimpiya Oyunları gəlir. 2024-cü il bu baxımdan dünya idman ictimaiyyəti, həmçinin bizim üçün çox önəmlidir.

**Olimpiya çempionu sonda güləşçilərimizin güclü potensialına güvənərək onlardan yeni uğurlar gözlədiklərini bildirdi:**

–Azərbaycan Güləş Federasiyası bu istiqamətdə ciddi səylər göstərir. Olimpiya Oyunlarına bugünədək yunan-Roma güləşində 2, sərbəst güləş üzrə 1 lisenziya qazanılıb. Əminik ki, pəhləvanlarımız Paris Olimpiadasına maksimum sayda lisenziya əldə edib, bu nüfuzlu yarışda öz sözlərini deyəcəklər. Güləşçilərimizdən Olimpiadada uğurlar gözləyirik.

***Leyla QURBANOVA***
***XQ***


# Bakı Biznes Universiteti
## aşağıda qeyd olunan vakant vəzifəni tutmaq üçün
## MÜSABİQƏ ELAN EDİR

1. İnformasiya texnologiyaları kafedrasının müdiri – 1 yer.

Müsabiqədə iştirak etmək istəyən namizədlərin sənədləri bu elan dərc olunan gündən bir ay müddətində (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 10.00-dan 17.00-dək Bakı Biznes Universitetinin insan resursları şöbəsində (ümumi şöbə) qəbul edilir.

Namizəd aşağıdakı sənədləri təqdim etməlidir:
– ərizə;
– kadrlar uçotunun şəxsi vərəqəsi;
– tərcümeyi-hal;
– ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin notarial qaydada təsdiq edilmiş surətləri;
– elmi və elmi-metodiki işlərin siyahısı;
– kafedra müdirinin müvafiq struktur bölmənin inkişafı ilə bağlı 3-5 səhifədən ibarət platforması.

Müsabiqə aşağıdakı ümumi şərtlər əsasında aparılır:
1. Kafedra müdiri vəzifəsinə kafedrada kadr hazırlığı aparılan ixtisaslara uyğun namizədlər müraciət edə bilərlər.
2. Namizədlərin elmi dərəcə və elmi adları (elmlər doktoru və ya elmlər namizədi (fəlsəfə doktoru) elmi dərəcəsi və professor, dosent elmi adı) olmalıdır.

***REKTORLUQ***

# Müştərilərin nəzərinə!

Dövlət Sığorta Kommersiya Şirkətinin (Azərsığorta) baş ofisi yeni məkana köçürülmüşdür.

Şirkət müştərilərinə bundan sonra yeni ünvanda (Bakı şəhəri, Nərimanov rayonu, Qarabağ küçəsi, 31) xidmət göstərəcəkdir. Əlaqə: *1200

# BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binalarında istismar olunan isitmə-soyutma-havalandırma, su-kanal sistem və avadanlıqlarına texniki xidmətin satın alınması üçün elan edilmiş və elektron satınalma prosedurları çərçivəsində keçirilmiş açıq tender üzrə satınalmalar komissiyasının 28 noyabr 2023-cü il tarixli qərarına əsasən "ESTET" MMC qalib elan edilmişdir. Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən geyimlərin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda satınalmalar komissiyasının 15 dekabr 2023-cü il tarixli qərarına əsasən fərdi sahibkar ELVİN RƏFAİL OĞLU ƏKBƏROV qalib elan edilmişdir. Qalib şəxslə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 005 (30409) 12 yanvar 2024-cü il, cümə

# Güləşçilərimiz daha 3 medal qazanıblar

**Sərbəst güləşçilərimiz "Zaqreb Open"də 3 medal qazanıblar.**



Pəhləvanlarımızdan Əliabbas Rzazadə, Nüreddin Novruzov (hər ikisi 61 kq) və Cəbrayıl Qadjiyev (74 kq) turnirin birinci günündə bürünc medala sahib olublar.

Xorvatiyada keçirilən yarışın ikinci günündə Azərbaycanın üç güləşçisi xalça üzərinə çıxacaq.

Kişilər arasında Vaxit Qalayev (125 kiloqram) misirli Diaeldin Abdelmottalib ilə qarşılaşacaq. Eyni çəki dərəcəsində mübarizə aparan Georgi Meşvildişvilinin rəqibi həlelik dəqiqləşməyib.

Qadınların mübarizəsində isə Gültəkin Şirinova (55 kiloqram) ukraynalı Mariya Vinniklə üz-üzə gələcək.

# Qış "transfer pəncərəsi"

**Azərbaycanda futbol üzrə qış "transfer pəncərəsi" açılıb. Bununla da, klublar heyətlərinə cəlb etdikləri futbolçuları qeydiyyatdan keçirə biləcəklər. Transfer dönəmi üçün son tarix fevralın 9-u olacaq.**



Qeyd edək ki, 2023/2024 mövsümünün yay "transfer pəncərəsi" 2023-cü ilin 15 iyun - 5 sentyabr aralığında olub.

# "Milan" kuboka yetişmədi

**"Milan" İtaliya kubokunun dördddəbir final mərhələsində öz meydanında "Atalanta"ya 1:2 hesabı ilə uduzub.**



Bununla da, "Rossonyerlər" kubok yarışında mübarizəni dayandırıb.

Meydan sahiblərinin yeganə qolunu Rafael Leao vurub. Qonaq komandanın qollarını isə Koopmeyners qapıdan keçirib.

*Leyla SABİRQIZI*
**XQ**

# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

**Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.**

**Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.**

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# "Poeziyamızın ağ çiçəyi"

**Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda mərhum unudulmaz şair Nurəngiz Günün anadan olmasının 85 illiyinə həsr olunmuş "Poeziyamızın ağ çiçəyi–Nurəngiz Gün" adlı toplantı keçirilib. Tədbiri AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq Nurəngiz xanımın poeziyasının çağdaş ədəbiyyatımızda əhəmiyyətindən söz açıb.**

Sonra Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, Atatürk Mərkəzinin direktoru, akademik Nizami Cəfərov Nurəngiz Gün poeziyasının bir çox səciyyəvi cəhətlərindən söz açıblar.




AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun ədəbi tənqid şöbəsinin müdiri, filologiya elmləri doktoru Vaqif Yusifli "Nurəngiz Gün sənətinin özəllikləri", filogiya elmləri doktoru Esmira Fuad "Nurəngiz Gün nəsrində "qırmızı qaranlıqlar"la poetik üzləşmələr", filologiya üzrə fəlsəfə doktoru Bahar Bərdəli "Nurəngiz Günün poetik yaradıcılığı", filologiya üzrə fəlsəfə doktoru, dosent Nərgiz Cabbarlı "Nurəngiz Gün poeziyasında insan–cəmiyyət və insan–təbiət münasibətlərində harmoniya axtarışı" mövzularında məruzələr ediblər.

Tədbirdə Xalq şairi Vahid Əziz, Milli Məclisin deputatları Hicran Hüseynova, Musa Urud, Xalq yazıçısı Elmira Axundova Nurəngiz Gün yaradıcılığının Azərbaycan ədəbiyyatında özünəməxsusluğu haqqında fikirlərini bildirdilər.

Sonda Nurəngiz Günün qızı, filologiya elmləri doktoru, professor, Milli Məclisin deputatı Jalə Əliyeva AMEA-nın rəhbərliyinə, tədbir iştirakçılarına, Nurəngiz Gün sənətinin incəliklərini öyrənən alimlərə minnətdarlığını bildirib.

*Kəmalə ABDİNOVA*
**XQ**

# Üzə "baxıb" diaqnoz qoyan cihaz

***Kanadanın "NuraLogix" tibbi texnologiya şirkəti CES 2024 sərgisində insanın üzünü, o cümlədən dəri altındakı qan damarlarını skan edən və əldə edilən məlumatlar əsasında onlarla xəstəliyin əlamətlərini müəyyən edən "Anura MagicMirror" adlı innovativ cihazı təqdim edib.***

"Anura MagicMirror" 21,5 düymlük ekrana, kameralara və digər sensorlara malik masaüstü cihazdır. Cihaz ilk növbədə qan axınının analizinə diqqət yetirərək üzü skan edir. Bu qədcət üz nahiyəsində qan damarlarını aşkar etmək üçün unikal transdermal optik görüntüləmə texnologiyasından istifadə edir. Maşın öyrənmə alqoritmləri bu məlumatlardan 100-dən çox sağlamlıq parametrini təhlil etmək üçün istifadə edir.

"Bildirilir ki, "MagicMirror" qan təzyiqi, bədən kütləsi indeksi, ürək dərəcəsi dəyişkənliyi, ürək döyüntüsü, tənəffüs dərəcəsi və üz dərisinin yaşı haqqında məlumat verə bilər. Cihaz şəkərli diabet, ürək-damar xəstəlikləri, insult, hipertoniya, qaraciyər yağlanması və digər xəstəliklərin inkişaf riskini də qiymətləndirə bilər. O,



psixi sağlamlıq riskinin qiymətləndirilməsini təmin edir və narahatlıq pozğunluqları və depressiya əlamətlərini müəyyən edir.

Üzün skan edilməsi prosesi cəmi 30 saniyə çəkir, bundan sonra istifadəçi potensial patologiyalar haqqında məlumat alır.

**XQ**

## Hava




**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən yanvarın 12-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Mülayim cənub küləyi əsəcək. Gecə 2-4°, gündüz 7-10° isti olacaq.Atmosfer təzyiqi 759 mm civə sütunundan 750 mm civə sütununa enəcək, nisbi rütubət 55-65 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən qərb rayonlarında arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 6-11° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacaq.

*Q. QASIMOV*
**XQ**

## Maraq dünyamız

# Konfet satmaqdan dahiyanə kəşflərə

*Müəllimləri bu uşağı "kütbeyin" hesab edirdilər*

**Tomas Edison (1847–1931) məşhur ixtiraçı idi. O, fonoqraf yaratdı, teleqrafı, telefonu və lampanı təkmilləşdirdi. Bundan əlavə, telefonla söhbətin əvvəlində "alo" sözünü istifadə etməyi təklif edən də o idi!**



Uşaqlıq illərində üstün qabiliyyətləri yox idi. Məktəbdə zəif oxuyurdu. Dörd aylıq məşqdən sonra müəllimlər anasına hətta Toması məktəbdən çıxarmağı tövsiyə etmşdilər. Çoxları uşağın inkişafında geriləmə olduğundan və ciddi problemlər yaşadığından şübhələnirdi. Ancaq bu, onun gələcəkdə böyük ixtiraçı olmasına mane olmadı. Deməli, müəllimlər də səhv edirdilər.

Tomas Edison karyerasına Port Hurondan Detroyta gedən qatarlarda konfet, qəzet və tərəvəz satmaqla başlayıb. O, 13 yaşınadək həftədə 50 dollar qazanıb. Bu pulun çoxunu elektrik və kimyəvi təcrübələr üçün avadanlıq almağa sərf edib. 16 yaşında ilk teleqraf cihazını icad edib. Bu cihazın hazırlanma hüququnu 40 min dollara sataraq, 1874-cü ildə özünə xüsusi laboratoriya açıb.

O, həyatı boyu öz laboratoriyasında minlərlə təcrübələr aparıb və ixtiralarını praktikaya, məişətə çıxarmaq üçün iri zavodlar yaradıb. Onun kimya, mədən işləri, hərbi texnika sahəsində də mühüm kəşfləri vardır.

*P.ƏFƏNDİ*
**XQ**

## Kino

# Növbəti "Oskar"ları kimlər alacaq?



***Amerikanın Kino Sənəti Akademiyası 10 kateqoriya üzrə "Oskar" film mükafatlarına namizədləri təqdim edib. Siyahı dünən akademiyanın saytında dərc olunub.***

"Ən yaxşı bədii film" kateqoriyasında 15 film, o cümlədən yapon rejissoru Vim Vendersin "İdeal günlər", meksikalı rejissor Lila Avilesin "Totem", ispaniyalı Xuan Antonio Bayonun "Qar cəmiyyəti", britaniyalı Conatan Qlazerin "Maraqlar zonası", ukraynalı rejissor Mstislav Çernovun "Mariupolda 20 gün", həmçinin Danimarka, Finlandiya, Fransa, İtaliya, Tunis və Mərakeşdən olan filmlər namizəddir.

"Ən yaxşı musiqi" kateqoriyasına "Barbie", "Oppenheymer", "Oğlan və quş", "İndiana Cons və taleyin çarxı", "Hörümçək adam: kainatların şəbəkəsi" daxildir.

"Ən yaxşı sənədli film" kateqoriyasında ABŞ rejissorları Metyu Haynemanın "Amerika simfoniyası", Madlen Qevin "Utopiyanın arxasında" və digər ekran əsərləri daxildir.

**XQ**

## Kosmos

# Günəşdən "gizlənən" planetlər

***Prinston Universitetinin astrofiziklәri hesablayıblar ki, Plutonun arxasında kütləsi Marsdan böyük olan 1 planet, Mars ölçüsündə 3 planet və Merkuri ilə müqayisə edilə bilən kütləyə malik, təxminən, 5 planet ola bilər. Araşdırmanın nəticələri "The Astrophysical Journal Letters"də dərc olunub.***

Xəbərdə qeyd olunur ki, xarici Günəş sistemi Günəşdən o qədər uzaqdır ki, teleskoplara orada nəyin olduğunu görmək asan deyil. Bəzi tədqiqatçılar əvvəllər başqa ulduz sistemlərinə aid olan planetlərin orada gizlənə biləcəyini təxmin edirlər.

Belə obyektlərə "qovulmuş" obyektlər deyilir. Onlar ulduzlarından "qoparaq" qalaktikanın ətrafında dreyf etməyə məcbur olurlar, lakin bəzən digər sistemlərin yanından çox yaxın keçərək və ulduza cəlb olunaraq başqa sistemlərə qoşula bilirlər.



Bu fenomenin nə qədər geniş yayıldığı hələ aydın deyil.

Tədqiqatçılar "Süd yolu"nda "qovulmuş" planetlərin sayını və onları cəlb edə biləcək ulduzların faizini hesablayıblar. Məlum olub ki, Merkuri ilə Yer arasında, sadəcə, soyuq və qaranlıqda dreyf edən bir planetin olması ehtimalı kifayət qədər yüksəkdir.

**XQ**

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov Milli Məclisin deputatı, DİA-nın Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirova anası

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3263
SİFARİŞ 49
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00